RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 213 (9380) 1 OKTYABR 2023-cü il BAZAR | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Böyük inamın 20 illik təntənəsi



## 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına taleyüklü seçimlə bağlı müraciət etdi

**"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə 2003-cü il oktyabrın 1-də xalqa tarixi müraciətində Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcəyini siyasi davamçısı İlham Əliyevə etibar etdiyini böyük inamla bildirmişdi.**

Budur, indi Azərbaycan xalqı olaraq Ulu Öndərin həmin tarixi çıxışında vurğuladığı taleyüklü məsələlərin, planların, işlərin Prezident İlham Əliyev tərəfindən böyük əzm, qətiyyət, iradə ilə gerçəkləşdirilməsinin qürurlu şahidliyini edirik.

Ötən 20 il ərzində apardığı müdrik, düşünülmüş, qətiyyətli siyasətin nəticəsində Prezident İlham Əliyev Azərbaycanı hərtərəfli inkişaf etdirərək sayılıb-seçilən dövlətə çevirdi və xəritədə kiçik görünən ölkəmiz bu gün dünyanın harasından baxsan möhtəşəm şəkildə görünür.

Ən başlıcası, İlham Əliyev Ali Baş Komandan olaraq işğal altında olan torpaqlarımızı, Şərqi Zəngəzuru, Qarabağı azadlığına qovuşduraraq ərazi bütövlüyümüzü, suverenliyimizi təmin etdi və bu parlaq zəfərlərlə həm də Azərbaycanı Ulu Öndər Heydər Əliyevin arzularındakı zirvəyə ucaltdı.

→ 3

# Çinlə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı - Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu gün Çin dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə ölkənizin hər bir sahədə əldə etdiyi nailiyyətləri və uğurları onu dünyanın iqtisadi cəhətdən ən qüdrətli və qabaqcıl ölkələri sırasına çıxarmış, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirmişdir.

Yaxın dost və etibarlı tərəfdaş ölkə olan Çinlə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Şadam ki, qədim tarixə və xoş ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir, tərəfdaşlığımız gündən-günə yeni məzmunla zənginləşir.

Məmnunluqla qeyd etmək istərdim ki, hazırda ikitərəfli münasibətlərimiz geniş gündəliyə malikdir. Qarşılıqlı faydalı əməkdaşlığımızın iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, bərpaolunan enerji, humanitar və digər sahələrdə çox aydın və böyük perspektivləri vardır. Eyni zamanda Çindən Azərbaycan vasitəsilə qərb istiqamətində daşınan yüklərin həcminin artması "Kəmər və yol" layihəsi çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətimizin növbəti bariz nümunəsidir.

Çin şirkətləri uzun müddətdir ki, ölkəmizdə səmərəli fəaliyyət göstərir və dövlətlərarası münasibətlərimizin inkişafında vacib rol oynayırlar. Biz bu əməkdaşlığın işğaldan azad olunmuş ərazilərimizdə də davam etdirildiyini görmək istərdik.

Azərbaycan vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü və suverenliyini daim birmənalı şəkildə dəstəkləmişdir. Çinin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndiririk.

Əminəm ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan-Çin çoxşaxəli münasibətlərinin daha da inkişafı, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2023-cü il*

# Beynəlxalq Astronavtika Konqresinin Azərbaycanda keçirilməsinin xüsusi önəmi var

## Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mourini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycanda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətinə toxunaraq, bu tədbirə evsahibliyi etməsi üçün ölkəmizin seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işlərinin görüldüyünü vurğuladı.

→ 2

# BMT: "Qarabağı tərk edən erməni sakinlərə qarşı pis rəftar halları qeydə alınmayıb"



**"Birləşmiş Millətlər Təşkilatı (BMT) Azərbaycanın Qarabağ bölgəsini öz istəkləri ilə tərk edərək Ermənistana köçən erməni sakinlərə qarşı pis rəftarla bağlı heç bir fakt qeydə almayıb".**

"Report" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bunu BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistandakı nümayəndəsi Kavita Belani BMT-nin Cenevrə ofisinin həftəlik mətbuat konfransında onlayn çıxışı zamanı bildirib.

"Bilirəm ki, indiyədək heç bir insident, pis rəftar halları ilə bağlı heç bir fakt yoxdur. Bu, uzun yoldur, tıxaclar insanlar üçün çətinlik yaradır. Lakin azərbaycanlılar tərəfindən pis rəftar halları qeydə alınmayıb", - o deyib.

BMT nümayəndəsinin sözlərinə görə, bir həftədən az müddətdə 88,7 mindən çox insan Qarabağı tərk edərək Ermənistana gedib.

# Qədim Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərlər salınır

## Azərbaycanın bu sahədəki təcrübəsindən dost ölkələr də faydalanır

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif forumdakı çıxışında ölkəmizin şəhərsalma sahəsindəki nailiyyətlərini qeyd edərək bildirib: "Cari Milli Şəhərsalma Forumunda Azərbaycan hökuməti, bütün aidiyyəti qurumlar, eləcə də yerli icra hakimiyyəti, idarəetmə qurumları illik platformada üzərinə götürdüyü Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müvafiq olaraq məlumat, hesabat verirlər. BMT də aidiyyəti qurum olaraq, yeni şəhərsalma gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini, eyni zamanda ərazi, iqtisadi və ətraf mühit planlamasını özündə ehtiva edir. Bəli, Milli Şəhərsalma Forumu məhz ən ali zirvədən tutmuş - söz düşmüşkən, Azərbaycanın həqiqətən də bariz nümunəsi fonunda - milli səviyyədə keçirilən belə bir şəhərsalma forumu ölkələr üçün, nümayəndələr üçün də 2024-cü ildə Qahirədə keçiriləcək müvafiq tədbir üçün həqiqətən də mühüm platformadır... Milli səviyyədə isə bütün bu işlər, iqtisadi, sosial ərazi planlaşdırılması Azərbaycanın, təbii ki, Zəngilanda nümayiş etdirdiyi inkişafla paraleldir. Burada inklüziv, düzgün ərazi yanaşması milli inkişaf planında vəhdət halı almışdır".

→ 7

# İrəvanda xaos davam edir

## Məğlub separatçılar Nikol Paşinyana qarşı çevrilişə hazırlaşırlar

Etiraz aksiyaları zamanı polislər növbəti dəfə müxalifət fəallarına qarşı zorakılıq nümayiş etdiribər. Bu cür faktlara dair videoları dərc edən saytlar hətta "qırmızı beretli"lərdən birinin yaşlı qadına qapaz vurmasını yazıb. Görüntülərdə polisin bu davranışından sonra erməni qadınların onun üzərinə hücum etməsi də əks olunub. Etirazçılar başqa ölkələrdəki "rəngli inqilab" təşkilatçılarının metodları ilə hərəkət edirlər. "Rəngli inqilab"ın emissarları Hayastanda hakimiyyətdən yığılıb qalmış narazılıqlardan istifadə etməyə çalışırlar. Etirazçılar arasında polislə toqquşma zamanı özünü necə aparmaq, necə təşkilatlanmaq və s. barədə vərəqələr paylanır.

→ 8

# Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat



# Beynəlxalq Astronavtika Konqresinin Azərbaycanda keçirilməsinin xüsusi önəmi var

## Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı xeyli sayda qonağın iştirak edəcəyi bu tədbirin Azərbaycan ilə daha yaxından tanış olmaq və gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından önəmli olduğunu qeyd etdi.

Kley Mouri Azərbaycana gəlməkdən məmnunluğunu bildirərək, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlət başçısına minnətdarlığını ifadə etdi, Azərbaycanın Konqresə hazırlığını yüksək qiymətləndirdi.

Konqresin əhəmiyyətinə toxunan qonaq burada 100-dən artıq ölkədən 5 mindən çox nümayəndənin iştirakını tədbirə verilən önəmin göstəricisi kimi dəyərləndirdi. Qeyd etdi ki, bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədədir, hətta bəzi göstəricilərə görə onlardan da üstündür.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti bildirdi ki, bu tədbir təqdim ediləcək elmi məqalələrin sayına görə də ən önəmli konqreslərdən biri olacaq. Belə ki, konqresə 3600-dək elmi məqalə təqdim ediləcək.

Bu tədbir çərçivəsində BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin və Beynəlxalq Astronavtika Federasiyasının birgə təşkilatçılığı ilə "Sosial və iqtisadi faydalar naminə kosmik texnologiyalar" adlı seminarın və Kosmik Nəsil Məşvərət Şurasının Kosmik Nəsil Konqresinin də keçirildiyi bildirildi.

Söhbət zamanı Bakı şəhərinin və Konqres Mərkəzinin bu mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə hazırlığı xüsusi qeyd olundu.

# XİN erməni radikal qruplaşmalarının ABŞ-də təşkil olunan konfransın iştirakçılarına qarşı hücumunu pisləyib

**Azərbaycanın Xarici İşlər Nazirliyi erməni radikal qruplaşmalarının ABŞ-də təşkil olunan konfransın iştirakçılarına qarşı hücumu ilə bağlı bəyanat yayıb.**

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bəyanatda deyilir: "Sentyabrın 29-da ABŞ-nin Los-Anceles şəhərində erməni radikal qruplaşmalarının Cənubi Kaliforniya Universitetində Annenberq Kommunikasiya və Jurnalistika fakültəsi və Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə baş tutan "Türkiyənin ictimai diplomatiyası" mövzusunda konfrans iştirakçılarına qarşı hücumunu kəskin qınayır və pisləyirik.

Otuz ilə yaxın işğal müddətində, o cümlədən 44 günlük Vətən müharibəsi, habelə bölgədə aparılan son antiterror tədbirləri ərəfəsində ölkəmizə, həmvətənlərimizə, habelə qardaş Türkiyə Respublikası və onun vətəndaşlarına qarşı atılan, Ermənistanın etnik nifrət və dözümsüzlük siyasətinin təcəssümü olan bu kimi addımların intensiv və sistematik xarakter alması ciddi təhdid mənbəyidir.

Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının uğursuzluğa düçar olmasını, habelə bölgədə yaradılan qeyri-qanuni rejimin süquta uğramasını həzm edə bilməyən radikal erməni diaspor nümayəndələrinin bu kimi aqressiv hücumları cinayət əməlidir və müvafiq olaraq cəzalandırılmalıdır.

Bu hücumun timsalında radikal erməni qruplaşmalarının bu kimi irqi ayrı-seçkilik, nifrət nitqi və zorakılıq elementlərini özündə ehtiva edən davranışları geniş beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə qınanmalı, bu cür hərəkətlərin qarşısının alınması üçün aidiyyəti dövlət qurumları tərəfindən müvafiq addımlar atılmalıdır".

# *XİN:* "Ermənistan Beynəlxalq Ədalət Məhkəməsindən öz məkrli siyasi gündəliyi üçün sui-istifadə edir"

**Sentyabrın 29-da Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Ermənistan Azərbaycana qarşı) müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə irəli sürdüyü növbəti iddialar tamamilə əsassız və absurddur.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycana qarşı növbəti iddiaları ilə bağlı şərhində yer alıb.

Mətbuat katibi bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı Ermənistanın iddialardan əl çəkmədiyini, Beynəlxalq Ədalət Məhkəməsinin qeyd edilən iş üzrə əvvəlki qərarını heçə sayaraq azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təşviqinə yönələn bu yeni iddialar tamamilə qəbuledilməzdir.



"Ermənistan BMT Təhlükəsizlik Şurasında olduğu kimi, Beynəlxalq Ədalət Məhkəməsindən də öz məkrli siyasi gündəliyi üçün sui-istifadə edir. Təkcə bu il ərzində Ermənistan bu məhkəməyə artıq 3-cü dəfədir müraciət edir. Qeyd edək ki, Ermənistanın yanvar ayında verdiyi 3 vəsatətdən 2-si rədd edilib, 1-i məhdud formada təmin edilib, may ayında isə verdiyi vəsatətlər hakimlər tərəfindən iyul ayında yekdilliklə rədd edilib.

Azərbaycan tərəfi Ermənistanın bu yeni əsassız iddialarına tutarlı cavablarının əks olunduğu mövqeyini aidiyyəti üzrə məhkəməyə təqdim edəcək", - deyə o qeyd edib.

# Yeni təməli qoyulan Zəngilan kəndində birinci mərhələdə 127 fərdi ev tikiləcək

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun gücü sayəsində azad edilən yurd yerlərimiz yenidən çiçəklənməyə başlayıb. Sentyabrın 28-də dövlət başçısı tərəfindən Zəngilanda daha iki kəndin təməli qoyulub.**

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Aqil Qurbanov Zəngilanda təməli qoyulan kəndlərdən biri - Zəngilan kənd inzibati ərazisi haqqında danışarkən bildirib: "Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır. Şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşən Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət iki və üçmərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulub. Birinci mərhələdə Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək".

Qeyd edilib ki, kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin olunması üçün hər cür şərait yaradılacaq. Bu kənddə də əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdiriləcək.

Zəngilan kəndində 294 şagird yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.

# "Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 981) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bənddə və 3.3.1-ci yarımbənddə "məlumat bazasına" sözləri "informasiya sisteminə" sözləri ilə əvəz edilsin.

2. 2.4-cü bənddə "elektron məlumat bazasının (bundan sonra - məlumat bazası)" sözləri "informasiya sisteminin (bundan sonra - informasiya sistemi)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2023-cü il*

# Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramına (UN-Habitat) vəsait ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı, inklüziv və təhlükəsiz inkişafını təmin etmək Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv dövlətlərin əsas hədəfinə çevrilmişdir. Ötən illərdə Azərbaycan bu sahədə BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramı (UN-Habitat) ilə sıx əməkdaşlıq edərək, qeyd olunan hədəfin reallaşmasına mühüm dəstək göstərmişdir.

Təsadüfi deyildir ki, işğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işləri BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir.

Gələcək inkişafın və rifahın əsas qüvvəsi olan şəhərlərin davamlı inkişafı naminə ölkələrin fəal əməkdaşlığı qlobal sülhə, təhlükəsizliyə və inkişafa mühüm töhfə ola bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dünyada dayanıqlı şəhərlərin inkişafı istiqamətində faydalı əməkdaşlığın genişlənməsinə, eləcə də bu çərçivədə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəstək göstərmək məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) 1,0 (bir) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2023-cü il*

# Zəngilan Konqres Mərkəzi Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün müasir şərait yaradılıb

**Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılışı edilən Zəngilan Konqres Mərkəzi Kompleksində ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaq.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Aqil Qurbanov deyib.




Bildirilib ki, ərazisi 2,2 hektar olan kompleks iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə daha məhdud tərkibli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur.

Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla altı ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb.

Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib.

Qeyd edək ki, mərkəz ötən gün 2-ci Azərbaycan Milli Şəhərsalma Forumuna evsahibliyi edib. Tədbirə 50-dən çox ölkədən 450-yə yaxın yerli və xarici nümayəndə qatılıb.

# Şəhid ailələri və digər həssas qrupların sosial müdafiəsi sahəsində görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib

**Qarşıda duran əsas vəzifələrdən biri şəhid ailələri və digər həssas qrupların sosial dəstək tədbirləri ilə əhatə olunmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bu sahədə aparılan işlərdən bəhs olunub.**

Kollegiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə iştirakçıları ilə bağlı həyata keçirilən geniş sosial dəstək tədbirlərini qeyd edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biri olduğu, qeyd olunan istiqamətdə müvafiq işlərin aparıldığı vurğulanıb.

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminat proqramının uğurla davam etdirildiyi bildirilib. Həmin kateqoriyalardan olan vətəndaşlara bu il daha 750, postmüharibə dövründə 5 250, ümumilikdə ötən dövrdə 14 050 mənzil və fərdi ev təqdim olunduğu qeyd olunub. Yeni mənzil və fərdi evlərin təqdim edilməsi tədbirlərinin qarşıdakı dövrdə də davam etdiriləcəyi barədə məlumat verilib.

Sosial xidmətlər sahəsində görülən işlər, o cümlədən bu il 5149 nəfərə evdə sosial-məişət xidməti göstərildiyi, 100 uşağın övladlığa verildiyi, reinteqrasiya tədbirləri nəticəsində dövlət uşaq müəssisələrindən 126 uşağın öz ailəsinə qaytarıldığı qeyd olunub. Cari ildə 2247 imtiyazlı şəxsin, o cümlədən 300-dən çox şəhid ailəsi üzvünün sanatoriya-kurort yollayışı ilə təmin edildiyi diqqətə çatdırılıb.

Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması, "Himayədar ailə" qayğı modelinin tətbiqi istiqamətində görülən işlərdən bəhs olunub. "Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı", "Qəhrəmanlarımız üçün yaşıl işıq" sosial-psixoloji dəstək layihəsinin həyata keçirildiyi qeyd olunub.

İclasda sosial xidmətlər, hüquq, beynəlxalq əlaqələr, ictimaiyyətlə əlaqələr və digər sahələrdə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# Bakı Beynəlxalq Astronavtika Konqresinin keçiriləcəyi məkanlara mediatur təşkil olunub

**Sentyabrın 30-da Bakı Konqres Mərkəzində Azərbaycanın Kosmik Agentliyinin ("Azərkosmos") təşkilatçılığı ilə Azərbaycanın media nümayəndələri üçün mediatur təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, mediatur çərçivəsində rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov 74-cü Beynəlxalq Astronavtika Konqresinin 50 ildən sonra yenidən Bakıda keçirilməsini böyük müvəffəqiyyət kimi dəyərləndirib.

"Azərkosmos"un İctimaiyyətlə əlaqələr və kommunikasiya qrupunun rəhbəri Fidan Behbudova media nümayəndələrini Bakı Konqres Mərkəzi, Konqresin Sərgi pavilyonu və Heydər Əliyev Mərkəzində tədbirlərin keçiriləcəyi məkanlarla tanış edib və ətraflı məlumat verib.

F.Behbudova qeyd edib ki, Bakı Konqres Mərkəzində 190-dan çox müxtəlif kosmik mövzularda panel sessiyalar keçiriləcək. Həmçinin burada media üçün media mərkəzi və böyük konfrans zal konqres çərçivəsində baş tutacaq mətbuat konfransları üçün nəzərdə tutulub. Həmçinin Konqres Mərkəzində uşaqlar üçün xüsusi zona ayrılıb.

Mediatur zamanı Bakı Konqresində 250-dən çox media nümayəndəsinin qeydiyyatdan keçdiyini diqqətə çatdıran Fidan Behbudova bildirib ki, media iştirakçılarının 60-dan çoxu xarici KİV-in təmsilçiləridir.

Daha sonra media nümayəndələri Konqresin Sərgi pavilyonu ilə tanış olublar. Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin ərazisində inşa edilmiş 7800 kvadratmetrlik sərgi pavilyonunda müxtəlif ölkələrin kosmik qurumları və şirkətlərinin stendləri qurulub. Sərgi pavilyonunda 50-dən çox təşkilatla iştirakla bağlı müqavilə imzalanıb.

Bildirilib ki, "Azərkosmos" və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə keçiriləcək 74-cü konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq.

Texniki sessiyalar görkəmli memar Zaha Hadidin layihələndirdiyi möhtəşəm Heydər Əliyev Mərkəzində baş tutacaq.

Oktyabrın 2-də rəsmi açılış mərasimi olacaq Bakı Beynəlxalq Astronavtika Konqresində kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri, ümumilikdə 4 mindən çox nümayəndə iştirak edəcək.



# Heydər Əliyev İli 2023

# Böyük inamın 20 illik təntənəsi

## 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına taleyüklü seçimlə bağlı müraciət etdi



*Əvvəli 1-ci səh.*

### Xalq ona, o da xalqına arxa-dayaq idi

Dünyanın ən böyük azərbaycanlısı olan Heydər Əliyev həyatını Azərbaycan xalqının rifahı və tərəqqisinə sərf edib, bu amal naminə ömrünün sonuna kimi əzmlə çalışıb.

Ulu Öndər ölkəmizdə hakimiyyətdə olduğu hər iki dövrdə, xüsusilə də 1993-cü ildən sonra Azərbaycanı inkişaf etdirmək, eləcə də müstəqilliyini, dövlətçiliyini möhkəmləndirmək üçün mühüm işlər görüb, nəhəng layihələr gerçəkləşdirərək iqtisadiyyatımızı yüksəldib, qətiyyətli siyasət yürüdərək milli maraqlarımızın təmini ilə bağlı müstəsna fəaliyyət göstərib.

1994-cü ildə Azərbaycanda "Əsrin müqaviləsi"nin imzalanmasına nail olaraq ölkəmizi sosial-iqtisadi böhrandan xilas edib inkişaf yoluna çıxaran Ümummilli Lider Heydər Əliyevin apardığı müdrik diplomatik siyasət nəticəsində beynəlxalq səviyyədə Qarabağ məsələsini süni şəkildə gündəlikdən çıxarmaq istəyənlər məkrli məqsədlərinə çata bilmədilər.

Ulu Öndər bütün mötəbər tribunalarda bu məsələni qaldırdı, eyni zamanda Qarabağla bağlı Azərbaycana edilən təzyiqlərə baxmayaraq, dəmir iradəsi, qətiyyətli mövqeyi və çevik diplomatik siyasəti ilə böyük güclərə qarşı sözün əsl mənasında savaşdı.

Azərbaycan dövlətinin var olması yolunda uğurla addımlayan Heydər Əliyev daim xalq tərəfindən dəstəkləndi. Onu özünün Ümummilli Lideri sayan xalqımız daim bu böyük şəxsiyyətə yüksək ehtiram göstərir, böyük inam bəsləyirdi.

Özünə olan bu tükənməz inamdan güc alan Ulu Öndər Heydər Əliyev buna görə də oktyabrın 1-dəki müraciətində üzünü xalqa tutub deyirdi: "Öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram".

Ulu Öndər xalqı əmin edirdi ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. 2003-cü il oktyabrın 1-də Ulu Öndərin bəyan etdiyi bu fikirlər xalq tərəfindən dəstəkləndi və onları vahid amal ətrafında səfərbər etdi.

20 il öncə - 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində xalq yekdilliklə İlham Əliyevi dəstəkləyərək onu ölkəsinin Prezidenti seçdi. Bu taleyüklü seçimin edildiyi həmin tarixdən etibarən Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və inkişaf edən müasir müstəqil Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə qələbələrlə, zəfərlərlə bol olan ən qüdrətli dövrünə qədəm qoydu.

### Tarixi zəfərlərdə qalib lider İlham Əliyevin parlaq və silinməz imzası var

2003-cü il oktyabrın 15-dən - İlham Əliyevin xalqın yekdil qərarı ilə Prezident seçilməsindən ötən 20 illik dövrə qısa nəzər yetirdikdə belə bir möhtəşəm xronikanı izləyirik:

- Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi, mədəni, ümumiyyətlə, bütün sahələr üzrə böyük tərəqqi və inkişaf yaşanıb, respublikamız Cənubi Qafqazın lider ölkəsi olub;
- Ölkəmiz qlobal miqyaslı məsələlərin, problemlərin həlli ilə bağlı müzakirələrin, dialoqların aparıldığı unikal ünvan kimi beynəlxalq aləmə səs salıb;
- Respublikamız dünyanın enerji, yol qovşağına çevrilib;
- Ərazisi işğal altında olan ölkədən zəfər ölkəsinə, məğlub xalqdan qalib xalqa çevrilib;
- Torpaqlarımız 30 illik əsarətdən qurtulub, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olunub;
- Sərsəm erməni millətçilərinin Qarabağda yaratdıqları quldur yuvası dağıdılıb, torpaqlarımızda iki əsrlik erməni layihəsi iflasa uğradılıb;
- Yüz minlərlə insanımızın yurd həsrəti bitib, cənnətməkana çevrilən Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış gerçəkləşdirilib.

Cəmi iki onillik ərzində Azərbaycan adına qazanılan bütün bu tarixi zəfərlərdə isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı qalib lider İlham Əliyevin parlaq və silinməz imzası var.

### Ulu Öndər siyasi kursunun layiqli davamçısı

Ümummilli Lider Heydər Əliyevin ocağında layiqli Azərbaycan vətəndaşı kimi yetişən İlham Əliyev atasının yolu ilə addımlayaraq və uca şəxsiyyətin yarımçıq qalan taleyüklü işlərini, planlarını gerçəkləşdirərək Azərbaycan xalqı, dövləti adına misilsiz tarixi qələbələr qazanıb.

Bütün bu misilsiz uğurlar, nailiyyətlər həm də uca şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcəyini özü qədər inandığı İlham Əliyevə etibar edərək, bir daha müdrikliyini, uzaqgörənliyini və vətən sevgisini izhar etməsinin möhtəşəm təcəssümüdür.

Necə oktyabrın 1-də tarixi müraciətində müdrik rəhbər xalqa üzünü tutaraq əminliklə bildirmişdi ki, yüksəkintellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət İlham Əliyev Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək.

Bu tarixi müraciətin üzərindən cəmi 20 il keçdikdən sonra xalqımız vaxtilə Ulu Öndərin söylədiyi bütün bu məsələlərin real müstəvidə təzahürünün, Azərbaycan xalqının, dövlətinin taleyüklü məsələlərinin İlham Əliyev tərəfindən necə əzm və qətiyyətlə həll edildiyinin şahidi oldu.

Hələ 2018-ci il aprel seçkilərində daim xalqa arxalandığını və onların dəstəyindən güc aldığını deyən İlham Əliyev vurğulamışdı: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim".

Azərbaycan xalqı müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından Şuşanın azadlığını xalqımıza müjdələyən zaman bir oğul olaraq ata vəsiyyətini layiqincə yerinə yetirməsindən doğan qüruruna isə belə şahidlik etmişdi: "...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!.."

Elə 2023-cü idə Azərbaycanın suverenliyini təmin etməsi və Qarabağda iki yüz illik erməni layihəsini darmadağın etməsi də müstəqil Azərbaycanın bünövrəsini qoymuş və indi yüzillik yubileyini təntənəli şəkildə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə Prezident İlham Əliyevin bir dövlət başçısı, bir Azərbaycan vətəndaşı, bir oğul olaraq ən böyük töhfəsi oldu.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Mingəçevirlilər Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini yüksək qiymətləndirirlər

**"Heydər Əliyev İli" çərçivəsində Mingəçevir Dövlət Universitetində şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "Əsrin müqaviləsi tarixi zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda konfrans keçirilmişdir.**







Konfransda şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış etmişdir. Bildirilmişdir ki, Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir. Həmin illər Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox qurğu gətirilmiş, Xəzərin dərinliyində işləməyə imkan verən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaranmışdır. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yatağı kəşf edilmiş, neft ehtiyatları 2, qaz ehtiyatları isə 3 dəfə artmışdır. 80-ci illərdə isə üzən qazma qurğularının sayı 11-ə çatmışdır və onlardan istifadə nəticəsində indi Azərbaycan neftinin əsas hissəsini verən "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf olunmuşdur.

Qeyd edilmişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşmişdir. Bu çətinliklər aşkar edilmiş "Azəri", "Çıraq", "Günəşli" kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdan Heydər Əliyev müstəqilliyini yenicə bərpa etmiş ölkənin neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı. Ümummilli Lider xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və yeni neft strategiyası tez bir vaxtda işlənib hazırlandı. Elə ilk günlərdən ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev danışıqlar prosesinə cəlb edilərək yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. 1994-cü il sentyabrın 20-də "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi üzrə 7 ölkənin 11 məşhur neft şirkəti ilə "Əsrin müqaviləsi" imzalandı.

Konfransda daha sonra vurğulanmışdır ki, "Əsrin müqaviləsi"nin imzalanmasından keçən 30 ilə yaxın müddət ərzində Heydər Əliyevin yeni neft strategiyasının uğurla reallaşması günümüzün reallığına çevrilmişdir. Bu strategiya müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası, sürətlə inkişaf edən, qüdrətli Azərbaycan dövlətinin yaranmasının rəmzidir. Məhz bu inkişaf və qüdrət bizə imkan verdi ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Qarabağ və Şərqi Zəngəzuru 30 illik işğaldan tam azad etdi.

Konfransda Milli Məclisin deputatı Aydın Mirzəzadə, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, elmi işlər üzrə prorektoru Veysəl Əyyubov, kafedra müdiri Emiliya Hüseynova müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



# Ümummilli savaş

## Ədalətlə bitdi

"Biz 28 il ərzində ədalətin bərpa edilməsini gözlədik. Nəticədə isə bunu özümüz etməli olduq. Biz 44 gün ərzində bunu etdik. 44 günlük müharibə qaçılmaz idi. İlk olaraq artıq sadaladığım səbəblərdən, ikincisi isə Ermənistan bu məsələni dondurmaq istəyirdi. Hesab edirdi ki, Azərbaycanda yeni yetişən nəsil Qarabağı unudacaq. Amma onlar böyük səhvə yol verdilər. Bu gün Füzulidə, Laçında, Zabuxda, Ağalıda, Talışda təhsil alan yüzlərlə məktəbli bu torpaqları görməyib. Çünki Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz. Aydın idi ki, Ermənistan vəziyyəti məhz bu şəkildə öz nəzarəti altında saxlamaq istəyirdi. Düşünürdülər ki, nə sülh, nə müharibə - davamlı danışıqlar məhz belə də sürəcək. Eyni zamanda yeni Ermənistan hakimiyyəti ilə bağlı ümidlər də tədricən boşa çıxdı".

Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda II Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev 53 ölkədən gələn 200-ə yaxın xarici qonağın, ümumilikdə 400 iştirakçının qarşısında Azərbaycanın apardığı ümummilli savaşın səbəbləri və nəticələri barədə konkret faktlarla çıxış etdi. İşğalçı Ermənistanın uzun illər həyata keçirdiyi məkrli siyasət, azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti, terror aktları barədə geniş məlumat verən dövlət başçısı bütün bunların fonunda Azərbaycanın humanist siyasət yürütdüyünü, hər zaman sülhün tərəfdarı olduğunu vurğuladı.

Bütün bunlar tarixi faktlardır ki, Azərbaycan 1992-ci ildən 2020-ci ilə qədər Ermənistanla danışıqlar apardı. İlham Əliyevin dediyi kimi, sonsuz, mənasız danışıqlar aparılırdı və onların nəticəsi sıfır idi. Əgər danışıqlara vasitəçilik edən ölkələr münaqişənin sülh yolu ilə həllini istəsəydilər, heç bir savaş olmayacaqdı. Ancaq ATƏT-in çətiri altında yaradılan keçmiş Minsk qrupu yalnız Ermənistanın xeyrinə işlədi və bu cəzasıqlıq mühitindən yararlanan Hayastan daha da "şirnikləşdi". BMT Təhlükəsizlik Şurasının 1993-cü ildən qəbul etdiyi 4 qətnamə yalnız arxivlərdə tozlandı.

Əlbəttə ki, bunun sonu olmalı idi və 2020-ci ildə həmin məqam yetişdi. Müzəffər Ali Baş Komandanın qüdrətli Ordusu cəmi 44 günə BMT-nin qətnamələrinin icrasını həyata keçirdi. Ermənistan təslim oldu və üzərinə öhdəliklər götürdü. Qalib ölkə olmasına baxmayaraq, Azərbaycan yenə də sülh istədi və məğluba vaxt verdi. Müharibədən ötən 3 ildə yenə də Ermənistanın siyasi rəhbərliyi və Qarabağdakı keçmiş qondarma qurum bu vəziyyətdən istifadə edərək siyasi oyunlar oynamağa başladılar. Məqsəd bəlli idi - Azərbaycanın suveren ərazilərində "ikinci Ermənistan" yaratmaq.

İlham Əliyev isə dəfələrlə bəyan etdi ki, heç vaxt Azərbaycan ərazisində "ikinci Ermənistan dövlətinin" yaradılmasına icazə verilməyəcək. Çünki Azərbaycan müstəqil, suveren, öz hüquq və haqlarını bilən qüdrətli dövlətdir.

Bu il sentyabrın 19-da isə qətiyyətli lider kimi İlham Əliyev verdiyi bəyanatı həyata keçirdi. Ölkəmizin ərazisində mövcudluğunu göstərməyə can atan qondarma qurumun fəaliyyətinə xitam verildi. Bu gün artıq Azərbaycan ərazilərində "boz" zona mövcud deyil.

Prezident Zəngilanda bir daha bu məsələyə də toxunaraq dedi ki, "sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni artıq "boz" zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, - bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, - bu onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar".

Qalib Sərkərdə kimi İlham Əliyev bir daha Qarabağın erməniəsilli sakinlərinə mesaj göndərərək bildirdi ki, Azərbaycan Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcək. Artıq onlara reinteqrasiya ilə bağlı, hüquqlarına dair öz baxışını təqdim edib. Erməni sakinlərin dini, təhsil, mədəni, bələdiyyə hüquqları, yəni bütün bu məsələlər beynəlxalq konvensiyalara uyğun olaraq həll ediləcək. Bunlar Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək.

Bu, Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə bağlı sərsəm fikirlər səsləndirən, Azərbaycanın əleyhinə hansısa qətnamələrin qəbul edilməsinə can atan bəzi xarici "diplomatlar"a, erməni lobbisinin buyruq qullarına həm də bir xəbərdarlıq idi. Çünki həmin şəxslər və bəzi ölkələr Azərbaycanın ədalətli siyasəti ilə bağlı dünya ictimaiyyətində yanlış fikirlər formalaşdırmağa çalışırlar. İlham Əliyev bu gün Azərbaycana qarşı qəbuledilməz planları olan tərəflərə Zəngilandan mesaj da yolladı: "Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir".

Əgər Azərbaycan həqiqətən "etnik təmizləmə" siyasəti aparsaydı, Qarabağın erməni sakinləri üçün heç bir humanitar yardım göndərməz, yaşadıqları ərazilərdə qalıb yeni həyata başlamaları üçün humanist təkliflər irəli sürməzdi. Amma dünya İlham Əliyevin necə dahi siyasətçi olduğunu bilir və bütün proseslərə aydın şəkildə şahidlik edir.

Dünya ictimaiyyətinə artıq o da bəllidir ki, İlham Əliyev deyir və edir. Azərbaycan Prezidentinin sözü imzası qədər keçərlidir. Onun elə bir sözü yoxdur ki, yerinə yetirilməsin. Məhz bu siyasəti İlham Əliyevi dünyada ən etibarlı lider kimi tanıdıb.

Bu gün isə İlham Əliyev Ermənistana yenə sülh müqaviləsi təklif edir: "20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördükləriniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır".

İnanmaq istərdik ki, məğlub ölkənin rəhbərliyi özündə cəsarət tapıb İlham Əliyevin bu fikirlərindən sonra sülh müqaviləsinin tezliklə imzalanması, regionda sabitliyin bərqərar olması istiqamətində konkret addımlar atacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 1 Oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür

**"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"**

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1 oktyabr 2003-cü il tarixdə xalqa müraciətindən*

**"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik"**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki nitqindən*

# Prokurorluq orqanlarının fəaliyyəti müasir tələblər səviyyəsində təkmilləşdirilir



Şərəfli və mənalı ömrünü bütövlükdə millətinə və vətəninə həsr edən, müstəqil dövlətimizin banisi Heydər Əliyevin 20 il öncə bu günümüzün və gələcəyimizin əsasını qoyan vəsiyyəti, canından artıq sevdiyi xalqına müraciətində növbəti inamın dəqiq ünvanını göstərməsi Qurtuluşdan başlanan möhtəşəm qələbə yolunun tarixi başlanğıcını təşkil etmişdir.

Ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə 100 illik yubileyini qeyd etdiyi dünya miqyaslı siyasətçi, əbədiyaşar lider Heydər Əliyevin milli dövlətçilik məktəbinin ən layiqli yetirməsi, Ulu Öndərin azərbaycançılıq məfkurəsini dərindən mənimsəmiş, Zəfər salnaməsinin memarı cənab İlham Əliyevin 20 illik əvəzolunmaz siyasi fəaliyyəti tarixin ən qüdrətli Azərbaycanını ərsəyə gətirmişdir.

"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim... Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır" sözlərilə dahi şəxsiyyətin inamının və uzaqgörən seçiminin nə qədər düzgün olduğunu əyani şəkildə təsdiq edən Müzəffər Ali Baş Komandanın həyata keçirdiyi düşünülmüş praqmatik daxili və xarici siyasət, təkmil və uzaqgörən inkişaf strategiyası ölkəmizin dayanıqlı və davamlı tərəqqisi, dünyada yüksək nüfuz və söz sahibi olan dövlət kimi qəbul edilməsi ilə nəticələnmişdir.

Dürüst və dönməz siyasi iradə nümayiş etdirən yeni dövrün yeni lideri, ölkəni və xalqı zirvələrə aparan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionun siyasi, iqtisadi və mədəni mərkəzinə, qlobal enerji və nəqliyyat qovşağına çevrilməsi layiqli varislik missiyasının təntənəsini nümayiş etdirən amillərdəndir. Xüsusi qeyd edilməldir ki, müasir inkişafın Azərbaycan modelinin müəllifinin uzaqgörən və məqsədyönlü fəaliyyətində onun ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələri müstəsna önəmə malik olmuşdur.

Zəfərlərlə, qələbələrlə və tarixi nailiyyətlərlə zəngin 20 illik zaman kəsiyi sübut etdi ki, hər bir azərbaycanlının Prezidenti İlham Əliyev nəinki Ümummilli Liderin etimadını doğrultdu, eləcə də bütün Azərbaycan xalqının əbədi inamını və sarsılmaz dəstəyini qazandı. Bu birlik, bu həmrəylik isə yeni-yeni hədəflərə və uğurlara yol açır.

## Müasir və müstəqil dövlət quruculuğu

Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin yaxın əhatəsində olan bir şəxsiyyət kimi zəngin dövlətçilik məktəbi keçmiş cənab İlham Əliyev xalqımızın xoşbəxt gələcəyinə istiqamətlənmiş azərbaycançılıq, dünyavilik, müasirlik kimi ideyalar üzərində qurulmuş dövlət quruculuğu proseslərini qətiyyətlə, ardıcıllıqla və müasirlik prinsipləri ilə həyata keçirmişdir. Qüdrətli dövlət, güclü iqtisadiyyat və yüksək rifah amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın yeni quruculuq salnaməsinə imza atan, yeni mərhələdə ölkəmizin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarı olan islahatçı Lider dövlətimizi yeni epoxanın yüksək tələbləri səviyyəsində, hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini bütün dünyaya göstərmişdir. Dövrün çağırışları və müasir Azərbaycan reallıqlarının ustalıqla təhlili köklü dövlətçilik ənənələrinin qorunub saxlanılmasına, dövlət strukturunun böyük sürətlə inkişaf etdirilərək qabaqcıl standartlara uyğunlaşdırılmasına, dövlətin idarə olunmasının ən effektiv forma və metodlarının uğurla tətbiqinə səbəb olmuşdur.

Milli dövlət quruculuğunun bünövrəsini təşkil edən Konstitusiyanın müvafiq maddələrində 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı il tarixli referendumlarla cəmiyyətin müasir dövrlə uzlaşan inkişaf xüsusiyyətlərini, obyektiv sosial tələbata çevrilən yenilikləri, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiə mexanizmlərini ehtiva edən əlavələr dövlət quruculuğu sisteminin təkmilləşməsinə töhfələr vermişdir. Bu baxımdan dövlətimizin demokratik simasının yeni və mütərəqqi əlaməti kimi xarakterizə edilən, idarəetmənin səmərəliyi və çevikliyini artıran Birinci Vitse-Prezident institutu yaradılmaqla, ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatında uzun müddət oynadığı vacib və fəal rolu nəzərə alınaraq Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu mühüm dövlət vəzifəsinə təyinatı dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə atılmış önəmli və strateji addım olmuşdur.

Ölkəmizdə demokratikləşmə proseslərinin genişləndirilməsi, cəmiyyətdə bərqərar olan sabitliyin və təhlükəsizliyin, yüksək templə gedən inkişafın möhkəmləndirilməsi məqsədlərinə xidmət edən Konstitusiya islahatları ilə yanaşı, müstəqil siyasətin təmin edilməsinə xidmət edən milli qanunvericiliyin ən yüksək standartlar əsasında təkmilləşdirilməsi ötən müddətdə davamlı xarakter kəsb etmişdir. Bu illər ərzində müxtəlifyönümlü siyasi partiyaların, ictimai təşkilatların və çoxsaylı mətbu orqanlarının fəaliyyəti, vicdan və söz azadlığının müdafiəsi sahəsində əsaslı irəliləyişlər əldə edilmiş, ölkəmizdə makroiqtisadi sabitliyin qorunması, sahibkarlığın inkişafı, maliyyə-bank sisteminin müasirləşdirilməsi, ticarətin liberallaşdırılması və əhalinin etibarlı sosial müdafiəsi təmin olunmaqla şəhərlərimizin və regionlarımızın infrastrukturunun yenilənməsi geniş vüsət almışdır.

Qanunların aliliyinin təmin olunduğu hüquqi dövlət və fəal vətəndaş cəmiyyətinin bir-biri ilə sıx vəhdət təşkil etdiyi, mərkəzində Azərbaycan vətəndaşının durduğu dövlət siyasətinin təməl prinsipləri kimi vətəndaş-məmur münasibətlərinin sağlamlaşdırılması, idarəetmədə şəffaflığın təmin edilməsi, səmərəli antikorrupsiya platforması hesab olunan "ASAN xidmət" şəbəkəsinin və "DOST" mərkəzlərinin yaradılması, bütün dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin və müasir informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, aidiyyəti qurumların praktiki müstəvidə effektiv fəaliyyətinin təmin olunması istiqamətində həyata keçirilən islahatlar hüquqi dövlət quruculuğunun hərtərəfli təminatı rolunda çıxış etmişdir.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələrin Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilməsinə nail olan Prezidentin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" tarixi fərmanla Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət etməklə ölkəmizdə keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan, milli qürur və ləyaqət hissini bərpa edən Zəfərlə təməli qoyulmuş Böyük Qayıdış, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən misli görünməmiş sürətli bərpa-quruculuq işləri, genişmiqyaslı infrastruktur layihələri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqi əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına, regionda sabitliyin və təhlükəsizliyin inkişafına şərait yaradır. Xüsusilə Qarabağın mirvarisi, mədəniyyət paytaxtımız Şuşa şəhərinin tarixi əzəmətinin və şöhrətinin bərpası istiqamətində görülən işlər, sosial-iqtisadi obyektlərin inşası, yaşayış, turizm, təhsil komplekslərinin təməlinin atılması şəhərin siyasi-mədəni ruhunun özünə qaytarılmasında müstəsna rol oynayır.

Qısa zaman kəsiyi ərzində Füzuli və Zəngilanda beynəlxalq hava limanlarının istifadəyə verilməsi, postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq Laçın Beynəlxalq Hava Limanının tikintisi, yeni avtomobil və dəmir yollarının çəkilişi, sənaye parklarının, yaşayış məntəqələrinin təməllərinin atılması əzəli torpaqlarımıza əbədi qayıdışın təminatı olmaqla, quruculuq Zəfərinin meydanına çevrilmiş Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi bir daha bütün dünyaya Azərbaycan xalqının, dövlətinin böyük potensialını, onun qüdrətli liderinin qətiyyətini və əzmini göstərmişdir.

Əbəs yerə deyil ki, son illər ölkəmiz "Avroviziya" Mahnı Müsabiqəsi, ilk Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula 1" yarışları, Futbol üzrə Avropa Çempionatının final mərhələsinin bir neçə oyunu, çoxsaylı beynəlxalq forum, simpozium, konfranslar və digər mühüm beynəlxalq tədbirlərə evsahibliyi edərək zəngin mədəniyyətə, özünəməxsus dəyərlərə və ictimai-siyasi sabitliyə malik ölkə olduğunu nümayiş etdirmişdir.

Dövlətimizin nüfuzu və qüdrətini yorulmaz fədakarlığı və müdrik siyasi erudisiyası ilə daim zirvələrə doğru aparan xalqımızın böyük rəğbət və əbədi etimad göstərdiyi alternativsiz lider cənab İlham Əliyevin bildirdiyi kimi, "Siyasi və iqtisadi müstəqillik imkan verdi ki, biz öz həyatımızı bildiyimiz kimi quraq, Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında dövlət quraq və bu dövlətdə rahat yaşayaq. Bu gün dünyada gedən proseslər hər birimizin gözü önündədir. Azərbaycan sabitlik, təhlükəsizlik diyarıdır, deyə bilərəm ki, adasıdır. Bunu artıq bütün dünya görür və bilir".

## İqtisadi inkişafın davamlılığı və dinamikliyi

Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi üzərində qurulan, təməl daşını uzaqgörən yeni neft strategiyası təşkil edən müasir tərəqqi və milli inkişaf modelinin yaradılmasına nail olan kamil siyasi xadim cənab İlham Əliyev rəhbərliyinin elə ilk illərində respublikamızı postsovet iqtisadi ölkəsi fazasından çıxararaq yüksək inkişaf göstəriciləri əldə edən innovativ və modern iqtisadiyyata malik dövlətə çevirmişdir.

Ölkədə reallaşdırılan dərindən düşünülmüş iqtisadi konsepsiya nəticəsində dövlətin maliyyə imkanları genişlənmiş, şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi hesabına iqtisadiyyatda qeyri-neft sektorunun payı əsaslı şəkildə yüksəlmiş, azad sahibkarlığın təşviq olunması sayəsində əlverişli biznes mühiti yaradılmışdır.

Dönməz iradəsi və liderliyi sayəsində Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi" kimi transmilli meqalayihələri reallığa çevirən dövlət başçısının planetar təfəkkürü və mürəkkəb qlobal prosesləri düzgün qiymətləndirməsi sayəsində Azərbaycan geosiyasi məkanımızın inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində mühüm rol oynayan logistik mərkəzlərdən birinə çevrilmişdir.

Son 20 ilin reallıqları fonunda xüsusi templə dəyişən və inkişaf edən milli iqtisadiyyatda regionların davamlı və tarazlı inkişafına da xüsusi önəm verilmiş, yerlərdə həyatın yeni keyfiyyət mərhələsinə yüksəlməsi məqsədilə qəbul edilmiş dövlət proqramları kəndlərimizin, qəsəbə və şəhərlərimizin simasını köklü şəkildə dəyişmiş, bölgələrin sosial-iqtisadi potensialının artmasına, infrastruktur təminatının, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

Ərzaq təhlükəsizliyinin təmini istiqamətində ölkənin milli ərzaq sisteminin də iqtisadi baxımdan müstəqilliyi əsas prioritetlərdən biri olmaqla xüsusən ənənəvi kənd təsərrüfatı sahələrinin, bitkiçilik və heyvandarlığın inkişafı, müasir texnologiyalara əsaslanmaqla aqroparkların yaradılması, fermerlərə dövlət dəstəyinin genişləndirilməsi, güzəştli kreditlərin ayrılması ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin daha da yaxşılaşdırılmasına səbəb olmuşdur.

C.Kennedi və R.Reyqan da daxil olmaqla dörd ABŞ prezidentinə məsləhətlər vermiş, liderlik mövzusunda onlarla kitab yazmış siyasətşünas Uorren Bennisin "İdarəçi işləri doğru, lider isə doğru işləri görər" sözlərinin ən sərrast ifadəsi məhz cənab Prezidentin həyata keçirdiyi islahatlar kursunda özünü büruzə vermişdir. Bunun nəticəsidir ki, qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş və strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin, özünüinkişaf qabiliyyətinə malik diversifikasiya edilən milli iqtisadiyyatın təşəkkülü son dövrlər dünyanı bürüyən dərin maliyyə böhranlarının mənfi təsirlərinin Azərbaycandan demək olar ki, yan ötməsini şərtləndirən amillərdən biri olmuşdur.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində artan maliyyə imkanları maaş və pensiyaların artımı, sosial müdafiə tədbirlərinin gücləndirilməsi ilə müşayiət olunmaqla əhalinin həyat səviyyəsi ciddi şəkildə yaxşılaşdırmış, yoxsulluq həddini təxminən 10 dəfə azaltmışdır. Bütün bunlar fəaliyyətini xalqa xidmət prinsipi üzərində quran cənab Prezidentin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha əyani şəkildə təsdiq etmişdir. 2020-ci ildən etibarən yeni vüsət alan sosial islahatlar, o cümlədən maaşların, pensiyaların, əhalinin müxtəlif kateqoriyalarına ödənilən müavinət və yardımların əsaslı şəkildə artırılması, sosial evlərin tikintisi, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkünlərin daha geniş şəkildə dövlətin qayğısı ilə əhatə olunması da diqqət çəkən məqamlardır.

Sosial-iqtisadi sahədə müşahidə olunan inkişaf tempi ölkəmiz üçün yeni sahələrin yaranması və inkişafını da şərtləndirmişdir. Kommersiya tərəfi ilə yanaşı, milli təhlükəsizliyin təmin olunmasına xidmət edən ilk telekommunikasiya peykinin orbitə çıxarılması innovativ və dünya üzrə ən gəlirli sənaye sahələrindən biri olan peyk sənayesinin inkişafının əsasını qoymaqla Azərbaycanın azsaylı kosmik ölkələr sırasına daxil olmasına səbəb olmuşdur.

Dövlətimizin gələcək onilliklər üçün dinamik tərəqqisini şərtləndirən yeni intibah mərhələsinin banisi cənab İlham Əliyevin müəllifi olduğu özünəməxsus inkişaf modelinin ən uğurlu təqdimatını isə ölkənin sürətli və hərtərəfli inkişafının nümunəsində nəinki Azərbaycan vətəndaşları, habelə müxtəlif dövlətlərdə məskunlaşmış soydaşlarımız böyük qürur və iftixarla müşahidə edirlər.

Müstəqilliyini bərpa etdikdən sonra ağır hərbi məğlubiyyət, iqtisadi və siyasi böhranlar yaşamağa məhkum edilmiş Azərbaycanın son 20 il ərzində iqtisadiyyatının və sənayesinin 3 dəfədən çox artması, kənd təsərrüfatının 2 dəfə çoxalması, xarici ticarət dövriyyəsinin 7 dəfə yüksəlməsi, ixracın 9, qeyri-neft ixracının isə 7 dəfə artması, valyuta ehtiyatlarımızın 70 milyard dollara çatması heç şübhəsiz ki, yalnız nəhəng siyasət ustasının gerçəkliyə çevirəcəyi böyük möcüzədir.

## Müzəffər ordunun formalaşdırılması

Ölkəmizin siyasi və iqtisadi müstəqilliyinə nail olunması istiqamətində görülən işlərə paralel olaraq atəşkəs əldə edildikdən sonra işğal edilmiş torpaqlarımızı azad etməyə və Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamağa qadir olan güclü və nizami ordunun formalaşdırılması naminə müdrik dövlət xadimi Heydər Əliyevin səyi ilə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin və döyüş ruhunun yüksəldilməsi, maddi-texniki təminatının yaxşılaşdırılması, kadr potensialının artırılması münaqişənin istənilən yolla aradan qaldırılması üçün ilkin şəraiti yaratmışdır.

20 il öncə andiçmə mərasimində "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaq... Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcək" sözləri ilə əslində elə o vaxtdan tarixi ədalətin gec-tez bərpa olunacağını bəyan edən Yenilməz Sərkərdənin mükəmməl ordu quruculuğu strategiyası Zəfərə aparan şərəfli yolun ilk işarəsi, yüzminlərlə soydaşımızın ümid qığılcımları idi.

Bu müddətdə ölkə başçısının həyata keçirdiyi köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq ordunun maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, milli müdafiə sənayesi yaradılmaqla hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılmış, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Qalib Liderin torpaqlarımızın işğaldan azad edilməsi kimi ağrılı və çətin missiyanı ilk gündən üzərinə götürərək "Güclü ordu - güclü dövlət" konsepsiyasının fundamental bazisi olan iqtisadi güc və təkmil xarici siyasətlə müasir ordu quruculuğunu vəhdət halına salması qələbənin əldə edilməsini qaçınılmazlığa çevirmişdir.

Xalqımızın, Ordumuzun özünə inamını artıran 2016-cı ilin Aprel döyüşləri, eləcə də 2018-ci ildəki Günnüt əməliyyatları böyük qələbənin carçısı olmaqla bəşər hərb tarixində xüsusi yer tutan Vətən müharibəsi Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini bütün dünyaya nümayiş etdirmiş oldu. Son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlı olan, ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratmış Böyük Zəfərlə bitən İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrin modernləşdirilməsi prosesi intensiv xarakter daşımışdır. Dövlətin qüdrətinin nümunəsi, xalqın iftixar yeri, Qalib ölkənin Zəfər simvolu olan Azərbaycan Ordusu Ali Baş Komandanın "Qarabağ Azərbaycandır və nida işarəsi" sözlərini şərəflə reallaşdıraraq postmüharibə vəziyyətində də istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olduğunu göstərmişdir.

Uğurların əldə edilməsində aparılmış islahatlarla yanaşı, hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial və məişət məsələlərinin həlli, əməkhaqlarının davamlı olaraq artırılması, imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi xüsusi rol oynamışdır. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri vətən uğrunda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, hərbi qulluqçularımızda da böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini artırmışdır.

Müharibədən sonra da bu diqqət ən yüksək səviyyədə göstərilməklə torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçıları Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə edilmişdir. Onların maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" fondunun yaradılması müstəsna əhəmiyyətə malikdir.

## Milli maraqlara əsaslanan qətiyyətli və uzaqgörən xarici siyasət

Dünya diplomatiyası tarixində xüsusi imzası olan böyük şəxsiyyət Heydər Əliyev çətin və mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil dövlət quruculuğu konsepsiyasını yaratmaqla xarici siyasətinin strateji məqamlarını müəyyənləşdirmiş, mükəmməl diplomatik fəaliyyəti ilə onu reallaşdırmağın səmərəli nümunəsini göstərmişdir. Özünəməxsus ənənələrə malik olan Azərbaycan diplomatiyasının dövrün tələblərinə uyğun xarici siyasət kursunu müəyyənləşdirmək və onu reallaşdırmaq üçün əsaslandırılmış diplomatik fəaliyyət konsepsiyasının yaradılması vəzifəsinin öhdəsindən böyük ustalıqla gələn Ulu Öndərin milli dövlətçilik xəttini öz siyasi-diplomatik fəaliyyətində uğurla davam etdirən strateji təfəkkür sahibi cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsi təmin edilmişdir. Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edən, bəyanatlar verən cənab İlham Əliyev qlobal səviyyədə düşünmək, mesajlar vermək potensialına malik bir siyasətçi kimi qəbul olunmuşdur.

Tarixi hədəflərimizi reallığa çevirən qətiyyətli liderin praqmatik xarakteri ilə səciyyələnən xarici siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmlənməsinə, milli dövlətçilik maraqlarının ləyaqətlə qorunması mənafeyinə xidmət göstərmişdir. Sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq iti fəhmi və sistemli analiz qabiliyyəti ilə ölkəmizin beynəlxalq gündəliyini müstəqil, çoxvektorlu və hücum taktikasına əsaslanmaqla həyata keçirən siyasət qrossmeysteri Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsinə, ikitərəfli münasibətlərin qarşılıqlı etimad və hörmət prinsipi üzərində qurulmasına nail olmuşdur.

Beynəlxalq siyasətin aktoru statusuna yüksəlmiş dövlət başçısının zərgər dəqiqliyi ilə hesablanmış uzaqgörən addımlarının nəticəsidir ki, 2011-ci ildə Azərbaycanın Birləşmiş Millətlər Təşkilatından sonra 120 üzvlə dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına üzv olmasına nail olmaqla elə həmin il 155 ölkənin, xüsusilə hərəkatda təmsil edilən dövlətlərin də dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi müstəqilliyinin 20 yaşını qeyd edən bir dövlət üçün heyranlıq doğuran nailiyyət idi.

Ölkəmizin diplomatiya tarixinə qızıl hərflərlə yazılmış bu şanlı səhifənin müəllifi Prezident İlham Əliyevin hər dövlət başçısına nəsib olmayan dərin zəkası, yüksək intellekti və ikitərəfli münasibətləri ali səviyyədə qurmaq istedadı cəmi 5 il sonra - 2016-cı ildə keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərarın qəbul edilməsi ilə nəticələnmişdir.

Əlbəttə ki, Prezident İlham Əliyevin diplomatik məharəti hesabına həyata keçirdiyi prinsipial və qətiyyətli xarici siyasət ilk növbədə işğal faktorunun aradan qaldırılmasına, münaqişənin sülh yolu ilə həllini tapmasına istiqamətlənmişdirsə də, sonrakı hadisələr dövlət başçısının torpaqlarımızın hərbi yolla azad ediləcəyi halda dünya birliyi tərəfindən dəstəyini də qazanmağa yönələn uzaqgörən müdrik siyasət həyata keçirməsinin şahidi oluruq. Milli təfəkkürlə bəşəri düşüncəni birləşdirən, gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderin Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir güllə atılmadan, bir nəfər şəhid vermədən işğaldan azad edilməsinə nail olması heç şübhəsiz ki, torpaqlarımızı azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmiş ölkə başçısının hərbi qələbəsinə bərabər diplomatik Zəfəri idi. Dahi alman mütəfəkkiri Fridrix Nitşenin "Şəxsiyyətləri tarix yaratmır, şəxsiyyət tarixi yaradır" sözlərinin danılmaz timsalı olan cənab Prezidentin "Dəmir yumruğ"u ilə qazanılmış hərbi-siyasi qalibiyyət bütövlükdə regionun mənzərəsini dəyişməklə yanaşı, şərtlərin dövlətimiz tərəfindən diktə edilməsinə, dünyanın əsas güc mərkəzləri tərəfindən də müstəqil və qətiyyətli siyasətin ehtiramla qarşılanmasına səbəb olmuşdur.

Öz miqyası və əhəmiyyəti baxımından bölgəmizin sərhədlərini aşan Zəfərimiz türk birliyinin formalaşması prosesinə də mühüm töhfə olmaqla iki qardaş ölkə Türkiyə və Azərbaycan arasında imzalanmış müttəfiqlik haqqında müstəsna siyasi və tarixi önəmə malik Şuşa Bəyannaməsi dövlətimiz və regionumuz üçün yeni gerçəkliklər yaratmışdır.

Avrasiya məkanının enerji təhlükəsizliyinin təmin olunması istiqamətində də Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində, həmçinin bir sıra Avropa ölkələri ilə "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji anlaşmalar beynəlxalq aləmlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan, Avroatlantik məkanda cərəyan edən proseslərə çevik və adekvat reaksiya nümayiş etdirən ölkəmizin mövqeyinin daha da möhkəmlənməsinə və nüfuzunun artmasına xidmət etmişdir.

Ölkəmizi böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirən dövlət başçısının bölgədə davamlı sülh, sabitlik və əməkdaşlıq mühitinin formalaşdırılması naminə Ermənistanın siyasi rəhbərliyi ilə apardığı danışıqlar və razılaşmalar Azərbaycanın milli maraqlarına tam cavab verməklə çox mühüm diplomatik uğur kimi qiymətləndirilmişdir.

Mürəkkəb geosiyasi coğrafi mövqedə Azərbaycana müstəsna dividendlər gətirən dövlət başçısının tarazlaşdırılmış xarici siyasət doktrinasının özəlliyi aspektində ölkəmizin Şərqlə Qərb, müsəlman dünyası ilə xristian dünyası arasında bir körpü rolunun önə çəkilməklə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin dünyaya təqdim edilməsi işində Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulmuş "Bakı prosesi" ölkəmizin dinlər və mədəniyyətlərarası dialoq məkanına çevrilməsinə rəvac vermişdir.

Bütün bu nailiyyətlər isə unikal şəxsi keyfiyyətlərə malik cənab İlham Əliyevin qlobal proseslərdə xüsusi yeri, nüfuzu, tutduğu mövqe, beynəlxalq müstəvidə özünü göstərən problemlərin yoluna qoyulmasına verdiyi töhfələr, irəli sürdüyü təşəbbüslərin əyani göstəriciləridir.

## Müasirləşən Azərbaycan prokurorluğu

Xilaskarlıq və inkişaf missiyası ilə əbədilik qazanan Heydər Əliyev tərəfindən hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi bütün digər dövlət qurumları kimi prokurorluğun da fəaliyyətində əsaslı dönüş yaratmış, onun kadr korpusunun sağlamlaşdırılması və əməkdaşların məsuliyyət hissinin artırılması təmin edilmiş, maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

"Respublika Prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir" sözləri ilə prokurorluğun fəaliyyətinə və dövlət sistemində tutduğu rola ali səviyyədə dəyərini verən Ulu Öndər hələ sovetlər dönəmində "Qoy ədalət zəfər çalsın!" şüarı ilə cəmiyyətdə ədalətin təntənəsini qarşısına məqsəd qoymuş, görkəmli şəxsiyyətin ali məktəblərin hüquq fakültəsinə qəbulla bağlı apardığı islahatlar hüquq-mühafizə, xüsusilə də prokurorluq orqanlarının sonrakı illərdə yüksək peşəkar səviyyəyə çatmasında mühüm önəm daşımışdır.

Qətiyyəti, prinsipial mövqeyi və dəmir iradəsi sayəsində ölkəni dağılmaq təhlükəsindən xilas edən liderin dövlət quruculuğu prosesində də bilavasitə rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluq orqanlarına konstitusion statusun verilməsi müdrik dövlət xadiminin quruma olan böyük inamının təzahürü kimi qiymətləndirilmişdir. Sonrakı mərhələdə prokurorluğun hüquq sistemindəki yerinin və rolunun daha da gücləndirilməsində "Prokurorluq haqqında" Qanunun qəbulu, yeni Cinayət-Prosessual Məcəllənin qüvvəyə minməsi və 2002-ci ildə keçirilmiş referendumla prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi də müstəsna əhəmiyyətə malik olmuşdur.

Prezidentin sərəncamı ilə oktyabr ayının 1-nin ölkədə Prokurorluq İşçilərinin Peşə Bayramı Günü elan edilməsi prokurorluğa olan diqqət və qayğının davamıdır. Bu gün prokurorluğun kollektivi, veteranları və hüquq ictimaiyyəti tərəfindən milli prokurorluq orqanlarının yaranmasının 105-ci ildönümü əlamətdar bir hadisə kimi böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Əlbəttə, bir çox dövlət təsisatı kimi prokurorluq orqanlarının da təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Heydər Əliyev irsinə layiqli varislik nümunəsini göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çağdaş dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları ilə mümkün olmuşdur.

Bu baxımdan dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsində xüsusi önəm daşımışdır. Cinayətkarlığa qarşı mübarizədə əsrimizin sosial bəlası hesab edilən korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin yeni müstəvidə aparılması məqsədilə ixtisaslaşmış cinayət təqibi orqanının - Azərbaycan Respublikasının baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması və həmin orqana korrupsiya hüquqpozmaları ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin də həyata keçirilməsi ilə əlaqədar əlavə səlahiyyətlərin verilməsi prokurorluğa ölkə başçısının inam və etimadı, qurumun cəmiyyətdəki roluna verilən əhəmiyyətin təzahürü kimi xüsusi vurğulanmalıdır.

Prokurorluq orqanları Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Dövlət başçısının 30 sentyabr 2013-cü ildə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, həmçinin 8 fevral 2021-ci ildə Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirakı isə prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.

Bu gün dövlət başçısının dəstəyi ilə prokurorluqda hesabatlılığın və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməkdədir.

Müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisinə adekvat islahatların ilkin mərhələsinin təməli 1 may 2020-ci ildə dövlət başçısının baş prokuror vəzifəsinə təyinatla əlaqədar keçirdiyi qəbulda verdiyi tapşırıq və tövsiyələrə uyğun beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanmaqla aparılmış dəyişikliklər olmuşdur. Çağdaş yanaşmanı və ən yaxşı təcrübələri önə çəkməklə qısa zaman kəsiyində aparılmış struktur və kadr dəyişiklikləri, istintaqın və prosessual rəhbərliyin keyfiyyətinin artırılması, dövlət ittihamının müdafiəsi işinin təkmilləşdirilməsi, ictimai və dövlət maraqlarının qorunması, cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası sahələrində real nəticələrin əldə edilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilmişdir.

Təkcə onu demək kifayətdir ki, həmin görüşdən keçən müddət ərzində ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 35 qəsdən adam öldürmə cinayətinin daxili işlər, dövlət təhlükəsizliyi və penitensiar xidmət orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə təqsirli şəxslər ifşa edilmişdir. Xüsusi vurğulanmalıdır ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" hərbi əməliyyatları zamanı da cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətlərini həyata keçirmiş, digər zəruri tədbirlər görmüşlər.

Qazanılmış böyük qələbədən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə talan edilmiş, dağıdılmış yaşayış məntəqələrinə, tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyən edilməklə beynəlxalq məhkəmələrə müraciət olunması, eləcə də ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulmasında iştirakı olmuş bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri aparılmışdır.

Qeyd edilməlidir ki, Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması istər Birinci Qarabağ, istərsə də Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünə qarşı sülh və bəşəriyyət əleyhinə cinayət əməllərinə yol vermiş şəxslərin ədalət mühakiməsi qarşısında cavab vermələrinə müstəsna töhfə olmuşdur. Prezidentin 1 aprel 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması, o cümlədən qısa zaman kəsiyində müasir tələblərə cavab verən Qubadlı və Kəlbəcər hərbi prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsi də mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın Qarabağ bölgəsindəki genişmiqyaslı hərbi təxribatlar və terror hücumlarının qarşısının alınması məqsədilə sentyabrın 19-da ordumuz tərəfindən başladılan və 24 saatdan da az davam edən lokal xarakterli antiterror tədbirləri dinc əhalinin təhlükəsizliyinin təmin olunmasına və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun, qanunçuluğun və hüquq qaydalarının bərpa edilməsinə xidmət etmişdir.

Ötən müddətdə korrupsiya hallarının aradan qaldırılmasında ölkə başçısının qeyd olunan görüşdə "Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır... biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq" sözləri əsas götürülməklə bu sahədə kəsərli addımların atılması təmin edilmiş, quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı sistemli və qətiyyətli mübarizə tədbirləri davam etdirilmişdir. Bu sahədə bir-birini tamamlayan, yeni baxış və vəzifələrin icrasını nəzərdə tutan mexanizmlərin ardıcıllığı məqsədilə Prezidentin 4 aprel 2022-ci il tarixli sərəncamı ilə yeni inkişaf mərhələsinin doğurduğu zərurətdən irəli gələn növbəti konseptual sənədin - "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi ölkə başçısının siyasi iradəsinin növbəti əyani təsdiqi olmaqla, prokurorluq orqanları qarşısında da yeni vəzifələr müəyyən etmişdir.

Bir əsrdən artıq tarixə malik Azərbaycan Prokurorluğunda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, eləcə də elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliyinin artırılması işində müstəsna önəmə malik Prezidentin 7 may 2021-ci il tarixli fərmanı ilə "Elektron Prokurorluq" İnformasiya Sisteminin yaradılması bir daha ölkə başçısının quruma olan inam və etimadının göstəricisi olmuşdur. Artıq cari ilin mart ayından bütün prokurorluq orqanlarında daxil olmuş sənədlərin elektron qeydiyyatı aparılmaqla vətəndaşların müraciətlərinə daha operativ baxılması təmin edilmiş, qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunmaqla struktur qurumlar və tabe prokurorluqlar üzrə sənəd mübadiləsinin "kağızsız" qaydada aparılması təşkil edilmişdir.

Qarşıdakı dönəmdə "Elektron prokurorluq" informasiya sisteminin ölkə başçısının 1 avqust tarixli fərmanı ilə yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə inteqrasiyası bu sahədə vacib vəzifələrdən biri kimi müəyyən edilməklə digər dövlət orqanları ilə sənəd mübadiləsinin real vaxt rejimində qurulmasına, qurumlararası yazışmalar zamanı vaxt itkisinin minimuma endirilməsinə səbəb olacaqdır.

Prokurorluq işçilərinin fəaliyyətinin xüsusiyyətinə, bu orqanın yerinə yetirdiyi vəzifələrin ictimai əhəmiyyətinə diqqət çəkən ölkə başçısının "Əsas məqsədimiz dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır" çağırışı prokurorluq orqanlarında kadr tərkibinin gənc mütəxəssislər hesabına komplektləşdirilməsində əsas meyar kimi qəbul edilmişdir. Bu məqsədlə işə qəbulla bağlı son illər keçirilmiş müsabiqələrlə prokurorluğun kadr korpusunun yenilənməsi təmin edilmiş, xüsusilə də rəhbər heyətin gənc, istedadlı kadrlarla komplektləşdirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır. Əməkdaşların nəzəri bilik və praktiki bacarıqlarının artırılmasında, yeni nəsil prokurorların formalaşdırılmasında beynəlxalq təcrübənin əhəmiyyəti nəzərə alınmaqla 3 prokurorluq işçisi Beynəlxalq Prokurorlar Assosiasiyası, Avropa İnsan Hüquqları Məhkəməsi və Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktoratlığına ezam olunmuşlar.

Əməkdaşların bilik və bacarıqlarının artırılması, yüksək peşə hazırlığı səviyyəsinin təmin edilməsi məqsədilə yenidən təşkil olunmuş Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti də bu cəhətdən mühüm əhəmiyyət kəsb etmiş, prokurorluq işçiləri ilə yanaşı, hüquqşünas alimlər, dövlət qurumlarının əməkdaşları və digər hüquq-mühafizə orqanlarının təcrübəli işçilərindən ibarət şura prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsində xüsusi önəmə malik olmuşdur.

Cinayətkarlığın yeni formalarının qarşısının dövlətlərin birgə səyi nəticəsində alınması istiqamətində beynəlxalq tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilərək ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə əməkdaşlıq diqqətdə saxlanılmış, qarşılıqlı münasibətlərin qurulması və inkişafı prokurorluğun insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinin əsasını təşkil etmişdir. Prezidentin dəstəyi ilə 1 noyabr 2021-ci ildə Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclasında Şuranın Əsasnaməsi imzalanmışdır. Bununla təsis edilən Baş Prokurorlar Şurası türkdilli ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına, əməkdaşlığın yüksəlməsinə xidmət etməyə başlamışdır.

Bir neçə gün öncə ölkəmizin evsahibliyi ilə keçirilmiş MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının iclasları region dövlətlərinin prokurorluqları ilə ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratmışdır.

Həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 2021-ci ildə keçirilmiş iclası zamanı 2024-cü ilin sentyabr ayında təşkilatın 29-cu illik konfransı və ümumi yığıncağının Bakı şəhərində keçirilməsinə dair təklif qəbul edilmişdir.

Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Respublika Hərbi Prokurorluğu tərəfindən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla birlikdə görülmüş işlər nəticəsində hərbi intizamın möhkəmləndirilməsi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması, ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının vaxtında aşkarlanaraq aradan qaldırılması diqqət mərkəzində saxlanılmışdır.

Məsuliyyətini dərindən dərk edən prokurorluq işçiləri üzərlərinə düşən vəzifələri layiqincə icra edəcək, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə lazımi tədbirlərin görülməsini təmin edəcəklər.

***Kamran ƏLİYEV*****,**
***Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti, hüquq elmləri üzrə fəlsəfə doktoru***

# Azərbaycanın uğurlu "dövlət-din modeli" Gürcüstanda təqdir edilir











**"Sizinkilərə əhsən! Bircə günə Qarabağdakı erməniləri məğlubiyyətə uğradıb, istədiyinizi əldə etdiniz. Təbrik edirəm sizi!…"**

Şota Rustaveli adına Tbilisi Beynəlxalq Hava Limanında Azərbaycan nümayəndə heyətini şəhərə aparan avtobusun sürücüsündən eşitdiyimiz bu sözlərin bizim üçün mənəvi dəyəri olduqca böyük idi. Çünki qalib xalqın nümayəndələri kimi qarşılanırdıq. Həm də xarici ölkədə bu cür qarşılanmağın yaratdığı xoş təəssürat tamamilə bambaşqaydı. Xüsusi ehtiramla qarşılanırdıq, qibtə olunduğumuz göz önündə idi….

## Gürcü xalqının Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiramının göstəricisi

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Gürcüstana dördgünlük səfərinin gündəliyi olduqca zəngin idi. Səfər proqramına həm dövlət qurumlarında, həm dini icmalarda, həm təhsil müəssisələrində görüşlərin keçirilməsi, müxtəlif ünvanlarla tanışlıq, azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonuna səfər, beynəlxalq konfransda iştirak, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş əslən Gürcüstandan olan soydaşlarımızın ailə üzvləri ilə görüş daxil edilmişdi.

Səfərimiz nümayəndə heyətinin Tbilisinin mərkəzində yerləşən Heydər Əliyev adına mədəniyyət və istirahət parkı ilə tanışlıq və Ulu Öndərin burada ucaldılmış abidəsini ziyarət etməklə başladı.

Eyni regionda yerləşən, xüsusən XIX əsrdən etibarən eyni taleləri bölüşdüklərindən Azərbaycan və gürcü xalqlarını bir-birinə bağlayan amillər çoxdur. Başlıcası da odur ki, bu gün Azərbaycan və Gürcüstan dost və strateji tərəfdaş olan dövlətlərdir. Təməli Ulu Öndər Heydər Əliyev və Eduard Şevarnadze tərəfindən qoyulmuş müasir Azərbaycan-Gürcüstan münasibətləri ötən 20 ildə daha da inkişaf etmişdir. Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti ilə reallaşdırılaraq icrası başa çatdırılan enerji və nəqliyyat layihələri iki dövlət arasındakı münasibətləri yeni mərhələyə yüksəltmiş, dostluğu daha da möhkəmləndirmişdir.

Tbilisi şəhərinin mərkəzində, şəhər sakinlərinin və qonaqların daha çox üz tutduqları bir ərazidə Ulu Öndərin adını daşıyan mədəniyyət və istirahət parkının salınması və abidəsinin ucaldılması bu ölkədə xalqımızın dahi oğluna olan dərin ehtiramın nümunəsi, eyni zamanda iki dövlət arasındakı dostluğun göstəricisidir. Ulu Öndərin adını daşıyan park 2004-cü il iyunun 14-də Prezident İlham Əliyevin Gürcüstana rəsmi səfəri zamanı açılmışdır. Ümumi sahəsi bir hektar olan parkda Tbilisi şəhərinin sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılmışdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan və gürcü xalqları həm də eyni taleləri bölüşürlər. Gürcülər də müstəqillik illərində separatizmlə üzləşib, ərazi bütövlükləri uğrunda şəhidlər veriblər. Bunu xatırlayan Azərbaycan nümayəndə heyəti gürcü xalqının öz şəhidlərinin xatirəsinə ucaltdığı Qəhrəmanlar abidəsini ziyarət edərək önünə əklil qoydu. Burada Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş əsgər və zabitlərin adları əbədiləşdirilib.

## Qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq münasibətləri

Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq münasibətləri mövcuddur. Bu sırada hər iki dövlətin dini qurumlarla iş üzrə cavabdeh orqanları arasındakı əməkdaşlıq xüsusi qeyd edilməlidir. Son illərdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi arasında əlaqələr daha da genişlənib. Azərbaycan nümayəndə heyətinin Tbilisiyə bu səfəri, DQİDK sədri Mübariz Qurbanlının Hökumət Administrasiyasında Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ilə görüşündə müzakirə olunan məsələlər iki dövlətin müvafiq qurumları arasındakı sıx əməkdaşlıq münasibətlərinin göstəricisi sayıla bilər.

Görüşdə iki ölkə arasında dini, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olundu. Azərbaycanla Gürcüstan arasında əlaqələrin bütün sahələrdə, o cümlədən dini sahədə uğurla inkişaf etdiyini bildirən Zaza Vaşakmadzenin sözlərinə görə, Azərbaycan nümayəndə heyətinin bu səfəri əlaqələrin daha da inkişafına xidmət göstərəcək.

Öz növbəsində Mübariz Qurbanlı Azərbaycanın Gürcüstanla əlaqələrin daha da dərinləşdirilməsinə böyük önəm verdiyini diqqətə çatdırdı. Bildirdi ki, qarşılıqlı səfərlər və aparılan müzakirələr dini qurumlar arasındakı əlaqələrin inkişafında mühüm rol oynayır.

Bu görüş zamanı imzalanan "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" hər iki tərəfin əlaqələrin daha da inkişafında maraqlı olmasından xəbər verir. Sənəddə iki ölkənin dini qurumları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin, konfrans, "dəyirmi masa" və seminarların təşkili və sair məsələlər əksini tapıb.

Nümayəndə heyətinin Tbilisidəki Cümə məscidi ilə tanışlığı da xoş təəssüratlarla yadda qaldı. XIX əsrin ortalarında inşa olunmuş bu məscid Gürcüstan paytaxtının tarixi məkanında yerləşir. XX əsrin əvvəllərində məscid əsaslı təmir olunub. Məscidin təmirinə vaxtilə Tiflisdə səfərdə olan Hacı Zeynalabdin Tağıyev də yardım edib.

Məscidlə tanışlıq zamanı Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) sədri Ramin İgidov qonaqlara binanın tarixi, burada saxlanılan nadir tarixi, mədəni və mənəvi abidələr barədə məlumat verdi. Nümayəndə heyəti tərəfindən məscidə "Qurani-Kərim" və digər dini kitablar hədiyyə edildi.

Daha sonra məscidin dini idarəsində GMİ-nin din xadimləri ilə keçirilən görüşdə Azərbaycanla Gürcüstan arasındakı dostluq münasibətləri, ikitərəfli əlaqələrin inkişaf perspektivləri, bu sahədə dini qurumların rolu və sair məsələlər diqqət mərkəzində oldu. GMİ-nin sədri Ramin İgidov Gürcüstanda dini qurumların, xüsusən də islam dini icmasının fəaliyyəti barədə ətraflı məlumat verdi. Mübariz Qurbanlı isə bildirdi ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərəcək, o cümlədən azərbaycanlıların dini icması da bu qayğıdan kənarda qalmayacaq. Görüşdə zərərli dini meyillərə, separatçı qüvvələrə qarşı birgə mübarizə və sair məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Gürcüstanda Azərbaycan mədəniyyətini tanıdan və yaşadan mərkəz

Azərbaycan nümayəndə heyətinin səfərinin ikinci günü Tbilisi şəhərindəki Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanışlıqla başladı. Muzeyin elmi işçisi Leyla Əliyeva nümayəndə heyətinə muzeydə saxlanılan Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının nümunələri, burada yaradılan digər guşələr, eləcə də muzeydə Azərbaycan mədəniyyətinin, dilinin təbliği, tədrisi ilə bağlı təşkil olunan kurslar barədə ətraflı məlumat verdi.

Xatırladaq ki, muzeyin binası vaxtilə Tiflisdə yaşayıb işləyən M.F.Axundzadənin öz vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən, 1982-ci ildə binada M.F.Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin Gürcüstana səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunub. Muzeyin 6 ekspozisiya zalı var. Bu zallarda Azərbaycanın milli musiqi alətləri, geyimlər, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələr, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatlar, onun şəxsi əşyaları, müxtəlif dillərdə nəşr olunmuş əsərlərinin üz qabıqları, görkəmli Azərbaycan dramaturqu ilə sıx təmasda olmuş şair və yazıçıların fotoşəkilləri, o dövrdəki konsert afişalarının surətləri nümayiş etdirilir.

Səfərin ikinci günü nümayəndə heyətinin növbəti rəsmi görüşü Gürcüstan parlamentində oldu. Gürcüstan parlamenti sədrinin müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Arçil Talakvadze və İnsan Hüquqlarının Müdafiəsi Komitəsinin sədri Mixeil Sarjveladze ilə görüşdə iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri, dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyəti diqqət mərkəzində oldu. Bildirildi ki, ölkələrimiz arasında həmişə yüksək dostluq münasibətləri, əməkdaşlıq olub və bu səfər də əlaqələrimizin inkişafının göstəricisidir.

DQİDK sədri elə həmin gün Gürcüstan xarici işlər nazirinin müavini Vladimir Konstantinidi və Diasporla Əlaqələr Departamentinin rəhbəri Muxran Qulaqaşvili ilə də görüşdü.

Azərbaycan nümayəndə heyətinin Gürcüstan səfərinin ən yaddaqalan məqamlarından biri soydaşlarımızın kompakt yaşadıqları Marneuli rayonuna səfər və GMİ-nin Marneuli nümayəndəliyində keçirilən görüş oldu. Görüşdə iştirak edənlərin sayının çoxluğu Azərbaycan nümayəndə heyətinin səfərinə böyük maraqdan xəbər verirdi. GMİ-nin Şərqi Gürcüstan üzrə müftisi Etibar Eminov fəaliyyətləri, qarşıda duran vəzifələr, dini kadrların hazırlığı ilə bağlı məsələlər barədə qonaqları məlumatlandırdı.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərindən, Azərbaycanın mütərəqqi "dövlət-din modeli"ndən bəhs etdi. Diqqətə çatdırıldı ki, tolerant ölkə olan, çoxsaylı xalqların nümayəndələrinin yaşadığı Gürcüstanda azərbaycanlıların dinlə bağlı tələblərinin yerinə yetirilməsi üçün əlverişli şərait yaradılıb. Eyni zamanda Heydər Əliyev Fondu tərəfindən Gürcüstan məscidlərində həyata keçirilən təmir işləri soydaşlarımıza olan dəstəyin mükəmməl nümunələrindən biridir.

Görüşün sonunda Azərbaycan İlahiyyat İnstitutunda təhsilini başa vuran Gürcüstan vətəndaşları olan soydaşlarımıza diplomlar təqdim edildi. Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun diplomu ilə dini qurumlarda, eləcə də dövlət qurumlarında çalışmaq mümkündür. Diplomları təqdim olunan məzunlar fəaliyyətlərini Gürcüstanda davam etdirəcəklər.

## Azərbaycanda və Gürcüstanda dini etiqad azadlığı qorunur

Səfər proqramının əsas tədbirlərindən biri də "Dinlərarası dialoqda dövlətin rolu" mövzusunda beynəlxalq konfrans oldu. Tbilisinin Biltimore hotelində keçirilən konfransın "Dinlərarası dialoqda dövlətin rolu" adlı birinci sessiyasında çıxış edən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstan Baş nazirinin insan hüquqları məsələləri üzrə müşaviri Niko Tatulaşvili, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin idarə rəisi Davit Davitaşvili, həmçinin Gürcüstan Patriarxlığının və GMİ-nin təmsilçiləri dinlərarası dialoqda dövlətin rolu barədə fikirlərini bölüşdülər, Gürcüstanda sovet dövründə müsəlmanların əllərindən alınan 234 məscidin onlara geri qaytarıldığını bildirdilər.

Çıxışlarda qeyd olundu ki, dinlərarası dialoqda dövlətin rolu ətrafında məzmunlu müzakirələrin aparılmasına kifayət qədər böyük ehtiyac duyulur və Azərbaycan nümayəndə heyətinin iştirakı ilə bu konfransın keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bildirildi ki, bu gün həm Azərbaycanda, həm də Gürcüstanda dini etiqad azadlığı qorunur, insanlar öz dini ayinlərini sərbəst yerinə yetirə bilirlər. Xüsusi olaraq qeyd edildi ki, Azərbaycanın timsalında mütərəqqi dövlət-din münasibətləri mövcuddur.

"Dinlərarası dialoq Azərbaycanda qədim tarixə malikdir və ölkəmizin milli inkişaf strategiyasının tərkib hissələrindən biridir", - deyən Mübariz Qurbanlının sözlərinə görə, Azərbaycan Konstitusiyası irqindən, milliyətindən, dinindən, dilindən və cinsindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Dini qurumlar mənsubiyyətindən asılı olmayaraq, qanunla müəyyən edilmiş qaydada dövlət reyestrində heç bir maneəsiz qeydiyyata alınır və onlara dövlət tərəfindən hər il maliyyə yardımı göstərilir. Bugünədək 995 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan qeydiyyata alınmış dini icmaların 958-i islam, 37-si isə qeyri-islam təmayüllüdür. Ölkə ərazisində 2258 məscid mövcuddur. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Qeyri-müsəlman əhali ölkə ərazisində azlıq təşkil etsə də, dövlət tərəfindən onlara da müsəlmanlar kimi yüksək diqqət və qayğı göstərilir. Bu öz növbəsində Azərbaycanda dinlərarası harmoniyanın ən yüksək səviyyədə özünü göstərməsinin bariz nümunəsidir.

Konfransın "Heydər Əliyev 100: Cənubi Qafqazda dinlərarası sülhün və əməkdaşlığın təmin edilməsi" adlı sessiyası da maraqlı çıxışlarla və müzakirələrlə yadda qaldı. Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin nümayəndəsi Nato Oniani, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, DQİDK-nin sədr müavini Gündüz İsmayılov, Tbilisi İlahiyyat Akademiyası və Seminariyasının məsul katibi Giorgi Zviadadze çıxışlarında tolerantlıq və birgəyaşayış mədəniyyətinin çağdaş dövrümüzdə olduqca böyük əhəmiyyət kəsb etdiyini bildirdilər. Qeyd olundu ki, Azərbaycanda tarix boyu mövcud olan bu müqəddəs ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi, eləcə də multikultural dəyərlərin təbliği daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu həm də Azərbaycanın dövlət siyasətidir. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## Azərbaycana və xalqımıza olan yüksək ehtiram

Səfərin sonuncu günü nümayəndə heyətinin Gürcüstanın əsas aparıcı ali təhsil ocaqlarından İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetində keçirdiyi görüş Azərbaycana olan yüksək ehtiramın təcəssümü oldu. Universitetin rektoru Caba Samuşiya Azərbaycan nümayəndə heyətinin Gürcüstana səfərinin və universitetdə keçirilən görüşün əhəmiyyətini yüksək qiymətləndirdi və Azərbaycanla təhsil sahəsində yaxşı əməkdaşlıq əlaqələrinin olduğunu vurğuladı.

Tbilisi Dövlət Universitetində "Heydər Əliyev Auditoriyası" da yaradılıb. Auditoriyada Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini, keçirdiyi görüşləri əks etdirən nadir fotolar, kitablar və digər vasitələr saxlanılır. 2008-ci ildən fəaliyyət göstərən auditoriya bu il Azərbaycan səfirliyinin təşəbbüsü və SOCAR-ın Gürcüstan nümayəndəliyinin maliyyə dəstəyi ilə yenidən əsaslı təmir olunub və buradakı eksponatlar yenilənib.

Tbilisidəki 73 nömrəli məktəb isə əsasən azərbaycanlı şagirdlərin təhsil aldıqları tədris müəssisəsidir. Məktəbin fəaliyyəti barədə məlumat verən direktor Salman Pirməmmədoğlunun sözlərinə görə hər zaman Azərbaycan dövlətinin diqqət və qayğısını hiss edirlər, lazım, tədris vəsaitləri ilə təmin olunurlar.

Azərbaycan nümayəndə heyəti Gürcü Pravoslav Kilsəsinin iqamətgahında da (Gürcüstan Patriarxlığında) xüsusi ehtiram və mehribanlıqla qarşılandı. Görüşdə iki ölkənin dini qurumlarının əməkdaşlığı barədə söz açıldı. Hər iki ölkənin dini liderləri arasındakı dostluğun bütün sahələrdə münasibətlərimizin inkişafına müsbət təsir göstərdiyi qeyd edildi. Mübariz Qurbanlı dedi ki, Azərbaycan dövləti hər zaman Gürcüstanın yanında olub, ona dəstək verib. Ehtiyac yaranarsa, Azərbaycan tərəfi Gürcüstanda olan məscidlərin təmir və bərpasına, eləcə də digər məsələlərdə yardım göstərə bilər.

Qori və Aten Mitropoliti Andria Gvazava ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyəsindən razılıqla danışdı, göstərilən dəstəyə görə Azərbaycan dövlətinə minnətdarlıq etdi.

Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə Tbilisi İlahiyyat Akademiyası və seminariyası arasında əməkdaşlıq haqqında Memorandum imzalandı. Sənəddə iki təhsil ocağının birgə kadrların, mütəxəssislərin və dərsliklərin hazırlanması, təcrübə mübadiləsi aparılması məsələləri nəzərdə tutulub.

Səfər zamanı Azərbaycan nümayəndə heyətinin Tbilisinin Pullman hotelində Gürcüstanın azərbaycanlı icması və şəhid ailələri ilə görüşü də keçirildi. Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxundu, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Görüşdə Azərbaycan dövlətinin şəhid ailələrinə diqqət və qayğı göstərdiyi, Gürcüstandakı şəhid ailələrinin də bu qayğıdan kənarda qalmadıqları bildirildi. Qeyd olundu ki, 44 günlük Vətən müharibəsi dövründə Gürcüstan azərbaycanlıları bir yumruq kimi Azərbaycan dövlətinin ətrafında birləşdilər. Döyüşlərdə iştirak edən əslən Gürcüstandan olan azərbaycanlılar böyük qəhrəmanlıqlar göstəriblər.

Çıxış edən şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya görə, Azərbaycan dövlətinə minnətdarlıq etdilər.

Görüşün keçirildiyi binada Azərbaycanın Qarabağ bölgəsindəki tarixi və dini abidələrin fotolarından, eləcə də Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin fikirlərindən, kəlamlarından ibarət kitabların sərgisi də təşkil olunmuşdu.

Bütövlükdə, Azərbaycan nümayəndə heyətinin Gürcüstana dördgünlük səfəri olduqca əlamətdar oldu. Ən əsası, bu səfər Gürcüstanda Azərbaycan dövlətinə və xalqımıza olan yüksək ehtiramdan xəbər verdi. Keçirilən bütün görüşlər isə əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***
***Bakı-Tbilisi-Bakı***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# 1-2 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

**Oktyabrın 1-də** Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları uğurla davam edir. Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21:30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilir.

Bu müddət ərzində düşmənin ümumi itkiləri belədir:

- 200-dək tank və digər zirehli texnika;
- 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 30 ədəd hava hücumundan müdafiə vasitələri;
- 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 5 silah-sursat anbarı;
- 110-dan artıq avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

❖ ❖ ❖

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Səhər saatlarından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfindən tələb edir ki, ölkəmizin ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Əks təqdirdə adekvat cavab tədbirləri görüləcək.

❖ ❖ ❖

Ermənistan ordusu təminatda ciddi problemlərlə üzləşir. Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir.



Məlum olur ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhədəki hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.

❖ ❖ ❖

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin daha bir neçə hava hücumundan müdafiə vasitələri və yaylım atəşli reaktiv sistemlərini məhv edir.

❖ ❖ ❖



Belarus Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə telefonla zəng edərək təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanır.

İlham Əliyev belaruslu həmkarına məlumat verərək bildirir ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Dövlət başçısı əlavə edir ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

❖ ❖ ❖

**Oktyabrın 2-də** bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edir.

Murovdağ istiqamətində əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

❖ ❖ ❖

Ağdərə istiqamətində qoşunlarımız Madagiz (Suqovuşan) ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır.

❖ ❖ ❖

Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edir və irəliləməyə nail olur.

❖ ❖ ❖

Əldə edilən məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxuya düşərək müxtəlif bəhanələrlə döyüşlərdən imtina edirlər.

❖ ❖ ❖

Fransa Prezidenti Emmanuel Makron növbəti dəfə Prezident İlham Əliyevə telefonla zəng edir və döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsini, tezliklə danışıqların aparılmasını istəyir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan isə deyir ki, sentyabrın 27-dən bu günədək Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin yaşayış məntəqələrinin ardıcıl ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini azad edib.



Ermənistanın danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurduğunu deyən İlham Əliyev qeyd edib ki, danışıqların pozulmasına, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

❖ ❖ ❖

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsini raket, işğal olunmuş ərazilərimizdən isə Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini, Ağdamın Xındırıstan, Əlibəyli, Əhmədağalı, Səfərli kəndlərini, Quzanlı yaşayış məntəqəsini, Tovuzun Ağdam kəndini, Bərdənin Soğanverdilər, Əmirli kəndlərini artilleriya atəşinə tutur.

Bəlli olur ki, Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raket "Toçka-U" taktiki raket kompleksindən buraxılıb.

❖ ❖ ❖

Düşmənin səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovrulması, eləcə də tanklarının, canlı qüvvə və döyüş texnikasının məhv edilməsinin videogörüntüləri yayılır.

❖ ❖ ❖

Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibə verir. Ali Baş Komandan müharibənin hansı şərtlər əsasında dayandırıla biləcəyini açıqlayır:

"Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bugünün siyasi və geosiyasi reallıqlarına əsaslanır".



Prezident şərtlərini bir daha bildirir - Ermənistan rəhbərliyi silahlı birləşmələrinin torpaqlarımızdan çıxarılması ilə bağlı təqvim cədvəlini təqdim etməli və üzərlərinə vasitəçilər tərəfindən təsdiq olunmuş ciddi öhdəliklər götürməlidir. Bu, çox ədalətli mövqedir. Bu, müharibəyə deyil, sülhə istiqamətlənmiş mövqedir.

Ermənistanın bu şərtlərə əməl etməyəcəyi təqdirdə savaş dayanmayacaq. Azərbaycanın daha 30 il gözləməyə vaxtı yoxdur. Münaqişə indi həll olunmalıdır.

❖ ❖ ❖

Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilir.

Gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyib yeni dayaq məntəqələrini azad etməklə tarixi ərazini düşmən qüvvələrdən təmizləyir. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilir. Sentyabrın 27-dən oktyabrın 2-si saat 20:00-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

* 230-dək tank və digər zirehli texnika;
* 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
* 38 ədəd hava hücumundan müdafiə vasitələri;
* 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
* 7 silah-sursat anbarı;
* 130-dan artıq avtomobil texnikası;
* 1 ədəd "S-300" zenit-raket kompleksi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistan: məğlubiyyətin xronikası

"İravnuk" qəzeti yazır ki, Azərbaycan Ordusu addım-addım Xankəndiyə yaxınlaşır: "Xankəndini vahimə bürüyüb. Hər gün minlərlə insan buranı tərk edir. Acı həqiqət olsa da, vurğulayaq ki, 30 ildən sonra Azərbaycan Qarabağa yenidən qayıtmağa çox yaxındır. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı? Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı müharibədə uduzur, Paşinyan isə bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir".

"4rd.am" saytı yazır ki, əhali Xankəndidə, Şuşada təşviş içindədir. İnsanlar evlərini kütləvi şəkildə tərk edirlər: "Əhalinin əsasən üz tutduğu yer Yerevandır. Amma onların Ermənistana üz tutmasına əngəl yaradılır. Gedənlər postlarda saxlanılır. Henrix Aşotyan adlı sakinlə həmsöhbət olduq. Çox əzab, çətinlik çəkdiklərini bildirdilər. Zirzəmilərdə gizləndiklərini dedilər. Qohumunun təkidi ilə Yerevana köç etməyə hazırlaşdığını qeyd etdi. Hakimiyyətin və Qarabağ müharibəsi veteranlarının çağırışına baxmayaraq, gənclər orduya getmək istəmirlər. Onlar müxtəlif bəhanələrlə döyüşməkdən imtina edirlər. Təəssüf ki, bu gedişlə Azərbaycan əsgəri Şuşanı, Xankəndini gəlib boş görəcək".



❖ ❖ ❖

"Joxovurd" qəzeti yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan və onun rəhbərliyi qarşısında acizdir: "İlham Əliyev son bəyanatlarında Ermənistanla kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, Ermənistanın sarsıdılması prosesi Qarabağ işğaldan azad olunmayana qədər davam etdiriləcək. Amma Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Yəqin məğlubiyyəti qəbul edib. Bu, daha təhlükəli və vahimәlidir. Hospitallar yaralılarla doludur, əsgər valideynləri çox narahatdırlar".

Qeyd olunur ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır və bu səbəbdəndir ki, Bakı konkret niyyət və məqsədlər açıqlayır. Amma nəyə görəsə Paşinyan bu məsələdə hələ də Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək: "Davam edən müharibədə itkilərimiz minlərlədir. Ən acınacaqlısı isə odur ki, Qarabağ tədricən boşalır".









❖ ❖ ❖

"Panarmenian.net" saytı Qarabağdan hazırladığı reportajda Vardan Qasparyan adlı erməninin açıqlamalarını diqqətə çatdırıb. Hakimiyyətə od püskürən sakin açıq şəkildə deyir ki, Paşinyan niyə Ermənistanı lazımsız müharibəyə sürükləyir: "Paşinyan, Arutyunyan, Qarabağdakı bir çox ailənin adından sizə səslənirəm. Həll edin Qarabağ məsələsini, ölümlər olmasın. Çünki Azərbaycan Ordusu faktiki olaraq Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik".

Məqalədə Prezident İlham Əliyevin "Ermənistan Qarabağ məsələsində geri çəkilməsə, daha ağır zərbələr alacaq" fikrini diqqətə çatdıran müəllif yazır ki, Paşinyan hökuməti buna qarşı hansısa əks-həmlə edə bilmir: "Paşinyan da Sarkisyanın yolu ilə gedir. Dövləti talamaqla, müharibə aparmaqla bəlkə də cibini doldurur. Paşinyan kimi cəsarətsiz rəhbər Ermənistanın üz qarasıdır".

❖ ❖ ❖

"4rd.am" saytı Xankəndidə Arutyun Manukyan adlı müharibə iştirakçısının fikirlərini məqalə başlığına çıxarıb. "Diplomatik sferada İlham Əliyevə uduzursan, heç nə demirik. Lakin cəbhədəki məğlubiyyət bizləri ciddi qorxudur, Paşinyan. Çarəsiz qalmışıq. Əldə etdiyim məlumatlara görə, bir neçə gün çəkməz, Azərbaycan Xankəndiyə çatar. Günahsız yerə ölmək istəmirik. Fərq göz qabağındadır".

Bu arada Ermənistan tərəfində döyüşmək üçün Livandan yüzlərlə "ASALA" terrorçusunun gətirildiyi məlum olub. "Novaya qazeta"nın yazdığına görə, son günlər bu ölkədən 500-ə yaxın etnik erməni Dağlıq Qarabağdakı döyüş meydanına getmək üçün Livanı tərk edib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Qədim Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərlər salınır

## Azərbaycanın bu sahədəki təcrübəsindən dost ölkələr də faydalanır

**Bu tədbirin açılış mərasiminin Zəngilanda keçirilməsi dərin məna daşıyırdı. Bu, 30 ilə yaxın işğal altında olan, həmin müddətdə Qarabağın və Şərqi Zəngəzurun digər yaşayış məntəqələri kimi düşmənin viran qoyduğu, indi isə özümüzün yenidən saldığımız bir şəhərə dünyanın diqqətini cəlb etmək demək idi.**



BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi - 2023" tədbirləri çərçivəsində "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi bir gün ondan əvvəl istifadəyə verilmiş Zəngilan Konqres Mərkəzində keçirildi. Bu faktın özü də göstərir ki, şəhərsalma ilə bağlı belə mötəbər tədbirə evsahibliyi etməyimiz təsadüfi deyil. 44 günlük Vətən müharibəsindəki Qələbəmizdən cəmi üç il keçir. Azərbaycan bu qısa vaxt ərzində dünyanın gözü qarşısında görün düşmənin yerlə yeksan etdiyi neçə şəhərin, "ağıllı kənd"in, yaşayış kompleksinin təməlini qoyub. Təzədən salınan şəhərlərdə möhtəşəm infrastruktur obyektləri istifadəyə verib!

Forumun açılış mərasimində Prezident İlham Əliyevin dediyi kimi: "Böyük qayıdış proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni bu gün 8 şəhər və 92 kəndin baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu bizim proqramın tərkib hissəsidir. Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada - Zəngilanda 10 meqavat gücündə yeni su-elektrik stansiyasının açılışını etdim. Ancaq növbəti altı ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib... Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq".

Xatırladaq ki, I Şəhərsalma Forumunu ötən il Ağdam şəhərində keçirmişdik. İşğal dövründə erməni vandallarının darmadağın etdiyi, yer üzündən silmək istədiyi, bu gün isə bizim sıfırdan başlayaraq inşa etdiyimiz şəhərdə...

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev də diqqəti bu fakta cəlb edərək jurnalistlərlə söhbətində deyib: "Ötən il Ağdam şəhərində, bu il isə Zəngilandayıq. Zəngilanda reallaşdırılmış layihələrin də şahidiyik. Zəngilan şəhərində Konqres Mərkəzi ilk qonaqlarını qarşılayır. Bu, Zəngilanda reallaşdırılmış ilk layihələrdən biridir. Ötən ildən fərqli olaraq tədbir 3 gün davam edəcək. İştirakçıların da sayı artmaqdadır. Əgər keçən il 45 ölkədən nümayəndə gəlmişdisə, bu il 53 ölkədən təmsilçi var. Biz həm azad edilmiş ərazilərdə Azərbaycanın şəhərsalma sahəsində gördüyü işləri göstərmək, həm də dünya ölkələrinin təcrübəsini öyrənmək və tətbiq etmək imkanı əldə etmişik".

Komitə sədri onu da nəzərə çatdırıb ki, hazırda sonuncu - Laçın şəhərinin baş planı üzərində iş gedir. Bir sıra kəndlərin əksəriyyətinin ərazi planlaşdırma sənədləri hazırlanır və təsdiq olunur.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif forumdakı çıxışında ölkəmizin şəhərsalma sahəsindəki nailiyyətlərini qeyd edərək bildirib: "Cari Milli Şəhərsalma Forumunda Azərbaycan hökuməti, bütün aidiyyəti qurumlar, eləcə də yerli icra hakimiyyəti, idarəetmə qurumları illik platformada üzərinə götürdüyü Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müvafiq olaraq məlumat, hesabat verirlər. BMT də aidiyyəti qurum olaraq yeni şəhərsalma gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini, eyni zamanda ərazi, iqtisadi və ətraf mühit planlamasını özündə ehtiva edir. Bəli, Milli Şəhərsalma Forumu məhz ən ali zirvədən tutmuş - söz düşmüşkən, Azərbaycanın həqiqətən də bariz nümunəsi fonunda - milli səviyyədə keçirilən belə bir şəhərsalma forumu ölkələr üçün, nümayəndələr üçün də 2024-cü ildə Qahirədə keçiriləcək müvafiq tədbir üçün həqiqətən də mühüm platformadır. BMT-nin Baş Assambleyasının 78-ci sessiyasında qeyd olunduğu kimi, günümüzdə artıq köhnəlmiş, qeyri-funksional və ədalətsiz bir nizamda məhz memarlıq gələcəkdə DİM-lərin inkişafına mühüm töhfə verə bilər. Milli səviyyədə isə bütün bu işlər, iqtisadi, sosial ərazi planlaşdırılması Azərbaycanın, təbii ki, Zəngilanda nümayiş etdirdiyi inkişafla paraleldir. Burada inklüziv, düzgün ərazi yanaşması milli inkişaf planında vəhdət halı almışdır".

Məlumdur ki, müasir dünya problemləri sırasında urbanizasiya da dayanır. Yəni insanlar şəhərdə, rahat şəraitdə yaşamağa üstünlük verirlər. Bu meylin ölkəmizdə də hökm sürdüyü heç kəsə sirr deyil və bunu dövlətimizin başçısı forumdakı çıxışında da qeyd edib. Lakin bir həqiqət də var! Ölkəmizin iri şəhərlərində və rayon mərkəzlərində dövlətin məcburi köçkünlər üçün tikdiyi hər şəraiti olan evlərdə yaşayan qarabağlılar, şərqi zəngəzurlular böyük sevinc və coşqu ilə öz doğma kəndlərinə dönürlər. Prezident İlham Əliyev bunu vurğulayaraq demişdir: "Ermənistanın işğalından əziyyət çəkən köçkünlərimiz 30 il ərzində Azərbaycanın müxtəlif bölgələrində yaşayırdılar. Hökumət hər il onlar üçün 300-500 milyon ABŞ dolları arasında vəsait ayırırdı ki, yeni yaşayış layihələri icra edilsin, yeni yaşayış məntəqələri tikilsin. 300 mindən çox məcburi köçkün yaxşı şəraitlə, yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Ancaq torpaqlarımız azad edilən kimi biz sorğu keçirdik və onların mütləq əksəriyyəti evlərinə qayıtmaq arzusunu ifadə etdilər. Bu gün artıq qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Onlar Bakıdan, Sumqayıtdan, Gəncədən və digər bölgələrimizdən qayıtmaq istəyirlər. Onlar şəhərlərdən kəndlərə qayıtmaq istəyirlər. Yəni bunu da düzgün qiymətləndirmək lazımdır. Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atırlar. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər".

Bu, digər bir tərəfdən də onlar üçün getdikləri yerdə yaradılan yaxşı şəraitlə, nəticə etibarilə şəhərsalma, yeni, "ağıllı kənd"lərin qurulması sahəsindəki uğurlarımızla bağlıdır. Sözügedən forum kimi tədbirlər sayəsində biz bu sahədəki təcrübəmizi digər ölkələrlə bölüşür, onların nailiyyətlərindən faydalanırıq. Tədbirin iştirakçısı olan Meksikanın Queretaro əyalətinin başçısı Rogeylo Alkoser Qomez də sanki bütün qonaqlarımızın fikrini ifadə edərək deyib: "Hər kəs birbirilə əlaqə yaratmalı, bir-birindən öyrənməlidir. Məhz bu əməkdaşlıq dünyada davamlı inkişaf üçün çox vacibdir. Biz Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə əməkdaşlıq etməyi də planlaşdırırıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# *Baş Prokurorluq:* "Davit Babayan məsuliyyətə cəlb edilib"

**Erməni silahlı birləşmələrinin üzvləri tərəfindən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərə qarşı sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlər törədilməsi faktları üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən başlanmış cinayət işinin istintaqı davam etdirilir.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumat görə, istintaqla müəyyən edilib ki, 2013-2023-cü illərdə separatçı qurumun "prezident aparatının rəhbərinin müavini, prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi, xarici işlər naziri və xüsusi tapşırıqlar üzrə prezidentin köməkçisi vəzifələrində" işləmiş, 1973-cü il tarixdə Xankəndi şəhərində anadan olmuş Babayan Davit Klimoviç həm 44 günlük Vətən müharibəsi dövründə, həm Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə aparılan antiterror tədbirlərində qondarma qurumun digər "rəhbər vəzifəli şəxsləri" ilə cinayətkar birlik halında milli düşmənçilik və nifrət aşılayan, terrorçu qruplaşmaların fəaliyyətini əlaqələndirməklə məşğul olması, o cümlədən 2020-ci il oktyabrın 17-də, Gəncə şəhərinin müdafiə olunmayan və mülki əhalinin yaşadığı əraziləri, yaşayış məntəqələri və silahsızlaşdırılmış zonaları hədəfə almaqla, ballistik raketlərdən istifadə edib çoxsaylı mülki şəxslərin ümumi təhlükəli üsulla, xüsusi amansızlıqla, terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik zəminində qəsdən öldürülməsi və yaralanması ilə bağlı cinayətləri təşkil etməsinə əsaslı şübhələr müəyyən edilib.

Davit Babayan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 32.3, 114.1 (muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə etməni təşkil etmə), 32.3, 116.0.1, 32.3, 116.0.6, 32.3, 116.0.7, 32.3, 116.0.8, 32.3, 116.0.9, 32.3, 116.0.10 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2-ci (silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə), 32.3, 214.2.1, 32.3, 214.2.3, 32.3, 214.2.4 (terrorçuluğu təşkil etmə), 283.2.1, 283.2.3-cü (milli düşmənçiliyin salınmasını təşkil etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib.

Cari il sentyabrın 29-da D.Babayan Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq istintaqa təqdim olunub və ona həmin tarixdə qeyd olunan maddələr üzrə ittiham elan edilib.

Bundan başqa, istintaqla 1965-ci ildə Azərbaycan Respublikasının Xocavənd rayonunda anadan olmaqla orada yaşamış, Ermənistan Respublikasının sabiq hərbi qulluqçusu, 2015-2018-ci illərdə qondarma rejimin "müdafiə naziri" vəzifəsində işləmiş, eləcə də Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərmiş qanunsuz hərbi silahlı qrupun üzvü olan Mnatsakanyan Lyova Henrixi qabaqcadan əlbir olduğu şəxslərlə birgə 2002-ci il mayın 8-də beynəlxalq humanitar hüquqla müdafiə olunan Məmmədov İlham Yusif oğlunu və digər əsir düşmüş azərbaycanlıları Füzuli rayonunun Alxanlı kəndi ərazisində əsir götürərək Füzuli şəhərində yerləşən hərbi hissədə milli ədavət zəminində çoxsaylı işgəncələr verdiyi və həmin il noyabrın 19-dək onu əsirlikdə saxlamalarına əsaslı şübhələr müəyyən edilib.

Lyova Mnatsakanyanın 2006-cı il noyabrın 8-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 113-cü (işgəncə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilib və həmin il noyabrın 14-də müvafiq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilib.

Cari il sentyabrın 29-da L.Mnatsakanyan Laçın sərhəd-buraxılış məntəqəsindən Ermənistana keçmək istəyərkən saxlanılaraq istintaqa təqdim olunub və həmin tarixdə ona qeyd olunan maddə ilə ittiham elan edilib.

Hər iki şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarı icra olunaraq Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasına etap olunub.

Hazırda cinayət işləri üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Ermənistan ərazisindən açılan snayper atəşi nəticəsində hərbi qulluqçumuz şəhid olub

Sentyabrın 30-u günorta saatlarında Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətindəki mövqeyindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Aşağı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyinə snayper silahından atəş açılıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, atəş nəticəsində hərbi qulluqçumuz Orucov Vüsal Xeybalı oğlu şəhid olub.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

"Müdafiə Nazirliyinin rəhbərliyi şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!", - deyə məlumatda qeyd edilir.

## Xankəndiyə 7 təcili tibbi yardım avtomobili göndərilib

Xankəndi şəhərinə 7 təcili tibbi yardım avtomobili göndərilib. AZƏRTAC xəbər verir ki, təcili tibbi yardım avtomobilləri həkim heyəti ilə Xankəndidə təcili tibbi yardım və müayinə işinin təşkili məqsədilə yola düşüb.

## Növbəti silah-sursat və döyüş texnikası Ağdərə ərazisində müsadirə edilib

**Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus silah-sursat və müxtəlif təyinatlı döyüş texnikasının müsadirə edilməsi üzrə tədbirlər davam etdirilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ağdərə ərazisindəki mülki infrastruktur obyektlərinə baxış zamanı növbəti silah-sursat anbarı müəyyən edilib. Anbardan aşkar edilmiş xeyli sayda patron, əl qumbaraları, minaatan, müxtəlif çaplı ağır artilleriya və tank mərmiləri, tank əleyhinə raket komplekslərinin idarəolunan raketləri və digər döyüş sursatları, həmçinin müxtəlif təyinatlı döyüş texnikası müsadirə edilib.

Bundan başqa qeyd olunan istiqamətdəki dayaq məntəqəsindən də silah və sursatla dolu yeşiklər aşkar edilərək götürülüb.

# Qars-Naxçıvan dəmir yolu region dövlətləri üçün də faydalı olacaq

Azərbaycan Qafqaz regionunda iri və beynəlxalq əhəmiyyət daşıyan iqtisadi layihələri uğurla həyata keçirən bir dövlət imicinə malikdir. İstər enerji, istərsə də nəqliyyat və tranzit sahəsində həyata keçirilən bu layihələr Azərbaycanın iqtisadi inkişafı ilə yanaşı beynəlxalq aləmdəki siyasi nüfuzunun artmasına, ölkəmizlə əməkdaşlıq əlaqələri qurmaq istəyən dövlətlərində sayının çoxalmasına gətirib çıxarıb.

Bu layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum, Trans-Anadolu (TANAP), Trans-Adriatik qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və digərlərini sadalamaq olar. Bu layihələr ötən illər ərzində Azərbaycan iqtisadiyyatını gücləndirərək, dövlətimizin inkişafına böyük təkan verib, onun beynəlxalq statusunu və siyasi çəkisini artırıb. Təsadüfi deyil ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 il erməni işğalı altında qalan Qarabağı azad edərək ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Bu qələbəyə Prezidentin müdrik siyasəti və iqtisadi islahatları nəticəsində nail olduq.

Prezident İlham Əliyevin irəli sürdüyü növbəti beynəlxalq əhəmiyyətli iqtisadi layihə Zəngəzur dəhlizi və bunun tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xəttidir. Ümumilikdə Orta dəhlizə daxil olan bu layihələr, sadəcə, Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək xarakteri daşımır. Bu layihələr daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir.

Türkiyədə fəaliyyət göstərən Siyasi, İqtisadi və Cəmiyyət Araşdırmaları Fondunun xarici siyasət üzrə müşaviri Can Acun bildirib ki, Azərbaycan və Türkiyə hökumətləri layihənin iqtisadi və həm də siyasi əhəmiyyətini nəzərə alıb, onun reallaşdırılmasını mümkün qədər sürətləndirməyə cəhd göstərirlər.

Layihə ətrafında aparılan müzakirələrin birinci mərhələsi 2020-ci ilin fevral ayının 25-də "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması ilə başa çatdı.

Bunun ardınca, cari ilin sentyabr ayının 25-də Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzaladılar. Bu layihənin reallaşdırılması istiqamətində növbəti, üçüncü addım isə iki qardaş ölkə arasında yaxın vaxtlarda müvafiq müqavilənin imzalanması ilə atılacaq.

Qars-Naxçıvan dəmir yolu layihəsinin tikintisinə yönəlmiş texniki hazırlıqlar davam edir və texniki-iqtisadi əsaslandırma hesabatı təsdiqlənib. Dəmir yolu 224 kilometr uzunluğunda və 5 stansiyadan ibarət olacaq. Saatda 160 kilometr sürət üçün nəzərdə tutulan layihə çərçivəsində uzunluğu 638 metr olan 10 körpü, 18 kilometr uzunluğunda 465 suötürücü, ümumilikdə 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Layihənin 5 il müddətində başa çatdırılması nəzərdə tutulub.

C. Acun qeyd edib ki, Ermənistan qədər kiçik və iqtisadi cəhətdən zəif bir dövlətin Zəngəzur dəhlizinin açılmasına necə münasibət bəsləməsi heç nəyi həll etməyəcək. Dəhliz açılacaq. Çünki ortada bir ildə quru yolla Şərqdən Qərbə 840 milyard dollardan çox məhsul ixrac edən Çinin və bu məhsulun çatdırıldığı Avropa İttifaqı ölkələrinin böyük maraqları dayanır.

Bu gün Azərbaycan Orta dəhlizin reallaşmasına töhfə verən əsas ölkələrdəndir. Sözügedən marşrut isə Asiya və Avropanı birləşdirən vacib nəqliyyat dəhlizlərindən birinə çevrilmək üzrədir. Eyni zamanda Rusiya-Ukrayna müharibəsi fonunda sözügedən dəhlizə marağın artması müşahidə olunur ki, bu da Azərbaycan ərazisindən daha çox yükün daşınması imkanı deməkdir. Orta dəhlizin vacib elementinə çevrilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin imkanlarının genişləndirilməsi üçün Azərbaycan dövlət büdcəsindən 100 milyon dollar vəsait ayrılıb. Həmin vəsait hesabına yolun illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona qaldırılacaq və Orta dəhliz vasitəsilə daha çox yükün daşınmasına imkan yaranacaq. Bundan başqa, Zəngəzur dəhlizi ilə yanaşı, Qars-Naxçıvan dəmir yolu da Orta dəhlizə inteqrasiya ediləcək. Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. Ötən ilin yekunları göstərir ki, Azərbaycan ərazisindən daşınan yükün həcmində 30 faizdən çox artım qeydə alınıb. Bu da regiona, o cümlədən yükdaşımalar baxımından Azərbaycana marağın artmasından xəbər verir. Region nəqliyyat habına çevrilir, Azərbaycan isə burada aparıcı ölkədir və Zəngəzur dəhlizinin istifadəyə verilməsi ölkəmizin beynəlxalq yükdaşımalarda mövqeyinin gücləndirilməsi baxımından vacibdir.

Bu gün Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə Mərkəzi Asiya respublikaları arasında dostluq əlaqələri inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin Qazaxıstan, Özbəkistan və Tacikistana səfərləri və əldə olunan razılaşmalar nəqliyyat sahəsində əməkdaşlığın genişlənməsinə böyük imkanlar yaradıb. Onu da nəzərə almaq lazımdır ki, Orta dəhliz, eyni zamanda Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin ticarətdən faydalanması üçün yeni imkanlar formalaşdırılması, Türkmənistan, Qazaxıstan və Azərbaycan limanlarında logistik mərkəzlərin və azad ticarət zonalarının yaradılması Trans-Xəzər əməkdaşlığının inkişafına və dərinləşməsinə kömək edir. Azərbaycan və Qazaxıstanın səyləri, Gürcüstanın fəal iştirakı, Türkiyənin bu təşəbbüsləri dəstəkləməsi ilə Orta dəhlizin rəqabət imkanları güclənib, iqtisadi cəhətdən səmərəliliyi artıb və bu istiqamətdə işlər sürətlənib.

Orta dəhlizin siyasi əhəmiyyətinə gəlincə, nəzərə almaq lazımdır ki, Çin və digər Cənub Şərqi Asiya dövlətlərinin Avropa ilə ticarət əlaqəsi Orta dəhlizlə reallaşacağı təqdirdə, onlar regionda daim sabitliyin hökm sürməsində maraqlı olacaqlar. Avropa İttifaqına daxil olan böyük dövlətlər də Orta dəhlizin həm avtomobil, həm də dəmir yolunun keçdiyi tranzit ərazilərdə sülhün və əmin-amanlığın davamlı xarakter daşımasında maraqlıdır və bu istiqamətdə siyasət yürüdəcəklər. Bununla da istər Ermənistan, istərsə də digərlərinin qeyri-konstruktiv siyasətinin qarşısı beynəlxalq birlik tərəfindən qəti şəkildə alınacaq. Beləliklə, Orta dəhliz ideyasının həyata keçməsi və Zəngəzur dəhlizinin açılması ölkəmizə iqtisadi səmərə ilə yanaşı, siyasi zəmanət də verəcək.

Azərbaycanın qələbəsindən sonra yaranmış yeni reallıqlar regionumuzun siyasi və iqtisadi mənzərəsini tamamilə müsbət istiqamətə dəyişmək fürsətləri yaradıb. Avtomobil və dəmir yollarının tikintisi, yeni dəhlizlərin yaradılması və iki böyük qitə arasında tranzit rolunu oynamaq regionun bütün dövlətləri üçün faydalıdır. Sadəcə olaraq, regionun bəzi dövlətləri müstəqil siyasət yürüdüb siyasi ambisiyalarla deyil, bu imkanlardan istifadə etmək istiqamətində siyasət yürütməlidirlər.

# Qarabağda yaşayan erməni əhalinin hüquqları təmin ediləcək

**Qarabağ bölgəsində separatçı qüvvələrə qarşı həyata keçirilən antiterror tədbirlərindən sonra ərazidəki şəhər və qəsəbələr Azərbaycan Ordusunun və hüquq-mühafizə orqanlarının nəzarətindədir. Lokal xarakterli antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən tərk edilmiş döyüş mövqeləri və dayaq məntəqələri ləğv edilir. Ərazidə kommunikasiya xətləri bərpa olunur. Azərbaycan Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 29-da Tərtər və Ağdərə yaşayış məntəqələrini birləşdirən yol üzərindəki döyüş mövqeyi ləğv olunaraq, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti təmin edilib.**

Qəhrəman Azərbaycan Ordusunun lokal xarakterli antiterror tədbirləri zamanı göstərdiyi şücaət nəticəsində kriminal xunta rejiminin sonu çatdı. Saxtakarların, quldurların qondarma "artsax respublikası" qaranlıqlara gömüldü.

Ermənistanın Azərbaycan ərazilərində qurduğu separatçı rejimin dağıdılması bölgədə sülhə, əmin-amanlığa yol açdı. Bu qələbə, əslində illərdir ki, kriminal xunta rejiminin girovuna çevrilən erməniəsilli sakinlərin də qurtuluşu oldu. Artıq nə separatçıların təhdidləri, nə də onlardan asılılıq var. Azərbaycan dövləti erməniəsilli sakinlərin təhlükəsizliyinə təminat verir. Ünvanına çatan və davam etdirilən humanitar yardımlar da Azərbaycan dövlətinin onlara diqqətinin, qayğısının təzahürüdür.

Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə məlumatı açıqlayır. Atıcı silahlar, qumbaraatanlar, top və haubitsalar, minaatanlar, tank əleyhinə silahlar, zirehli texnika, raketlər... Ermənistan silahlı qüvvələri birləşmələrinə məxsus bu silah-sursat Azərbaycan Ordusu tərəfindən Qarabağın müxtəlif ərazilərində aşkar edilərək müsadirə olunur. Ermənistan bu cəbbəxanaları bölgədə təxribatlar törətmək, sülhə, sabitliyə imkan verməmək üçün yaratmışdı.

Azərbaycan dövləti bütün bölgələrində olduğu kimi, Qarabağda da erməniəsilli vətəndaşlarının qorxusuz, təlaşsız, sülh və əmin-amanlıq içərisində yaşamalarını istəyir, bunun üçün böyük səy göstərir.

Ermənistanın işğal zaman xarabalığa çevirdiyi, Azərbaycanın yenidən qurduğu Zəngilanda sentyabrın 29-da keçirilən BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda II Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik, bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır: "Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır".

Azərbaycan heç zaman müharibə istəməyib. Bölgədə bütün münaqişələr, qarşıdurmalar, müharibələr Ermənistanın işğalçılıq siyasəti nəticəsində baş verdi. Qarabağ və Şərqi Zəngəzur ərazilərimiz otuz ilə yaxın Ermənistanın işğalı altında qalanda da Azərbaycan dövləti məsələni yalnız dinc yolla həll etməyə çalışdı. Dövlətimizin başçısı qeyd etdiyimiz forumda çıxışında vurğuladı: "Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdi ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları - beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək".

Qeyd edək ki, lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağın erməni sakinlərinin nümayəndələri və Azərbaycan mərkəzi hakimiyyətinin təmsilçiləri arasında görüşlər keçirilir, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılır. İlk görüş Yevlaxda, ikincisi Xocalıda təşkil edildi. Sentyabrın 29-da Qarabağın erməni sakinlərinin nümayəndələri və Azərbaycan mərkəzi hakimiyyətinin təmsilçiləri arasında üçüncü görüşün yeri yenə də Yevlax şəhəri oldu. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatına əsasən, görüşdə humanitar məsələlər, Qarabağın erməni sakinlərinin reinteqrasiyası və bu xüsusda Azərbaycanın təqdim etdiyi reinteqrasiya planı ətraflı müzakirə olunub.

Məlumatda qeyd edilib ki, mülki şəxslərin sərbəst hərəkətinin təmin edilməsi, humanitar yardımların göndərilməsi, yanacaq, qida ehtiyaclarının qarşılanması yüksək qiymətləndirilib: "Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərin nümayəndələri Xankəndi şəhəri yaxınlığında baş vermiş yanğın zamanı Azərbaycanın müvafiq dövlət qurumlarının həyata keçirdiyi tədbirlərə, xüsusilə yanğının söndürülməsi, xəsarət alanlara ilkin tibbi yardımın göstərilməsi üçün zəruri tibbi ləvazimatların, dərman preparatlarının və təcili tibbi yardım avtomobillərinin əraziyə göndərilməsinə görə xüsusi minnətdarlıq ifadə ediblər. Xahiş olunub ki, Azərbaycanın müvafiq dövlət qurumları mobil rabitə xidmətinin, televiziya və radio yayımının təşkili istiqamətində tədbirlər görsünlər".

Görüşdə Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov reinteqrasiya prosesi ilə bağlı prosedurlar və sosial xidmətlər zərfi haqqında məlumat verib. Təsərrüfat, kommunal və digər bu kimi məsələlərin yerində həll edilməsi məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələləri üzrə yaradılmış İşçi qrupun üzvlərinin oktyabrın 2-də Xankəndi şəhərinə səfəri nəzərdə tutulduğunu bildirib.

Göründüyü kimi, Qarabağda erməniəsilli əhalinin qalıb yaşamaları üçün heç bir problem yoxdur. Öz istəyi ilə, könüllü şəkildə gedənlərin də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən maneəsiz keçidi təmin olunur. Ermənistan istiqamətində hərəkət edən erməniəsilli sakinlər onlarla çox yaxşı davranıldığını söyləyərək, minnətdarlıqlarını bildirirlər.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# İrəvanda xaos davam edir

## Məğlub separatçılar Nikol Paşinyana qarşı çevrilişə hazırlaşırlar

**Hayastanda gərginləşən ictimai-siyasi durum ölkədə xaotik vəziyyət yaradıb. Mövcud durumdan istifadə edən keçmiş hərbi xuntanın revanş istəyi isə vəziyyəti daha da gərginləşdirməkdədir. Əsas niyyət iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa belə, hakimiyyəti qəsb etməkdir.**





İrəvanda Nikol Paşinyana qarşı təşkil edilən etiraz aksiyalarına polisin müdaxiləsi nəticəsində 100-dən çox insan həbs edilib, bir o qədəri də yaralanıb. Onlardan bəzilərinin vəziyyəti ağırdır. Hazırda baş verənlərdən isə belə məlum olur ki, yaxın vaxtlarda Hayastanda vəziyyət daha acınacaqlı xarakter alacaq. Çünki separatçılar Paşinyanın baş nazir kimi ölkə idarəçiliyini davam etdirməsini istəmirlər.

Dünən İrəvanda, Azərbaycan tərəfindən həbs edilən Ruben Vardanyan və digər separatçılara dəstək nümayişi keçirilib.

Keçmiş hərbi xuntanı təmsil edənlər Nikol Paşinyana qarşı hər hansı uğur əldə edə bilmədikləri üçün istiqaməti dəyişməyə, diasporun, kilsə və rusiyameyillilərin dəstəyini bu yolla əldə etməyə çalışırlar.

Mitinqin təşkilatçıları qeyd ediblər ki, Qarabağdakı keçmiş terrorçu rejimin oyuncaq "dövlət naziri" Ruben Vardanyan 27 sentyabrda Azərbaycan sərhədçiləri tərəfindən saxlanılıb və barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Eyni zamanda deyilib ki, oyuncaq qurumun "keçmiş xarici işlər naziri" David Babayan, "müdafiə ordusunun keçmiş komandiri" Levon Mnatsakanyan, "təhlükəsizlik şurasının keçmiş rəhbəri" Arşavir Qaramyan və "müdafiə nazirinin keçmiş müavini" David Manukyan da saxlanılıb.

Etiraz aksiyaları zamanı polislər növbəti dəfə müxalifət fəallarına qarşı zorakılıq nümayiş etdiribər. Bu cür faktlara dair videoları dərc edən saytlar hətta "qırmızı beretli"lərdən birinin yaşlı qadına qapaz vurmasını yazıb. Görüntülərdə polisin bu davranışından sonra erməni qadınların onun üzərinə hücum etməsi də əks olunub.

Bu arada yayılan məlumatlara görə, Paşinyanın göstərişi ilə İrəvan küçələrinə əlavə hərbi və polis qüvvələri cəmləşdirilir. Erməni hərbi ekspert Samvel Koçaryan isə yaranmış vəziyyətdə ölkədə "rəngli inqilab"ın təşkil edildiyini vurğulayır. Qeyd edilir ki, günlərdir küçələrə faktiki nəzarət edən etirazçıların məqsədi hakimiyyəti və əlbəttə ki, ölkənin xarici siyasət kursunu dəyişdirməkdir. Bu da öz növbəsində "rəngli inqilab"a aparır. Etirazçılar başqa ölkələrdəki "rəngli inqilab" təşkilatçılarının metodları ilə hərəkət edirlər. "Rəngli inqilab"ın emissarları Hayastanda hakimiyyətdən yığılıb qalmış narazılıqlardan istifadə etməyə çalışırlar. Etirazçılar arasında polislə toqquşma zamanı özünü necə aparmaq, necə təşkilatlanmaq və s. barədə vərəqələr paylanır.

Göründüyü kimi, İrəvanda etirazlar səngimək bilmir. Nikol Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu isə o deməkdir ki, Hayastanı qarşıdakı dövr ərzində gərgin günlər gözləyir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Almaniya telekanalında bölgədəki mövcud vəziyyətdən danışılıb

**Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev bu ölkənin tanınmış dövlət telekanalı olan PHOENIX kanalına müsahibə verib.**

AZƏRTAC xəbər verir ki, müsahibə çoxmilyonlu tamaşaçı auditoriyasına malik telekanalda canlı yayımlanıb, habelə Almaniyanın digər nüfuzlu ictimai kanalları ARD və ZDF-nin videotekasında yerləşdirilib. Müsahibəni tanınmış alman jurnalist Florian Bauer götürüb.

N.Ağayev müsahibəsində təxminən 30 il əvvəl Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz, Azərbaycan ərazisinin 20 faizinin zəbt edilməsindən, işğal zamanı ərazilərimizdə həyata keçirilmiş etnik təmizləmələr, maddi və mədəni irsin barbarcasına dağıdılmasından, 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən və digər məsələlərdən söhbət açıb. Bildirilib ki, 2020-ci ildə baş verən 44 günlük müharibə nəticəsində imzalanmış üçtərəfli Bəyanata zidd olaraq Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yerləşdirdiyi 10 min silahlısını ərazilərimizdən çıxarmayıb və bu silahlı hərbi birləşmələr Azərbaycan vətəndaşlarına qarşı terroru, müxtəlif növ təxribatları davam etdirib.

Səfir əlavə edib ki, Ermənistan Azərbaycan tərəfinin təxribatlara son qoymaq və qanunsuz silahlı qüvvələri Qarabağ bölgəsindən çıxarmaqla bağlı uzunmüddətli tələblərinə məhəl qoymayıb, ərazilərimizdə yeni minalar yerləşdirərək vətəndaşlarımızın ölümünə səbəb olub. Nəticədə Azərbaycan beynəlxalq hüquqa görə ona məxsus olan ərazilərdə lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə məcbur olub. Diplomat Azərbaycan Ordusunun 24 saatdan az çəkən antiterror tədbirləri zamanı beynəlxalq humanitar hüququn bütün tələblərini yerinə yetirərək, mülki şəxsləri və ya onların məskunlaşdıqları yerləri hədəf almadığını, yalnız hərbi obyektlərin məhv edildiyini xüsusi vurğulayıb. Səfir, həmçinin Azərbaycan tərəfindən Qarabağdakı ermənilərə göstərilən humanitar yardımlardan ətraflı bəhs edib.

N.Ağayev Qarabağdakı ermənilərin Azərbaycan vətəndaşları olaraq nəzərdən keçirildiyini, onların Azərbaycanda həyatın bütün sahələrinə reinteqrasiyası, habelə sözügedən bölgədə yaşamalarını davam etdirmələri üçün bütün şəraitin yaradılacağını, onların təhlükəsizliyinin, bütün hüquq və azadlıqlarının təmin olunacağını söyləyib.

Diplomat müsahibəsində Ermənistanla münasibətlərin normallaşması məsələsinə də toxunub. İki ölkə arasında ərazi bütövlüyü və suverenliyin qarşılıqlı şəkildə tanınması, eləcə də ərazi iddialarından imtina edilməsinə əsaslanan sülh sazişinin imzalanmasının zəruriliyini ifadə edib.

1 Oktyabr ÇXR-in Yaranması Günüdür

# Xarici siyasət kursunda Çin ilə münasibətlər mühüm yer tutur



**"Çin və Azərbaycan yaxşı dostlardır".**

**İlham ƏLİYEV**

Qədim sivilizasiya mərkəzlərindən biri olan Çin və onun zəhmətkeş sakinləri bu gün iftixar hissilə öyünə bilərlər ki, onların ulu babaları dünya mədəniyyəti xəzinəsinə özünəməxsus töhfələr, yeniliklər vermişlər. Bəşəriyyət özünün sosial-iqtisadi, mənəvi, iqtisadi, texniki, mədəni tərəqqisinə görə Çin xalqına minnətdar olmalıdır. Özünəməxsus xüsusiyyətlərə, füsunkar gözəlliklərə, zəngin fauna və floraya malik olan bu diyar çini qablar, kağız, ipək, barıt, kompas, seysmoqraf, ilk kitab çapı və yazının vətənidir. Avropada o zamanlar belə möcüzələr haqqında heç bir təsəvvür yox idi. O, həmçinin insanlara rahatlıq və gümrahlıq gətirən çayın vətənidir.

Miladdan əvvəl IX əsrdə əlifba yaradan yunanlar sevindilər. Lakin onların xəbəri yox idi ki, Çində heroqlif yazı sistemi ondan 6 əsr əvvəl yaradılmışdı. İtalyanlar e.ə.753-cü ildə Roma şəhərinin əsasını qoymuşdular. Ancaq onlar da bilmirdilər ki, Pekinin indiki ərazisində ilk yaşayış məskəni bundan üç min il əvvəl yaranmışdı. İngilislər bir zamanlar bu ölkənin əhalisinin sayını duza olan tələbata görə müəyyən edirdilər.

Bu gün möhkəm əminliklə demək olar ki, Çin iqtisadi potensialına görə dünya nəhənglərinin önündə inamla irəliləməkdədir. Ölkədə ümumi daxili məhsulun miqdarı 2023-cü ilin birinci yarısında 5,5 faiz artaraq 8,27 trilyon dollar təşkil etmişdir. Çində 2023-cü ilin birinci yarısında adambaşına düşən gəlir isə 2,74 min dollara bərabər olmuşdur.

Çin 2023-cü ilin birinci yarısında 105 milyon ton neft hasil etmişdir. Çin iqtisadi potensialına görə dünya üzrə ümumi daxili məhsulun 18,5 faizini təşkil edir.

Bu gün saat, velosiped, tikiş maşınları, akkumulyator batareyaları, pivə, mebel, plastik emalı maşınları da daxil olmaqla 100-dən çox növdə yüngül sənaye mallarının istehsalına görə Çin dünyada birinci yerdədir. Təsdiq edilmiş mineral resursların ehtiyatlarına görə, Çin dünyanın 45 əsas növü arasında 25 mineral növü üzrə dünyada üçüncü, nadir torpaq ehtiyatları, gips, vanadium, titan, tantal, volfram, bentonit kimi 12 mineral ehtiyatına görə birinci yerdədir.

Hazırda Azərbaycan Respublikasının çoxtərəfli xarici siyasət kursunda Çin ilə münasibətlər mühüm yer tutur və üstün istiqamətlərdən birini təşkil edir. Təsadüfi deyil ki, iki ölkə arasında əlaqələrin kökləri 2.500 il əvvələ gedib çıxır. Birbaşa iqtisadi əlaqələrin və tranzit əlaqələrin tarixi də orta əsrlərə gedib çıxır. Hər iki xalq bu əlaqələrə görə tarixi İpək yoluna borcludur. Ticarət əlaqələrinin inkişafı Azərbaycan və Çin xalqlarının bir-birinə mədəni təsirinin güclənməsinə də səbəb olmuşdur. Lakin iki dövlət arasında çağdaş münasibətlərin tarixi 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Çinə rəsmi səfəri zamanı qoyulmuş və çoxşaxəli istiqamət almışdır. Səfər zamanı iki dövlət arasında 8 müqavilə imzalanmışdır.

Çin hökuməti açıq siyasi iradə nümayiş etdirərək, Azərbaycanın dövlət suverenliyini və ərazilərinin toxunulmazlığını tanıdığını, Azərbaycan-Ermənistan münaqişəsində ölkəmizin yanında olduqlarını bəyan etmişdir.

Ölkələrimiz arasında qarşılıqlı siyasi münasibətlər yüksək səviyyədədir. 1992-ci ildə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulduğu vaxtdan möhkəm təməl üzərində bərqərar olan ikitərəfli münasibətlər qarşılıqlı fayda əsasında uğurla inkişaf edir. Keçən il sentyabrın 15-də ÇXR Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənd sammiti çərçivəsində görüşü qarşılıqlı münasibətlərin gələcək inkişafının yeni istiqamətini müəyyənləşdirmişdir.

Azərbaycan-Çin əlaqələri bütün sahələrdə inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Çinin dövlət başçısı Si Cinpinin ötən ilin payızında "Bir kəmər, bir yol" Sammiti çərçivəsində Pekində Prezident İlham Əliyevi "Çinin böyük dostu" adlandırması heç də təsadüfi deyildir.

İlham Əliyevin Davosda Çinin televiziya kanalına müsahibəsində ifadə etdiyi fikirlər Azərbaycanla Çin arasında dostluq, qarşılıqlı anlaşmanın yüksək səviyyədə oluğunu bir daha təsdiqləyir.

Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Azərbaycanla Çin arasında xarici ticarət dövriyyəsi 2022-ci ildə 2190 milyon dollara çatmışdır. Əsas ixracat xam neft və kimya məhsullarının payına düşür. Ümumiyyətlə, Çinin Cənubi Qafqaz ölkələri ilə ticarət həcminin 47-48 faizi Azərbaycanın payına düşür. Bunun nəticəsidir ki, Çin Azərbaycanın 5 böyük ticarət tərəfdaşından biridir və 4-cü yerdə qərar tutub.

Ötən ilin ikinci yarısında ölkələrimiz arasında 22 qiqavat bərpaolunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalanmışdır. 120-ə yaxın Çin mənşəli şirkətin fəaliyyət göstərdiyi Azərbaycanda Pekin ümumilikdə 800 mln. dollardan çox sərmayə qoyub. Xarici ölkələrə kapital qoyuluşunu günbəgün artıran Azərbaycan Çinə bu vaxtadək 1,7 milyard dollar həcmində kapital qoyuluşu reallaşdırıb. Çin şirkətləri ölkəmizin neft, sənaye, energetika, maliyyə, bank, rabitə, İKT, kənd təsərrüfatı və qeyri-neft sektorunun müxtəlif sahələrində təmsil olunur.

2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 18 faiz artaraq, 2 milyard 159 milyon dollara çatmışdır. Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəsi fəaliyyət göstərir, eləcə də Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri açılıb.

Son zamanlar Çin sərmayəçiləri Azərbaycana böyük maraq göstərirlər. Ələt Azad Ticarət Zonasının salınmasında, texnoparkların tikintisində Çin şirkətləri də fəal iştirak edirlər. Cari iiln sentyabrında "Azərbaycan İqtisadiyyat Nazirliyi və Çinin Milli İnkişaf və İslahat Komissiyası arasında istehsal gücləri və investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Çərçivə Sazişi" imzalanıb.

Hazırda iki ölkə arasında nəqliyyat-logistika sahəsində də sıx faydalı əməkdaşlıq mövcuddur. Azərbaycan Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşir və bu strateji mövqe ölkəmiz üçün çoxlu imkanlar yaradır. Azərbaycan Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub. "Bir kəmər, bir yol" layihəsi tam işə düşəndən sonra, hazırda il ərzində Xəzər dənizi vasitəsilə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü 25-30 milyon tona qədər artırılacaq.

Siyasi və iqtisadi-ticarət əlaqələrinin inkişafı həyatın digər sahələrinə də təsir edir. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir. Vizanı Azərbaycanın beynəlxalq hava limanlarında əldə etmək mümkündür. Azərbaycan və Çin arasında müntəzəm birbaşa uçuşlar həyata keçirilir.

Qaşılıqlı mədəni əlaqələrin səviyyəsi də ürəkaçandır. Təhsil sahəsində əlaqələr hər il daha da genişlənir. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində fəaliyyət göstərən "Uzaq Şərq dilləri və ədəbiyyatı" kafedrasında Çin dilinin tədrisinə xüsusi diqqət yetirilir. Təhsilin bakalavr və magistr pilləsi üzrə kadr hazırlığına geniş yer ayrılır. Həmçinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasında Şərq ölkələrinin, o cümlədən Çinin tarixinin tədrisinə və öyrənilməsinə mühüm əhəmiyyət verilir. Tələbələrə Çin tarixinin müxtəlif dövrlərinə aid elmi tədqiqat işləri verilir.

Azərbaycan və Çinin inkişafının ümumi xüsusiyyətləri ondan ibarətdir ki, hər iki ölkə mühüm geosiyasi məkanda yerləşir və olduqca əlverişli coğrafi mövqeyə malikdirlər. İqtisadi tərəqqi və dirçəliş üçün hər iki ölkədə obyektiv və subyektiv amillər mövcuddur. Zəhmətsevərlik və sadəlik hər iki xalqı birləşdirən cəhətlərdir. Ərazilərində zəngin təbii sərvətlər olan bu ölkələr Zəngəzur dəhlizi açılandan sonra beynəlxalq iqtisadi əlaqələr sistemində yeni mərhələyə qədəm qoyacaqlar. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən əhəmiyyətli dəhlizdir. Belə bir şəraitdə Çindən Avropa bazarına göndərilən yüklərin daşınma məsafəsi 3 min kilometr qısalacaqdır. Bu isə hər iki ölkənin milli maraqlarına uyğundur.

*Atamoğlan MƏMMƏDLİ, BDU-nun dosenti*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan regionda Astronavtika Konqresi kimi mötəbər tədbirə evsahibliyi edən ilk ölkədir




**Bu barədə Bakı Beynəlxalq Astronavtika Konqresinin keçiriləcəyi məkana - Bakı Konqres Mərkəzinə mediatur zamanı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov deyib.**

R.Bayramov qeyd edib ki, bu günədək Bakı Konqresində 5 mindən çox nümayəndə iştirak üçün qeydiyyatdan keçib. "Çox sevindirici haldır ki, tədbir iştirakçılarının yarıdan çoxu gənclərdir. Azərbaycan gəncləri bu sahədə də çox aktivdir. Belə ki, Azərbaycanın gənc alimləri 200-dən çox elmi məqalə təqdim edib. Ümumilikdə, Konqresə 195 ölkədən 3 500-dən çox elmi məqalə təqdim olunub", - deyə o, əlavə edib.

## "Dağıdılmış şəhərlərin yenidən bərpasını görmək heyrətamizdir"

**"Mən Bakıda böyük dəyişikliklərin şahidi oldum. İşğalda olan ərazilərin geri alınması və indiki dəyişiklikləri görmək məni çox məmnun etdi". Bu fikirləri AZƏRTAC-a açıqlamasında Britaniya Ticarət Palatasının Azərbaycan üzrə sədri Con Paterson deyib.**

25 ilə yaxın Britaniya Ticarət Palatasının Azərbaycan üzrə sədri vəzifəsində çalışdığını diqqətə çatdıran Con Paterson bildirib: "Dünən Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasiminə dəvət olundum. Tədbir yüksək səviyyədə təşkil olunmuşdu.

İşğaldan azad olunmuş Zəngilanda yeni Konqres Mərkəzi açıldı. Biz dünən orada bir kəndin necə yenidən qurulduğunun şahidi olduq. Şuşadakı tarixi abidələri görmək çox maraqlı idi. Hamı Şuşa, Laçın, Zəngilan, Füzuli və digər işğaldan azad olunmuş rayonlarda görülən quruculuq işlərindən məlumatlıdır. Dağıdılmış şəhərlərin yenidən bərpasını görmək heyrətamizdir. Digər ölkələrin də təcrübələrindən yararlanmaq üçün belə tədbirlərin təşkili çox vacibdir".

## Aqrar-sənaye məhsullarının ixrac dəyəri 10,4 faiz artıb

**Bu ilin yanvar-avqust ayları ərzində aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,4 faiz artaraq 593,9 milyon dollar olub.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın sentyabr sayında bildirilir ki, qeyri-neft-qaz məhsulları ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 132,6 milyon dollara çatıb.

## ARDNF Suveren Fondların Beynəlxalq Forumu ilə əməkdaşlığını genişləndirir

**Məlum olduğu kimi, İspaniyanın Madrid şəhərində Suveren Fondların Beynəlxalq Forumunun (SFBF) on beşinci illik iclası keçirilib. İspaniyanın "COFIDES" qurumunun evsahibliyi ilə "Keçid dövründə investisiya" başlığı altında keçirilən tədbirdə artan neqativ tendensiyalar fonunda investorların yanaşmaları, enerji keçidi sahəsində yeni imkanların yaradılması, inflyasiyanın maliyyə bazarları və qlobal iqtisadiyyata təsiri mövzuları əhatə olunub.**

Dörd gün davam edən tədbirdə həmçinin Suveren İnkişaf Fondları və digər maliyyə təşkilatları arasında birgə investisiya tərəfdaşlığı, rəqəmsal transformasiya mühitində kibertəhlükəsizlik və süni intellektin əhəmiyyəti kimi fərqli mövzuları əhatə edən təqdimatlar və panel sessiyaları keçirilib. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti STBT-nin iclasında iştirak edib.

Suveren Fondların Beynəlxalq Forumunun fəaliyyəti, məqsəd və məramı nədən ibarətdir? SFBF-nin yaradılması haqqında qərar 2009-cu il aprelin 5-6-da Küveytin paytaxtı Əl-Küveyt şəhərində keçirilmiş Suveren Fondların Beynəlxalq İşçi Qrupunun iclasında qəbul edilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Fondu bu forumun üzvüdür.

ARDNF Suveren Fondların Beynəlxalq Forumu vasitəsilə digər suveren fondlarla əməkdaşlığını davam etdirir. Suveren fondların könüllülük prinsipi əsasında yaradılmış qrupu olan SFBF-nin üzvləri onların ümumi maraqlarına uyğun məsələlərin müzakirəsi ilə əlaqədar mütəmadi görüşür və fikir mübadiləsi aparırlar, habelə suveren fondların fəaliyyəti və Santyaqo Prinsiplərinin (SP) anlaşılmasına yardım edirlər. Onu da deyək ki, Suveren Sərvət Fondları maliyyə ehtiyatlarını istiqrazlar, əmlak, qiymətli metallar və ya digər maliyyə alətləri təşkil edən, təbii sərvətlərdən əldə edilən gəlir hesabına formalaşan dövlət maliyyə fondlarıdır. Bu termin ilk dəfə 2005-ci ildə işlədilmişdir.

SFBF-nin ilk görüşü 2009-cu il oktyabr ayının 8-9-da Azərbaycan hökumətinin və ARDNF-nin təşkilatçılığı ilə Bakı şəhərində keçirilmişdir. SP-nin 24-cü prinsipinə uyğun olaraq, ARDNF SP-nin tətbiqi ilə bağlı ilk hesabatını 2011-ci ildə hazırlamışdır. Bu hesabatlar illik əsasda nəzərdən keçirilir.

Xatırladaq ki, ARDNF Azərbaycanın neft-qaz sərvətlərinin xalqa davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı fərmanla təsis edilmişdir. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-nin Əsasnaməsi təsdiq olunmuşdur. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilmiş və qurum əməli fəaliyyətə başlamışdır.



Analoji fondlar bir sıra ölkələrdə də fəaliyyət göstərir. ARDNF yaradılarkən həmin fondların təcrübəsinə müraciət olunmaqla yanaşı, yaşanan dövrün təxirəsalınmaz problemlərinin həllini nəzərə alan bir model seçilmişdir. Bir sözlə, ARDNF-nin fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulmuşdur. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusilə əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə yönəldilir.

Neft ehtiyatlarının bərpa olunmadığı, yəni hasil edildikcə tükəndiyi hamıya yaxşı məlumdur. Ona görə də neft fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Bir sözlə, ARDNF neft və qazdan əldə edilən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi qurumdur. ARDNF büdcədənkənar, ayrıca dövlət təsisatıdır. Şəffaflıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən biridir. Ötən dövr ərzində fond institusional cəhətdən yüksək səviyyədə inkişaf etmiş, beynəlxalq səviyyəli maliyyə təşkilatına çevrilmişdir.

ARDNF-nin hesabat sistemində şəffaflığın təmin edilməsi ilk növbədə fondun maliyyə fəaliyyəti haqqında hesabatının müstəqil auditor tərəfindən yoxlanılması vasitəsilə həyata keçirilir. ARDNF təbii ehtiyatların idarə olunmasından əldə edilən gəlirlər və onların xərclənməsi istiqamətlərinin ictimaiyyətə çatdırılmasında şəffaflığın təmin olunması üçün gəlir və xərcləri haqqında rüblük, fəaliyyəti barədə illik hesabatları mətbuatda, fondun internet səhifəsində və sosial media səhifələrində mütəmadi dərc etdirir.

2007-ci ilin mayında ARDNF "BMT-nin Dövlət Qulluğu Mükafatı" ilə təltif edilmişdir. Dövlət idarəçiliyi sahəsində ən nüfuzlu mükafat sayılan "BMT-nin Dövlət Qulluğu Mükafatı" dünyanın müxtəlif ölkələrində dövlət qurumlarının həmin ölkələrin inkişafına verdiyi töhfənin və əldə etdikləri uğurların qiymətləndirilməsi məqsədilə BMT tərəfindən 2003-cü ildə təsis olunub. ARDNF Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında "BMT-nin Dövlət Qulluğu Mükafatı"na layiq görülən birinci dövlət qurumudur.

2009-cu ilin fevralında Qətərin paytaxtı Doha şəhərində keçirilmiş MHŞT (Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ) üzrə 4-cü beynəlxalq konfransda Azərbaycan həm də MHŞT prinsip və meyarlarının tam tətbiq edildiyini təsdiqləyən qiymətləndirmə prosesindən keçən ilk ölkə olmuşdur. MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycana "MHŞT mükafatı" təqdim olunmuşdur.

Onu da vurğulayaq ki, SFBF-nin 15 illik qısa tarixində iki iclası Bakı şəhərində keçirilmişdir. Forumun ilk görüşü 2009-cu il oktyabr ayının 8-9-da Azərbaycan hökumətinin və ARDNF-nin təşkilatçılığı ilə burada baş tutmuşdu. On dördüncü illik iclas da ötən il Azərbaycan Respublikası Dövlət Neft Fondunun təşkilatçılığı ilə paytaxtımızda keçirilmişdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qeyri-neft sənayesində artım dinamikası davam edir

### Kompüter, optik və elektron məhsullar istehsalında 80 faizdən çox artım var

**Sirr deyil ki, dünyada baş verən siyasi qarşıdurmalar qlobal iqtisadiyyatda müəyyən qədər geriləməyə səbəb olub. Dünya iqtisadiyyatında aparıcı rola malik Çində məhsul istehsalında azalma, ABŞ-də maliyyə problemləri yaranıb. Qlobal ticarətdə də aktivlik müşahidə olunmur.**



Bütün bunlara rəğmən ölkəmizdə iqtisadi dinamikanın səviyyəsi yüksək olaraq qalır. Bunun səbəbi iqtisadiyyatın kapitallaşmasında dövlətin fəal iştirakı və qeyri-neft-qaz sənayesinin inkişaf etdirilməsidir. Açıqlanan statistik rəqəmlər də məhz ölkə iqtisadiyyatının sabit inkişafını özündə əks etdirir. Belə ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6, qeyri-neft sənayesində 6 faiz artım qeydə alınıb.

Qeyri-neft-qaz sənayesinin inkişafı ölkədə aparılan islahatların birbaşa məntiqi nəticəsidir. Təxminən 10-15 il əvvəl idxal olunan bir çox sənaye məhsulları indi ölkəmizdə istehsal edilir, üstəlik, xarici bazarlara da çıxarılır. Bu sahə üzrə məhsul istehsalında özəl sektorun öndə olması isə icra edilən islahatlar sayəsində sahibkarlığın inkişafının göstəricisidir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında sənayedə qeyri-dövlət sektorunun payı 85,2 faiz olmuşdur. Ümumi istehsalın 91,6 faizi sənaye məhsullarının istehsalı, 8,4 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaranmışdır.

Hesabat dövründə mədənçıxarma sənayesinin əsas məhsulu olan əmtəəlik neft hasilatı 20,1 milyon ton, əmtəəlik təbii qaz hasilatı 24,1 milyard kubmetr təşkil etmişdir. Təbii qaz hasilatının artması ölkəmizin strateji hədəfidir. Bunun üçün yeni qaz yataqları istismara verilir. Qaz istehsalının artırılmasında məqsəd ixracı çoxaltmaqdır. Bu gün Azərbaycan qaz ixrac etməklə Avropanın enerji təhlükəsizliyində özünə önəmli yer alıb. Bir çox ölkə qaz almaq barədə bizə müraciət edərək müqavilələr bağlayıb. Bu səbəbdən təbii qaz üçün Azərbaycana müraciət edən ölkələrin sayı ildən-ilə artır.

Emal sənayesi öz tutumuna görə ölkəmizdə öndə gedən sənaye sahələrindəndir. Hesabat dövründə emal sənayesində 11 milyard 785,3 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu sahədə ötən ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 26,7, qida məhsullarının istehsalında 11,2, tütün məmulatlarının istehsalında 6 faiz artım müşahidə edilmişdir.

Cari ilin 8 ayında toxuculuq sənayesi, geyim, dəri və dəridən hazırlanan məmulatların, ayaqqabıların istehsalı sahələrində 301,6 milyon manat dəyərində məhsul istehsal edilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə toxuculuq sənayesində 23,5 faiz artım qeydə alınmışdır. Bu, toxuculuq məhsullarına tələbatın artması ilə izah oluna bilər. Məsələn, Elm və Təhsil Nazirliyi tərəfindən məktəblərdə xüsusi geyim formasının istifadəsi barədə verilən qərar belə məhsullara tələbata təsir edib və bu da istehsalın artmasına səbəb olub.

Qeyri neft-qaz sektorunda kimya sənayesi, əczaçılıq məhsulları, rezin və plastik kütlə məmulatlarının istehsalı sahəsi xüsusi çəkiyə malikdir. Bu sahələrdə istehsalla yanaşı, ixracın həcmi də artır. Hesabat dövründə bu sahə üzrə 1 milyard 453,3 milyon manatlıq məhsul istehsal olunmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə rezin və plastik kütlə məmulatlarının istehsalı 20,9, kimya sənayesi məhsullarının istehsalı 6, əczaçılıq məhsullarının istehsalı isə 2,8 faiz artmışdır. Bununla yanaşı, kimya sənayesinin əsas məhsullarından olan polietilen istehsalı 34, etilen istehsalı 33,1, propen (propilen) istehsalı 28,6 faiz, rezin və plastik kütlə məmulatlarından plastmas butulkalar, flakonlar və oxşar məmulatların istehsalı 2,3 dəfə, sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlaqların istehsalı 31,3, plastmas çubuqlar, millər və protillərin istehsalı isə 11,2 faiz artmışdır.

Son dövrlər tikinti materiallarının istehsalı sahəsində də dinamik artım müşahidə edilir. Bu da həmin sahənin məhsullarına tələbatın yüksək artması ilə bağlıdır. Belə ki, işğaldan azad olunmuş ərazilərdə nəhəng tikinti-quruculuq layihələri icra edilir və bu səbəbdən tikinti materiallarına olan sifarişlər artır.

Müasir dövrdə dünyada ən çox istehsal edilən və gəlir gətirən sahələrdən biri də kompüter, elektron və optik məhsullardır. Bu sahə ölkəmizdə yeni yaransa da, müəyyən uğurlar qazanılıb. Həmin məhsulların istehsalının ötən ilin müvafiq dövrü ilə müqayisədə 80,4 faiz artması da bunu göstərir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## DOST-la MDB ölkələri də dost oldu

**MDB dövlətlərinin əmək, məşğulluq və sosial müdafiə üzrə Məşvərət Şurasının iclasında DOST konsepsiyasına dair təqdimat olub**

DOST
DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının 36-cı iclası keçirilib.

İclasa onlayn formatda qoşulan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tədbir iştirakçılarına DOST konsepsiyası barədə təqdimat edib.

Bildirilib ki, DOST mərkəzlərində sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirilərək xüsusi mükafatlara layiq görüldüyü, bir sıra ölkələrin də DOST təcrübəsini tətbiq etməkdə maraqlı olduğu vurğulanıb.

DOST Agentliyinin "Könüllü DOST" proqramı barədə də məlumat verilib. Qeyd edilib ki, proqram "Gənc DOST", "Gümüşü DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Distant DOST" altproqramlarını əhatə edir. Könüllülər mərkəzlərdə vətəndaş məmnunluğuna uyğun xidmətlərin göstərilməsinə dəstək verirlər. Proqrama indiyədək 100 minədək müraciət daxil olub, 4 minə yaxın şəxs proqramda iştirak edib.

Təqdimat tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Pensiya yaşına çatmış şəxslərin cəmiyyətə reinteqrasiyası, yaşlı şəxslərin asudə vaxtının səmərəli təşkili məqsədilə təşkil olunan "Gümüşü DOST" altproqramı xüsusi maraq doğurub. 2024-cü ilin "MDB Könüllülər hərəkatı ili" elan edilməsi çərçivəsində DOST Agentliyinin bu təcrübəsinin Məşvərət Şurasının iştirakçısı olan təşkilatlarda tətbiqi ilə bağlı müzakirə aparılıb.

"Ümumrusiya əməyin mühafizəsi həftəsi" çərçivəsində Rusiyanın Soçi şəhərində keçirilən tədbirdə MDB-də əmək və sosial müdafiə sahəsində mövcud vəziyyət, 2024-cü ilin "MDB Könüllülər hərəkatı ili" elan edilməsi, eləcə də rəqəmsal platformalar üzərindən təmin olunan məşğulluğun və özünüməşğulluğun tənzimlənməsi məsələləri müzakirə edilib.

## Bir portala 5,7 milyon müraciət

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sosial.az portalına bu il 5,7 milyon müraciət qeydə alınıb.**

2019-cu ildən istifadəyə verilən portal ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat və s. üzrə) çıxış imkanı yaradır.

Vətəndaş onun barəsində portalda toplanmış məlumatları mütəmadi izləyə bilməklə yaranan sosial-əmək hüquqlarının təminatına ictimai nəzarəti həyata keçirmək imkanına malikdir. Portal pensiya, müavinət, təqaüd, əlillik, reabilitasiya, məşğulluq, iş yeri və s. barədə 31 növ elektron arayışı rəqəmsal platforma vasitəsilə almaq imkanı da yaradır.

Ölkəmizin mühüm sosial uğurlarından olan e-sosial.az portalı ABŞ-nin beynəlxalq onlayn "dotCOMM Awards" müsabiqəsində "Dövlət saytı" nominasiyası üzrə "Platinium" kateqoriyasında qalib seçilib. Habelə Beynəlxalq Telekommunikasiya İttifaqının "Çempion layihə" mükafatına ("Əmək və Məşğulluq" altsistemi ilə birgə) layiq görülüb. Portal İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən qabaqcıl innovativ təcrübələrdən biri kimi təqdim edilib.

# Təhlükə getdikcə artır

## Koronavirusun yeni ştamı sürətlə yayıldığı üçün tezliklə Azərbaycanda da aşkarlana biləcəyi istisna edilmir

**Uzun müddətdir həyatımızda olan koronavirus hələ də dünya miqyasında əhəmiyyətli ictimai sağlamlıq təhlükəsi olaraq qalır. 3 il ərzində mütəmadi olaraq virusun müxtəlif subvariantları ortaya çıxır və inkişaf edir.**



Bu ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirus pandemiyasının başa çatdığını elan etsə də, son günlər bir çox ölkədə COVID-19-un "Eris" ("EG.5") ştamına yoluxanların sayının artması problemin hələ də aktual olduğunu göstərir.

Son günlər xüsusilə Türkiyə, Amerika Birləşmiş Ştatları, Çin, Böyük Britaniya və Avropanın bir sıra ölkələrində yoluxma saylarında artım var. "Eris"in əsas əlamətləri yüksək hərarət, öskürək, burun axıntısı, tənəffüs çətinliyi hesab olunur. Onun yoluxuculuğu yüksək olsa da, ölüm riski azdır.

### Kütləvi peyvənd proqramına ehtiyac yoxdur

Bir müddət öncə Türkiyədə 9 nəfər "Eris" ştamına yoluxmuşdu. Türkiyənin səhiyyə naziri Fahrettin Koca hazırda ölkədəki epidemioloji vəziyyətlə bağlı açıqlama verib. O bildirib ki, "Eris" üçün yeni tədbirlərə ehtiyac yoxdur: "Belə ki, virusa artıq bələdik. Onun bütün mutasiyalarının təsirlərini və dəyişikliklərini izləyirik.

Bu mutasiyalarda virusun ilk ortaya çıxdığı zaman xəstəlik törədici təsirində, yeni virulentliyində heç vaxt artım olmamışdır. Baş verən mutasiyalar xəstəliyə səbəb olmaq gücü daha zəif olan mutasiyalardır və dediyim kimi biz bunu yaxından izləyirik.

F.Koca qeyd edir ki, yeni peyvənd proqramı həyata keçirməyəcəyik: "COVID-19 soyuqdəymə və qrip kimi yuxarı tənəffüs yollarının infeksiyasına çevrilib. Bəzi ölkələrin peyvənd təzyiqinə boyun əyməsi o demək deyil ki, biz də peyvənd təzyiqinə boyun əyəcəyik. Peyvənd proqramına sırf kimsə istəyir deyə başlamırıq. Hazırda COVID-19 üçün yeni peyvənd proqramını həyata keçirməyi düşünmürük. Heç bir məhdudiyyət və ya qapanma yoxdur".

Səhiyyə naziri bildirir ki, koronavirusdan qorunmağın yollarını hər kəs bilir: "Xəstələrə özlərini təcrid etmələrini, çölə çıxmamalarını, risk altında olanların xüsusilə özlərini qorumalarını, izdihamlı mühitlərdən uzaq durmalarını, zəruri hallarda maskadan istifadə etmələrini tövsiyə edirik. Kütləvi peyvənd proqramına qətiyyən ehtiyac yoxdur. Amma bu dövrdə qrip peyvəndinə önəm veririk. Risk qrupunda olan və qripə qarşı peyvənd edilmiş şəxslərin ən qısa müddətdə peyvənd olunmalarını məsləhət görürük".

### Yeni ştamla bağlı əhaliyə xəbərdarlıq edilib

Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, Azərbaycanda COVID-19-a 18-24 sentyabrda 229 yeni yoluxma faktı qeydə alınıb. Onlardan 132 nəfəri müalicə olunaraq sağalıb, 19 nəfəri isə vəfat edib.

Azərbaycanda indiyədək 832809 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 822263 nəfəri müalicə olunaraq sağalıb, 10321 nəfəri isə vəfat edib. Ölkədə son həftə ərzində 282 nəfər, bu günə qədər isə 13969897 nəfər vaksinasiya olunub.

TƏBİB koronavirusun yeni variantı ilə bağlı əhaliyə xəbərdarlıq edib. Bildirilib ki, yeni ştam sürətlə yayıldığı üçün tezliklə Azərbaycanda da aşkarlana bilər. Lakin təlaşa düşmək üçün hər hansı əsas yoxdur. Ölkəmizdə vəziyyət kifayət qədər stabildir. Virusun dalğası ölkəmizə çatmasa da, onun sonralar da gəlməyəcəyi istisna edilmir. Ona görə də ilk növbədə şəxsi gigiyena qaydalarına əməl olunmalıdır.

Qeyd etmək lazımdır ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. Koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2 yanvar 2024-cü il saat 06:00-dək uzadılıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Kainatda həyat əlamətlərinin tapılması zaman məsələsidir

**Artıq bir çox astronom kainatın başqa yerində həyatın ola biləcəyi fikrindədir. Onları maraqlandıran sual insanların yadplanetlilərə və ya ucsuz-bucaqsız kosmik fəzada hər hansı həyat əlamətinə nə vaxt rast gəlinəcəyi barədədir.**



Yupiterlə bağlı missiyaya rəhbərlik edən alimlər bildirirlər ki, həmin planetin buzlu peyklərindən birində həyat olmasaydı, bu, "təəccüblü" olardı. NASA-nın "James Webb" kosmik teleskopu (JWST) bu yaxınlarda Günəş sistemimizdən kənarda olan planetdə həyatın olması ilə bağlı cazibədar əlamətlər aşkar edib və ən müasir teleskop indi daha çox planetdə tədqiqatlar aparır. Artıq başlamaq üzrə olan çoxsaylı kosmik missiyalar bütün zamanların ən böyük elmi kəşfi üçün səyləri artıracaq. Şotlandiya Royal İnstitutunun astronomu Ketrin Heymans deyir: "Biz nəhayətsiz ulduzlar və planetlərlə dolu sonsuz bir kainatda yaşayırıq. İndi bir çoxumuza aydın oldu ki, sonu görünməyən bu fəzada yeganə həyat Yer kürəsində ola bilməz. Bizim bu suallara cavab vermək üçün texnologiyamız və imkanımız var".

Bəzi elm adamları bunu elmi fantastika sahəsi və uzun bir "hekayə" hesab edirlər, lakin yad aləmlərdən gələn radiosiqnalların axtarışı onilliklər ərzində Yerdən kənar kəşfiyyat ("Seti") institutu tərəfindən davam etdirilir. Əlbəttə, bütün kosmik məkan müşahidə üçün çox böyükdür, ona görə də buz şəklində su əlaməti olan göy cisimlərinin tapılması bu günə qədər təsadüfi olub. Lakin JWST kimi teleskopların yadplanetli sivilizasiyaların mövcud ola biləcəyi ən çox ehtimal olunan yerləri müəyyən etmək qabiliyyəti onların "Seti"nin axtarışlarına fokuslana biləcəyi deməkdir. Kainatdakı həyatın öyrənilməsi üzrə bu institutun Karl Saqan Mərkəzinin direktoru Natali Kabrol bildirib ki, kosmik fəzada həyat əlamətlərinin aşkar olunması yaxın gələcəyin məsələsidir. Onun sözlərinə görə, bu institut teleskop massivini modernləşdirib və indi uzaq planetlərdən gələn güclü lazer impulslarından uzaq planetlərlə rabitə yaratmaq üçün ən müasir alətlərdən istifadə edir. Yüksək ixtisaslı astrobioloq olan Kabrol bəzi alimlərin "Seti"nin siqnal axtarışına niyə şübhə ilə yanaşdığını başa düşür. O, iddia edir ki, uzaq atmosferlərdən kimyəvi əlamətlər, Aya uçuşlar zamanı edilən maraqlı kəşflər və hətta Marsdakı mikrofosillər yeni tədqiqatlara səbəb olub. "Bir siqnal axtarmaq "həyat əlamətlərini tapmaq üçün bütün müxtəlif yanaşmalar arasında ən uzunmüddətli kimi görünə bilər. Lakin bu, hər an baş verə bilər. Təsəvvür edin ki, yad planetdən bizim həqiqətən də başa düşə biləcəyimiz bir siqnal daxil olur. Otuz il əvvəl planetlərin başqa ulduzların ətrafında fırlanmasına dair heç bir sübutumuz yox idi. İndi astronomların və astrobioloqların görünməmiş təfərrüatlarla öyrənə biləcəyi 5 mindən çox kəşf edilib", - deyə alim əlavə edib.

Astronomlar hesab edirlər ki, uzaq planetlərdə həyat əlamətləri tapılsa, bu, elmdə böyük bir inqilab olacaq və eyni zamanda bəşəriyyətin özünə və kainatdakı yerinə baxış tərzində əsaslı dəyişiklik yaradacaq.




**"Bir xalqın böyüklüyü və əxlaqi inkişafı onun heyvanlara münasibəti ilə ölçülür" deyib Mahatma Qandi. Ali dəyərlərə, mərhəmətli ürəyə sahib Azərbaycan xalqı da hər zaman digər canlı varlıqlara kömək, dayaq durur, onları bu dünyanın bir parçası kimi cani-dildən sevir. Ölkəmizdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyeva tərəfindən təməli qoyulan IDEA Heyvanlara Qayğı Mərkəzi 2017-ci ildən etibarən fəaliyyət göstərir. Bu mərkəz əlacsız vəziyyətdə olan heyvanları yerləşdirməklə yanaşı, sahibsiz olanların problemlərinin həlli üçün əsas diqqətini sterilizasiya, xəstəliklərin qarşısının alınması, eləcə də himayə, məsuliyyətli heyvan sahibliyi və onlara humanist yanaşmanın təşviqinə yönəldir.**





# Can dostlarımızın şəfqət ünvanı



















Azərbaycanda evdə saxlanılan heyvanların sayı gündən-günə artır və buna görə veterinar klinikalara, baytarlara müraciətlər də çoxalır. Lakin o da həqiqətdir ki, xəstələnən heyvanlarımızı etibar edəcəyimiz müasir veterinar klinikalar, eyni zamanda onlara düzgün diaqnoz qoyaraq müalicə edəcək ixtisaslı veterinar həkim tapmaq da hər zaman asan olmur.

Buna görə də qərara aldıq ki, budəfəki "Bazar günü reportajı" rubrikamızı Bakıda fəaliyyət göstərən veterinar klinikalardan birinə həsr edək. Baş çəkdiyimiz ünvan isə Hasvet Bakı Beynəlxalq Veterinar Xəstəxanası oldu.

### İmdad yeri

"Neçə gün idi ki, nə gecəmiz var idi, nə gündüzümüz. Bulud heç nə yemirdi, hərəkətsiz halda yerdə uzanıb qalmışdı. Dilsiz-ağızsız heyvanın güc-bəla ilə başını qaldıraraq, sanki "kömək edin" deyircəsinə, səssiz-səmirsiz yalvarışlı gözlərlə üzümüzə baxması ürəyimizi dağlayırdı...

Bu xəstəxanaya müraciət etdiyimiz andan Bulud gündən-günə sağalmağa, əvvəlki nəşəli, əyləncəli halına qayıtmağa başlayıb" - kömür kimi qara gözləri bəyaz tükləri arasından diqqət və maraqla ətrafı seyr edən bapbalaca itini bağrına basaraq sevinc içərisində veterinar xəstəxanasından çıxan Cavid adlı oğlan bizimlə sevincini bölüşüb şən halda yoluna davam edir...

Bu əsnada yanımızdan ötüb keçərək boz rəngli yaralı pişiyini təcili tibbi yardıma çatdırmaq üçün tələsən qadına qoşulub biz də xəstəxanaya daxil oluruq. Tibb işçiləri dərhal yaralını rentgen otağına aparır, pişiyə kömək etmək üçün lazımi prosedurlara başlayırlar. Sahibinin göz yaşları içərisində anlatdığına görə, bir anlıq diqqətsizliyi nəticəsində pişiyi parkdan avtomobil yoluna çıxmış və onu maşın vurmuşdu...

Dörd mərtəbədən ibarət səliqəli, işıqlı binada müxtəlif cinsli it və pişiklərə sahib olan xeyli qadın, kişi, uşaq var: kimisi heyvanını peyvəndlətdirməyə, kimisi müalicəyə, əməliyyata, kimisi də təmizlik xidmətlərinə gətirib.

Baxırıq ki, heyvan sahibləri ağır vəziyyətdə olan pişiyin sahibinin başına yığışıb ona ürəkdirək verir, boz pişiyin vəziyyəti ilə bağlı həyəcanla həkimdən məlumat gözləyirlər. Nəhayət, gülə-gülə müayinə otağından çıxan həkim sahibinə pişiyinin ciddi xəsarət almadığı gözaydınlığını verir. Bir anda xəstəxananı alqış sədaları bürüyür, hamı sevinclə bir-birini təbrik edir...

Əslində, kənardan baxanda qəribə, bir o qədər də heyrətamiz görünən bu mənzərə heyvan xəstəxanasında hər gün yaşanan, demək olar ki, adi vəziyyətdir... Çünki bura heyvanları ilə gələn, öz can dostunu bu şəfqət ünvanına etibar edən hər kəs həm də burada bir ailəyə çevrilir, birlikdə üzülüb, birlikdə sevinir.

Yaradıldığı çox az, cəmi beş aylıq müddətdən bəri ev heyvanlarının şəfqət ünvanına çevrilən Hasvet Bakı Beynəlxalq Veterinar Xəstəxanasındayıq.

### Bakıda heyvansevər insanlar çoxdur

Ən müasir tibbi cihaz və avadanlıqlarla təchiz olunan Hasvetdə heyvanların müayinə və müalicəsi üçün bütün xidmətlər mövcuddur. Burada USM, Rentgen, KİT, MRT, Təcili Tibbi Yardım, müayinə, endoskopiya, o cümlədən əməliyyat otaqları var. Xəstəxanada it və pişiklər üçün hotel, qruminq (baxım və qulluq) xidmətləri də mövcuddur.

Xəstəxanada it-pişik daxiliyyə xəstəlikləri, eyni zamanda tibbi görüntüləmə sahəsində mütəxəssis olan türkiyəli veterinar həkim Salih Turqut Okutturan söhbətimizdə Bakıda həddindən çox heyvansevər insan olduğunu bildirdi.

Salih həkim İstanbul Universitetinin Baytarlıq fakültəsini bitirib: "Kiçik yaşlarımdan heyvanları sevirdim. Həddindən çox yaralı heyvan görür və onları əlimdən gələn qədər müalicə etməyə çalışırdım. Atam bu istəyimi görüb 14 yaşımdan etibarən məni Türkiyədə baytar sağlıq peşə liseyinə yazdırdı, sonra bu sahənin ikiillik uzmanlığını oxudum, daha sonra isə İstanbul Universitetinin Baytarlıq fakültəsinin məzunu oldum. Bu sahəyə xüsusi marağım olduğu üçün daim yeni biliklər əldə etməyə, professor müəllimlərimizdən öyrənməyə, yəni özümü uzman olaraq yetişdirməyə çalışdım, bu günə qədər də öyrənirəm".

Salih həkim deyir ki, Türkiyədə baytarlıq sahəsində böyük bir qurum olan Hasvetin rəhbəri Hidayet Şimşek Azərbaycanda olarkən baytarlıq sahəsinin geridə olduğunu görüb və Bakıda veterinar xəstəxana açmaq qərarına gəlib: "Azərbaycanda çox dəyərli baytar həkimlər var. Hazırda altı nəfər azərbaycanlı veterinar bizimlə birlikdə çalışır. Onların çox çalışqan, həvəsli, öyrənmək istədiklərini biz də görürük. Sadəcə bu cür müasir heyvan xəstəxanaları olmadığı üçün bəzi imkanları yox idi. Biz də həm azərbaycanlı baytar həkimlərə bu imkanları yaratmaq, həm də heyvanlara kömək etmək məqsədilə Hasveti açdıq".

İnsan xəstəlikləri ilə heyvan xəstəliklərinin yüzdə doxsan faizinin eyni olduğunu bildirən həkim sadəcə virus, parazit qaynaqlı yoluxucu xəstəliklərin fərqli olduğunu dedi: "Məsələn, heyvanda da damar daralması, ürək, qaraciyər, böyrək çatışmazlığı və sair olur. Buna görə heyvanlarda istifadə olunan dərmanlar da müəyyən qədər eyni olur. Yəni xəstə heyvana da insanların müalicəsi üçün lazım olan dərmanı yazmaq mümkündür, sadəcə dozası fərqlidir".

### Pediatrlara bənzəyən veterinarlar

Salih həkim Azərbaycanda çox ağcaqanad olduğunu və onların qan parazitləri, qan qurdları, mədə-bağırsaq qurdları, ağciyər qurdları və sair kimi bir çox xəstəlik daşıdıqlarını söylədi: "Müşahidə edirik ki, Azərbaycanda ağcaqanadların yoluxdurduğu parazitar xəstəliklər Türkiyədən daha yüksəkdir. Həmçinin burada it və pişiklərdə sidik yolu problemləri yüksəkdir. Səbəb isə suyun bir az duzlu olmasıdır. Buna görə it və pişiklərin böyrəklərində, sidik yollarında həddindən çox kristal, daş yaranır".

"Necə ki 2-3 yaşındakı uşaq harası ağrıdığını söyləyə bilmir, it-pişiklər də elədir. Dilsiz olduqları üçün xəstəliklərini, ağrılarını söyləyə bilmirlər" deyən Salih həkim vurğulayır ki, baytar həkimlər özlərini uşaq həkimlərinə çox bənzədirlər. Çünki onlar da diaqnoz qoymaqda çox çətinlik çəkirlər, baytar həkimlər də: "Amma günümüzün texnologiya şərtləri ilə bu məsələ bir az asanlaşıb və daha da irəli gedəcək".

Heyvanlara orqan köçürülə bilinməməsinin səbəbləri barədə məlumat verən xəstəxananın cərrahiyyə uzmanı Özgür Eroğul bildirdi ki, səbəblərdən biri insanlarda və heyvanlarda qan qruplarının fərqli olmasıdır və uyğunlaşma tapmaq daha çətindir: "İkincisi, orqan köçürülən insanlar ömürboyu dərmandan istifadə etməli olurlar. Lakin bəzən bəlli bir çətinlik yarananda ömürboyu bu dərmanı istifadə etməli olan heyvan təbii ki, problemlə üzləşəcəkdir".

Hasvetin daxili xəstəliklər üzrə uzmanı türkiyəli Denizhan Bilim söylədi ki, əsasən it-pişiklərin və fermalardakı atların daxili xəstəliklərinə baxır: "Salih həkimlə birlikdə onların metobolik, hormonal problemləri, endokrin xəstəliklər, xərçəng, ümumiyyətlə, bütün daxili sistem problemləri ilə maraqlanırıq".

Bununla bərabər xəstələrin peyvəndlənmə proqramlarını da tərtib etdiyini, xəstə yaxınları ilə mütəmadi danışaraq it və pişiklərin peyvəndlənmə təqvimlərinin nə qədər vacib olduğunu anlatdığını bildirən baytar həkim xəbərdarlıq edir ki, bu həm heyvan sahiblərinin, həm də onların heyvanlarının sağlamlığı üçün olduqca əhəmiyyətlidir.

### Ailə üzvümüzə çevrilən canlar

Fatimə və sevimli pişiyi olan Barni ilə xəstəxananın USM otağında tanış oluruq. İt və pişiklərin qarın və sinə orqanlarının, ürəklərinin müayinə edilməsi imkanlarının olduğu bu otaqda Salih həkim əlindəki tibbi cihazla Barnini diqqətlə yoxlayır.

Barninin anadangəlmə xəstəliyinin, yəni limfa sistemindəki bir damarında problem olduğunu bildirən həkim məlumat verir ki, pişik bu xəstəxanada aparılan müalicəyə çox müsbət cavab verib və hazırda vəziyyəti yaxşıdır. Həkim xüsusi vurğulayır ki, sahibi Barnini çox sevir, onunla ciddi maraqlanır və mütəmadi müayinəyə gətirir.

Qeyri-adi baxışları, parlaq və yumşaq tükləri, sevimli hərəkətləri ilə buradakı hər kəsi özünə heyran edən Barni körpə uşaq kimi onu qucağına alıb oxşayanların, tumarlayanların köksünə sığınır, doğmalığını hiss etdirir.

Fatimə söyləyir ki, bu klinikaya gələnə qədər Barninin sağlıq vəziyyəti pis olub. Amma müalicədən sonra onun tədricən sağalmağa başladığını görüblər, indi isə sağlamlığında heç bir problem yoxdur. Buna görə də Salih həkimə çox minnətdardırlar.

Təcili tibbi yardım otağında ayağına sarğı qoyulan körpə pişiyin miyoltusu eşidilir. Sahibi Leyla xanımdan öyrənirik ki, Miya adlı pişiyi divandan yıxılıb və ayağı çıxıb. Həkimlər onun da imdadına çatır.

Xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz olunmuş əməliyyat otağına baş çəkirik. Qarnında yırtığı olan bir itin əməliyyat olunaraq reanimasiya şöbəsinə yerləşdirildiyini görürük. Həkimlər deyir ki, o, sürətlə sağalır və tezliklə evə buraxılacaq.

Xəstəxananı gəzdiyimiz müddətdə Zeze adlı pişik də bizimlə bərabər buranı dolaşdı. Tibb işçiləri dedi ki, Zeze sanki bu klinikanın stres topudur. Həkimlərin, digər işçilərin onu sığallamaları ağır iş günündən sonra onların bütün yorğunluqlarını, streslərini aradan götürür.

Hasvet Bakı Beynəlxalq Veterinar Xəstəxanasından olan reportajımızı bitirib yavaş-yavaş bu məkanı tərk edirik. Qısa zamanda burada görüb isinişdiyimiz sevimli it və pişiklərdən ayrılmağın üzüntüsü, xəstə, köməyə ehtiyacı olan heyvanlara göstərilən həssas qayğı və diqqətin onları yenidən həyata bağlayacağının sevinc hissi ilə...

*O da ən böyük arzumuzdur ki, heç bir canlı varlıq xəstələnməsin və yolu xəstəxanalara düşməsin...*

***Yasəmən MUSAYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Sağlıq olsun

**Həkim məsləhəti**

# Şirin bəlanın acı fəsadları



*Şəkərli diabet insulin ifrazının, insulin təsirinin və ya hər ikisinin pozulması nəticəsində meydana çıxan hiperqlisemiya (qan şəkərinin yüksəlməsi) ilə gedən xroniki metabolik xəstəlikdir.*

İnsanlar arasında çox sürətlə artmağa başlayan şəkərli diabet xəstəliyi (ŞD) hazırda dünya səhiyyəsi, o cümlədən ölkə iqtisadiyyatı üçün ciddi problemlərdən biridir. Statistik məlumatlara əsasən, ŞD xəstələrinin sayı 1980-ci ildəki 108 milyondan 2014-cü ildə 422 milyona yüksəlmişdir. Yayılma tezliyi yüksək gəlirli ölkələrlə müqayisədə aşağı və orta gəlirli ölkələrdə daha sürətlə artmaqdadır. ABŞ-də şəkərli diabet ən bahalı xroniki xəstəlikdir. Burada səhiyyə xərclərinin hər 4 dollarından 1 dolları diabetli insanların qayğısına qalınmasına sərf olunur. Hər il 237 milyard dollar birbaşa tibbi xərclərə, digər 90 milyard dollar isə ŞD-nin profilaktikasına xərclənir.



Şəkərli diabet korluq, böyrək çatışmazlığı, miokard infarktı, beyin insultu və aşağı ətrafların amputasiyasının əsas səbəblərindən biridir. 2000-2019-cu illər arasında diabetdən ölüm nisbəti 3 faiz artmışdır. 2019-cu ildə diabet və diabet səbəbiylə böyrək xəstəliyi təxminən 2 milyon insanın ölümünə səbəb olmuşdur.

### Şəkərli diabet xəstəliyinin tipləri hansılardır?

*1. I tip diabet və ya insulindən asılı olan diabet.*

Bu tip diabetə əsasən 5-20 yaş arasında rast gəlinir. I tip diabetdə hər hansı bir səbəbdən mədəaltı vəzin insulin ifraz edən hüceyrələri məhv olur. Başqa sözlə desək, mədəaltı vəzi (pankreas) ya çox az insulin ifraz edir, ya da heç ifraz etmir. İnsulin olmasa, şəkər sərf oluna bilməz və qanda getdikcə artar. I tip diabetin əlamətləri kəskin başlayır. Bu tip xəstələrə xəstəliyin başlanğıcından mütləq insulin müalicəsi aparılmalıdır.

*2. II tip diabet və ya insulindən asılı olmayan diabet.*

Əsasən 35 yaşından yuxarı, çox yağlı yeyən, artıq çəkili, az hərəkət edən insanlarda və xüsusilə ailəsində (qohumlarında) şəkər xəstəliyi olanlarda rast gəlinir. Daha çox yayılmış diabet tipidir. Bu xəstələrdə əsasən insulin normal ifraz olunur. Xəstəlik yeni başlayanda aktiv hərəkət, pəhriz və antidiabetik həblərlə müalicə edilir. Ancaq bir müddət sonra mədəaltı vəzin insulin ifraz edən hüceyrələrinin funksiyaları pozulur və insulin müalicəsinə başlamağa ehtiyac olur.

*3. Hamiləlik diabeti və ya hestasional diabet.*

Bu diabet ilk dəfə hamiləlik zamanı hormon dəyişikliklərinə bağlı meydana gələn diabetdir. Əvvəlcədən diabeti olub, sonra hamilə qalan qadınlar gestasional diabet xəstələri sayılmırlar. Bu tip diabet əsasən hamiləliyin ikinci yarısından meydana çıxır və hamiləlikdən sonra qanda şəkər normallaşır. Bu cür xəstələrə antidiabetik həblərdən istifadə etmək olmaz. Lazım gələrsə, insulin terapiyasına başlanılır. Bu cür xəstələrin sonradan II tip diabetə tutulma riski 40-60 faizdir. 24-28 həftəliyində bütün qadınlara oral qlükoza toleranlıq testi aparılmalıdır. Risk qrupuna daxil olan hamilə qadınlara isə ilk müayinədə bu testi aparmaq lazımdır.

### Xəstəliyin əlamətləri hansılardır?

Susuzluq, tez-tez sidiyəgetmə, çəkiitirmə, sidik yollarının infeksiyası, bulanıq görmə, qaşınma, yorğunluq, dəridə və ağızda quruluq, ayaqlarda keyimə.

### Kimlər şəkərli diabetə görə risk qrupuna daxildirlər?

Ailəsində şəkər xəstəliyi olanlar (xüsusilə birinci dərəcəli qohumlarda), ürək-damar xəstəliyi olan insanlar, artıq çəkisi olanlar (BKİ ≥ 25 kg/m2), hipertoniyası olanlar (A/T ≥ 140/90 mm.cv.st), triqliseridlərin yüksək (≥ 250 mq/dl) və ya HDL xolesterin ≥ 3.5 mg/dl olması, 4 kq və daha artıq çəkidə uşaq dünyaya gətirən qadınlar, 45 yaşından yuxarı şəxslər, gestasional (hamiləlik) diabet anamnezi, yumurtalıqların polikistozu sindromu.

### Şəkərli diabetin müasir müalicə üsulları

Bu gün bəşəriyyət şəkərli diabetin müalicə üsullarını araşdırmağa və təkmilləşdirməyə davam edir. Onlar arasında bəzi müasir üsulları nəzərdən keçirək.

***Diabet üçün sağlam qidalanma məsləhətləri***

*1. Diabetdə qan şəkərini tənzimləmək üçün gündə 6 dəfə yemək lazımdır.*

Normal insanlar üçün sağlam qidalanmada qəlyanaltılar önəmlidir. Amma şəkərli diabetdə bu qəlyanaltılar əvəzolunmazdır. Səhər saat 9:00-dan gec olmayaraq səhər yeməyi və 19:00-dan əvvəl şam yeməyi xüsusilə vacibdir. Şəkərli diabetdə qidalanma pasientə və diabetin növünə görə diyetoloq və ya mütəxəssis tərəfindən ən uyğun şəkildə hazırlanır. Məsələn, diabetli uşaq və diabetli hamilə qadın üçün qidalanma siyahısı hazırlamaq daha çox diqqət tələb edir.

Əslində, qidalanmada lazımi irəliləyiş əldə olunarsa və idmanla xəstəliklərin qarşısını alan fəaliyyətlər həyata daxil edilərsə, diabetə yüksək səviyyədə nəzarət etmək, hətta onu müalicə etmək mümkündür. Qidalanma və idman diabetdə bir-birinin dostudur. Qan şəkərini normal səviyyəyə endirməyin sirri bütöv bir sağlam həyat tərzi yanaşmasının tətbiqidir.

*2) Qidalanarkən bunlara diqqət edin:*

Hər yeməkdə yediyimiz ağ çörək əvəzinə ilk növbədə tam buğdalı, çovdarlı və tam taxıllı çörəklərə müraciət edilməlidir. Düyü plovu yerinə bulqur istehlakını artırmalı, ağ makaron yerinə tam buğda və ya tam buğdalı makarondan istifadə edilməlidir.

Meyvələri qabıqları ilə yeməyə üstünlük verilməlidir. Xüsusilə də analar səhər yeməyində övladlarına bunu tez-tez verməlidirlər. Meyvəni tikə-tikə doğrayaraq, yaxud püre halına salaraq uşaqlarınıza verə bilərsiniz. Banan, əncir, üzüm, qovun və qarpız yüksək şəkərli meyvələrdir ki, buna qlisemik indeks deyirik. Bunun əvəzinə yaşıl alma, portağal, naringi, qreypfrut və kivi yeyə bilərsiniz.

Yeməklərə salat əlavə etməklə lif qəbulunu artıra bilərsiniz. Salat hər yeməkdə mütləq olmalıdır, çünki yeməkdə olan karbohidratlar qan şəkərinin dərhal yüksəlməsinin qarşısını alır! Salata nar siropu və ya hazır salat sousları qatılmalıdır.

Evdə şirniyyat məhsulları hazırlayacaqsınızsa, ağ un yerinə yulaf unu və ya tam buğda unu seçilməlidir. Qəhvə və çay şəkərsiz olduğu müddətdə içilməsinə icazə verilir. Bununla belə bəzi qəhvələrdə əlavə krem ola bilər. Məsələn, latte və mocha kimi qəhvələrin yerinə filtrli qəhvə və ya türk qəhvəsi seçə bilərsiniz.

*3) Lifli qidalara üstünlük verilməlidir*

Şəkərli diabetdə qidalanma necə olmalıdır sualının ilk cavabı belədir: lifli qidaların istehlakı artırılmalıdır. Diabetdə qidalanma müalicəsinin məqsədləri şəkərli qidalardan qaçmaqdan, həmçinin şəkərin qəfil artması və ya azalmasının qarşısını almaqdan ibarətdir. Lifli qidalar mədə turşusu ilə mədədə şişir və toxluq hissini artırır.

Lifli qidalar mədədən sonra birbaşa bağırsağa keçdiyi üçün xolesterol və şəkərin qana dərhal qarışmasını gecikdirir. Bununla qan şəkərində ani düşmələrin və artmaların qarşısını almaq mümkündür. Lif daha çox meyvə, tərəvəz, bütün taxıl məhsulları və yulaflarda olur. Pəhrizə keçəndə mütləq gündə 25 qram pəhriz lifi nəzərə alınmalıdır. Ancaq indiki pəhrizlərə baxanda bu nisbət maksimum 15 qram olaraq qalır. Bəzi vərdişlərimizi dəyişdirərək lif tərkibini artıra bilərik. Burada nəzərə alınması vacib olan məqam lifli qidalardan istifadə etdikdən sonra su içilməsidir. Əks halda qəbizlik yarana bilər.

*4) Bişirmə üsulu, qlisemik indeks və sağlam yağlar*

Diabetli şəxslərin pəhrizində yeyilməsi lazım olan qidalarla yanaşı, qaçınılması vacib olan qidalar da var. Karbohidratlı qidalar ilk tikəni qəbul etdiyiniz andan 2 saat ərzində qan dövranına daxil olur. Ancaq eyni şey yağlı qidalar üçün keçərli deyil. Çünki yağlı qidalar qana yavaş qarışır və gec həzm olunur. Bu müddət 3 ilə 8 saat arasında dəyişə bilər. Bu səbəbdən qan şəkərinin səviyyəsini daha nizamlı saxlamaq üçün mayonez, qaymaq, işlənmiş qidalar və qızardılmış qidalardan qaçmaq lazımdır.

Qızartma əvəzinə bişirmə, qaynatma və ən çox tövsiyə olunan qril üsulu ilə bişirmə üsullarından istifadə edin. Lakin bu o demək deyil ki, şəkər xəstəsinin qidalanmasında yağ istehlakını tamamilə yığışdırmaq lazımdır. Əksinə, yaxşı qaynaqlı yağları yemək bədən üçün faydalıdır. Məsələn, balıq, avokado, zeytun, qoz-fındıq kimi yaxşı yağlar diyetə daxil edilməlidir. Ancaq balansı həmişə qorumaq lazımdır!

*5) Vitamin D əlavəsi, həftədə 2 gün balıq*

Diabetdə düzgün qidalanma çərçivəsində müəyyən qida qruplarına fokuslanmaq yaşanan narahatlığı minimuma endirə bilər. Diabet xəstələrində tez-tez D vitamini çatışmazlığı ilə qarşılaşırıq. Bu səviyyə qan testlərində yoxlanılmalı və lazım gələrsə, əlavələr verilməlidir.

D vitamini mənbələri yalnız günəş işığında və balıqlarda olur. Qış fəsli yaxınlaşdıqca günəş işığından yararlanma vaxtımız azalır. Odur ki, həftədə ən azı iki dəfə balıq yeməklə D vitamini ehtiyacını qarşılamaq olar. Bu, qan şəkərini istədiyiniz səviyyədə saxlamağa kömək edər. Əks halda xeyli un və yağın səbəb olduğu qızartmaya görə 3-cü saatda qan şəkəriniz həddindən artıq yüksələ bilər.

*6) Diabetdə qidalanma üçün 9 ipucu*

Bol su içmək, gündə ən azı yarım saat gəzmək, iki dəfə qan şəkərini yoxlamaq, şəkərli və işlənmiş qidalardan uzaq durmaq, qidada porsiyaya nəzarəti təmin etmək, yemək vaxtlarını qaçırmamaq, xəmir və qızardılmış qidalardan uzaq durmaq. Bu, insulin müqavimətinizi qırmağa kömək edir.

*Üstəlik:*

Unutmayaq ki, hər qidanın öz ekvivalenti var. Daha az yağlı və şəkərli qidalarla süfrənizə alternativlər əlavə edə bilərsiniz. Gəlin etiketləri (qidaların tərkibi, qlükoza dəyəri) oxumağa vərdiş edək. Bu halda qan şəkəriniz tənzimlənəcək və bel ətrafı, bədən kütlə indeksi kimi antropometrik ölçülər istədiyiniz səviyyəyə çatacaq.

### Şəkərin miqdarını azaldan vasitələr

Bu vasitələrə diabet əleyhinə vasitələr də deyilir. İnsulin olarsa, lakin miqdarı azdırsa və ya öz funksiyasını tam yerinə yetirə bilmirsə, o zaman preparatlardan qanda şəkəri normada saxlamaq üçün istifadə olunur. Şəkəri azaldan vasitələr pəhriz qidaları ilə yanaşı təyin edilir.

Fiziki aktivlik

Tibbi ədəbiyyatda, o cümlədən internet resurslarında diabetli xəstələrin fiziki aktivliyi ilə bağlı geniş məlumat mövcuddur. Lakin bəzi məqamları nəzərdən qaçırmamalıyıq:

*1. Əgər yaş 50-dən yuxarıdırsa, ağır fiziki işlər qadağandır. Səbəb isə travma almaq, bağ və vətər qopmaları, o cümlədən aşağı ətraflarda gizli aseptik iltihabın başlama riskidir.*

*2. Ən çox tövsiyə edilən həftədə 5 gün 30 dəqiqə və ya günaşırı 50 dəqiqə orta sürətli gəzintidir.*

### İnsulin müalicəsi

İnsulin, adətən, ilkin başlanğıcda şəkərazaldan preparatlarla yanaşı təyin olunur. Lakin böyrək çatışmazlığı olan xəstələrdə bütün (bir qisim istisna olmaqla) oral antidiabetik dərmanlar dayandırılır. İnsulin müalicəsinə göstərişlər - çəkinin aşağı salınması, ketoasidoz, cərrahi əməliyyatöncəsi müalicə, həmçinin II tip şəkərli diabetə bağlı bütün ağırlaşmalardır (göz, ürək, böyrək, damar). I tip şəkərli diabet xəstələri daim insulin terapiyası almalıdırlar. Bununla yanaşı, qlükozanın qanda miqdarı daim nəzarətdə saxlanılmalıdır. Eləcə də aktiv həyat tərzi və endokrinoloq nəzarəti vacibdir.

### Nə öyrəndik?

- *Sağlam qidalanma, müntəzəm fiziki fəaliyyət, normal bədən çəkisini saxlamaq və tütündən istifadədən çəkinmək II tip diabetin baş verməsinin qarşısını almaq və ya gecikdirmək üsullarıdır.*
- *Pəhriz, fiziki fəaliyyət, dərman müalicəsi və müntəzəm müayinə və fəsadların müalicəsi ilə diabeti müalicə etmək və onun nəticələrinin qarşısını almaq və ya gecikdirmək olar.*
- *Şəkərli diabet xroniki və ağır fəsadlar verən xəstəlikdir. Ona görə də patologiyanın ilkin mərhələsində diabetin müalicəsinə peşəkar yanaşmaq lazımdır.*

**Elgün HƏZİYEV,**
***Milli Onkologiya Mərkəzinin Nefroloji Kabinetinin və Tədris Terapevtik Klinikanın Efferent Terapiya Mərkəzinin rəhbəri***




# "ChatGPT" dəstəkli smart eynək yaradılıb

**"Solos" şirkəti süni zəka əsaslı "ChatGPT"yə sürətli keçid funksiyasına malik smart eynəyi təqdim edib. "AirGo 3" adlı smart nitqi tərcümə edə, smartfondakı bildirişləri göstərə və bəzi fitnes treker tapşırıqlarını yerinə yetirə bilir. "AirGo 3" xarici görünüşcə adi eynəklərdən fərqlənmir. Cihaz səsli əmrlər və ya mobil tətbiq vasitəsilə idarə edilir.**



"AirGo 3" vasitəsilə "ChatGPT" ilə ünsiyyət yaratmaq üçün istifadəçi onu maraqlandıran sualı səsləndirməlidir. Smart eynək sualı mikforon vasitəsilə qəbul edərək cavabı kiçik səsgücləndiricilər vasitəsilə istifadəçiyə çatdırır. Eyni üsulla nitqi tərcümə edir və smartfona daxil olmuş bildirişi səsləndirir.

"AirGo 3" həmçinin naqilsiz qulaqcıqlar və fitnes trekerlərin bəzi funksiyalarını yerinə yetirə bilir. Belə ki, smart eynək istifadəçiyə onun düzgün oturmadığını, daimi şəkildə maye qəbul etməyin vacibliyini xatırladır, yandırılmış kalorilər və digər fiziki aktivliklər barəsində məlumatları təqdim edir.

Yeni cihaz 3 variantda təqdim olunub. "Argon", "Xeon" və "Helium". Onlar bir-birlərindən dizayn və satış qiymətləri ilə fərqlənirlər.

## "Google"un bu tətbiqi bağlanır

**"Google" 2018-ci ildə buraxılan "Google Podcast" tətbiqini bağlayacağını açıqlayıb. Şirkətin bu addımı atmasına səbəb dinləmə təcrübəsini daha da mərkəzləşdirməkdir. Tətbiqin istifadəçiləri "YouTube Music"ə köçürüləcək. Bu qərar "Google"un podcast məzmununu "YouTube Music"ə inteqrasiya etmək planının bir hissəsidir.**

"Google Podcast" ilk olaraq Android istifadəçiləri üçün əlçatan olub, daha sonra 2020-ci ildə veb və iOS platformalarına genişləndirilib. Tətbiqi "YouTube Music"ə köçürməklə "Google" daha geniş istifadəçi bazasına podkast məzmunu təklif etməyi hədəfləyir. Amerikada "YouTube Music" istifadəçiləri pulsuz üzvlüklə podkastları dinləyə və baxa bilərlər. Bu platformada podkastları fonda oxutmaq, oflayn endirmək və ağıllı dinamiklərə yayımlamaq olar.

"Google" öz açıqlamasında dinləyicilərinin 23 faizinin "YouTube"dan podkast dinləmə platforması kimi istifadə etdiyini, "Google Podcast"a üstünlük verənlərin isə yalnız 4 faizinin olduğunu bildirib. Şirkət bu dəyişikliyin "Google Podcast" istifadəçiləri üçün problemsiz keçidlə baş verəcəyini vurğulayıb.

# Gəmilərdə sürətli internet olacaq

**Almaniyanın gəmiçilik şirkəti olan "Hapag-Lloyd" donanmasına "Starlink" peyk internet texnologiyasını tətbiq edəcək. Bununla da şirkətin gəmilərindəki internet bağlantısı yaxşılaşacaq. Yeni qərar İlon Maskın texnologiyasının sınaqları başa çatdıqdan sonra qəbul edilib.**



May ayından etibarən dörd pilot gəmidə "Starlink" texnologiyasını sınaqdan keçirib. Yüksək sürətli peyk interneti videozənglər və digər xidmətlər üçün fasiləsiz əlaqəni yaxşılaşdırıb.

Peyk şəbəkəsinin tutumu saniyədə 250 meqabitə çatır ki, bu da heyətləri rabitə ilə təmin edir. Bu həmçinin "Hapag-Lloyd"-a gəmilərə məsafədən texniki xidmət və yoxlama aparmağa imkan verir. Gəmilərdə bütün lazımi avadanlıqların quraşdırılması 2023-cü ilin sonunadək başa çatdırılacaq.

# "OnePlus"dan yeni məhsul

**"OnePlus" şirkətinin üzərində çalışdığı yeni məhsullardan biri də "OnePlus Buds Pro 3" naqilsiz qulaqcıqlarıdır. Yeni qulaqcıq xarici görünüşünə görə hazırda aktual olan "OnePlus Buds Pro 2"dən heç də fərqlənməyəcək.**



"OnePlus Buds Pro 3"ün həm qulaqcığı, həm də şarj keysi sudan qorunacaqdır. Bundan əlavə, o, ətraf səs-küyün aktiv boğulması funksiyasını yerinə yetirəcəkdir. Bu funksiya sayəsində qulaqcıqlar ətraf səs-küyü 48 dB-ə (desibel) kimi boğa biləcəklər. Yeni məhsul şarj keysi ilə birlikdə 22 saat ərzində çalışa biləcək.

"OnePlus Buds Pro 3" 2024-cü ilin yanvar ayında təqdim olunacaq.

# "Google"un smart qolbağı

**"Google" 2021-ci ildə "ağıllı qolbaq" istehsalçısı olan "Fitbit" şirkətini almışdı. Şirkət sözügedən brend altında "Fitbit Charge 6" yeni smart qolbağını nümayiş etdirib. O, iki il bundan öncə təqdim edilmiş "Fitbit Charge 5"in davamçısıdır.**

AMOLED ekranla təchiz olunmuş "Fitbit Charge 6" özündə kontaktsız ödənişlər üçün nəzərdə tutulmuş NFC çipinə sahibdir. Smart qolbağ həmçinin elektrokardioqrammanı reallaşdıra və qandakı oksigenin miqdarını ölçə bilir. Üstəlik, cihaz 40 ədəd idman rejimini dəstəkləyir. "Google" sözügedən smart qolbağa "Google Maps", "Google Wallet" və "Youtube Music" dəstəyini də əlavə edib.

"Fitbit Charge 6" bir dəfə şarj olunandan sonra 7 gün çalışa bilir. Smart qolbağın ön sifarişlərinin qəbuluna start verilib.



# Elektromobillərin istehsalat xərcləri azalacaq

**"Tesla" "Gigacasting" pressləmə texnologiyasının təkmilləşdirilməsi üzərində çalışır. Bunun sayəsində şirkət elektromobillərinin istehsalat xərclərini aşağı salacaq.**



"Tesla" elektromobillər üçün detalların formalaşdırılması istiqamətində təzyiq gücü 6000-9000 ton olan böyük ölçülü press mexanizmlərindən istifadə edən ilk şirkətdir. Şirkət Şanxaydakı zavodunda 2020-ci ildən başlayaraq bu üsul vasitəsilə "Tesla Model Y" elektromobilinin arxa və ön hissələrini hazırlayır. Bu isə öz növbəsində modelin istehsalat xərclərini 40 faiz aşağı salır. Elektromobilin alt hissəsinin bütövlükdə bu üsulla hazırlanması isə istehsal xərclərini daha da aşağı salacaq.

# "Microsoft"un növbəti noutbuku

**"Microsoft" şirkəti "Surface Laptop Studio 2" növbəti noutbuk modelini təqdim edib. Daha öncəki modeldən fərqli olaraq, yeni cihazın daha performanslı texniki imkanları var.**



"Surface Laptop Studio 2" 120 Hz-lik təsvir yenilənməsinə sahib 2400x1600 piksel keyfiyyətli 14.4 düym ekranla təchiz olunub. Ekranın maksimal parlaqlıq səviyyəsi 650 nit təşkil edir və "Surface Slim Pen 2" stilusunu dəstəkləyir. O, "Intel Core i7-13700H" prosessoru vasitəsilə çalışır və özündə 64 GB-a kimi RAM yaddaşı birləşdirir.

"Surface Laptop Studio 2"nin prosessoru "Intel"in "Gen3 Movidius 3700 VPU" adlı süni zəka sürətləndiricisi ilə təmin edilib. "Microsoft"un sözlərinə görə, noutbuk bir dəfə şarj olunandan sonra 18 saat ərzində çalışa bilir. O, özündə 2 ədəd USB-C girişini, 2 ədəd USB-A girişini, microSD kart oxuma girişini və naqilli qulaqlıqlar üçün 3.5 mm-lik audiogirişi birləşdirir.

## Qulaqcıqlı "ağıllı" yuxu maskası

**Çinlilər "Xiaomi" istifadəçiləri üçün onların daha tez və yaxşı yuxuya getməsinə kömək edəcək yeni məhsul hazırlayıb. Qulaqcıqlı "ağıllı" yuxu maskası "Meet" adlandırılıb.**



"Meet" yuxu maskası olsa da, o həm də müasir texnologiyadan - xarici səsləri minimuma endirən qulaqcıqlardan istifadə edir. Qulaqcıqların səs səviyyəsi həm əllə, həm də avtomatik olaraq tənzimlənir. İstifadəçi müəyyən yuxu mərhələsinə çatdıqda isə musiqi tamamilə sönür. Yeni cihazda müxtəlif funksiyaları konfiqurasiya etmək və yuxu ssenarilərini seçmək mümkündür.

"Meet" smartfona qoşulur. Maska sahibi seçilmiş müddət ərzində yüksək keyfiyyətli və sağlam istirahətdən zövq almaq üçün istədiyi yuxu rejimini seçə bilər. Məlumata görə, cihaz artıq sifariş üçün hazırdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun vida və dəfn mərasimi keçirilib





**Sentyabrın 30-da Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun vida və dəfn mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Milli Qəhrəmanın ailə üzvlərinin, döyüş yoldaşlarının, ayrı-ayrı qurumların nümayəndələrinin, tanınmış ziyalıların, təhsil işçilərinin və tələbələrin iştirak etdikləri vida mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Vida mərasimində çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəis müavini Şərafət Həsənov bildirib ki, dövlətimiz Riad Əhmədovun axtarışları ilə hər zaman məşğul olub. Riadın tapılması istiqamətində müxtəlif vaxtlarda Ermənistanın siyasi rəhbərliyi ilə danışıqlar aparılıb. Lakin bu danışıqlar heç bir nəticə verməyib.

O deyib ki, Vətən müharibəsindən sonra Şuşa və Daşaltı ətrafında Milli Qəhrəmanın axtarışları davam etdirilib. Axtarışlar nəticəsində şəhidlərimizin nəşi tapılıb.

"Biz 9-u hərbçi, 1-i mülki şəxs olmaqla daha 10 vətəndaşımızın meyit qalıqlarının eyniləşdirilməsinə nail olduq. Onlardan biri də Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov idi", - deyə DTX-nin rəis müavini bildirib.

O qeyd edib ki, Birinci Qarabağ müharibəsində 3 890 nəfər itkinimiz olub, onların tapılması istiqamətində axtarışlar davam etdirilir.



Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun döyüş yoldaşı, Daşaltı əməliyyatının iştirakçısı İlyas İsmayılov çıxışında deyib: "Riadın Azərbaycan hərb tarixinə adını yazdırdığı döyüş məşhur Daşaltı əməliyyatıdır. Əməliyyat planına görə, məqsəd Qızılqaya hündürlüyünə qalxaraq, oradan Daşaltıdan Sığnaxa və Şuşakəndə aparan yolu kəsmək olub".

O vurğulayıb ki, Riad döyüş zamanı yaralansa da, bunu büruzə vermirdi, döyüşə yaralı vəziyyətdə davam edirdi.

"Riad döyüş zamanı yaralanmışdı. Amma döyüşdən çıxmağa razı olmadı. Nəticədə necə şəhid olduğunu görə bilmədik. Onu çağırsaq da, Riaddan səs gəlmədi", - deyə İ.İsmayılov qeyd edib.

Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun bacısı Mehriban Əhmədova çıxışı zamanı bildirib: "Qardaşım Azərbaycanın ilk Milli qəhrəmanlarındandır. Onu çox vətənpərvər biri kimi tanıyıblar. Bizim üçün Riadın yoxluğunu yaşamaq, hiss etmək çox çətindir. Biz bu faciəni 31 il bundan öncə yaşamışıq. Ona həsr olunmuş bu vida mərasimi bir daha sübut etdi ki, Vətənin azadlığı uğrunda canlarını fəda edənlər heç vaxt unudulmur".

M.Əhmədova qeyd edib ki, Riad kimi vətənpərvərlərin həyat və döyüş yolları gənclərə örnəkdir.

"Riad çox xeyirxah, sadə və vətənpərvər insan idi. O, döyüşlər zamanı, mühasirədə olanda belə, yoldaşlarında ruh yüksəkliyi yaradırdı, onlarla zarafat edirdi. Bu da Riadin həm də yüksək insani keyfiyyətlərindən xəbər verirdi", - deyən şəhidin bacısı Riad Əhmədovun xatirəsinin əbədiləşdirilməsinə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və dövlətimizə dərin minnətdarlığını bildirib.

Digər çıxış edənlər Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov barədə xatirələrini bölüşüb, onun vətənpərvərlik, qəhrəmanlıq, igidlik rəmzi olduğunu vurğulayıblar.

Qeyd olunub ki, Riad Əhmədov doğma Vətənini, xalqını, ailəsini sonsuz məhəbbətlə sevən insan idi.

Sonra Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun İkinci Fəxri xiyabanda dəfn mərasimi keçirilib. Mərasimdə şəhidin ruhuna dualar oxunub, məzarı üzərinə tər güllər düzülüb. Riad Əhmədovun xatirəsinə ehtiram əlaməti olaraq 3 dəfə yayılım atəşi açılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd edək ki, Əhmədov Riad Fikrət oğlu 1956-cı il dekabrın 20-də Bakıda anadan olub. O, 1976-1979-cu illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası İnstitutunda laborant işləyib. 1979-1980-ci illərdə həmin nazirliyin Qanun Layihələrinin Hazırlanması və Qanunvericiliyin Sistemləşdirilməsi idarəsində məsləhətçi, 1980-1981-ci illərdə isə Ədliyyə Nazirliyinin kadrlar şöbəsində baş məsləhətçi vəzifələrində çalışıb. 1981-ci ildə təhlükəsizlik orqanlarında fəaliyyətə başlayan Riad Əhmədov 1981-1982-ci illərdə DTK-nin Minskdəki Ali Məktəbində təhsil alıb. 1984-cü ildə isə DTK-nin Y.V.Andropov adına İnstitutu nəzdindəki kurslarda dinləyici olub.

1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsində çalışıb. Riad Əhmədovun başçılıq etdiyi xüsusi kəşfiyyat dəstəsi Qarabağ uğrunda gedən döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edib.

Riad Əhmədov 1992-ci il yanvarın 26-da rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşüb. Uzun illər onun yeri müəyyən olunmayıb. 2023-cü il sentyabrın 18-də Bakıda keçirilən "İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün milli və qlobal səylərin artırılması" üzrə beynəlxalq konfransda Riad Əhmədov və digər itkin azərbaycanlıların nəşlərinin tapıldığı və müəyyənləşdirildiyi açıqlanıb.

Riad Əhmədov 1992-ci il iyunun 7-də "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bakı şəhərindəki 203 nömrəli tam orta məktəb onun adını daşıyır. R.Əhmədovun şərəfli döyüş yolunu əks etdirən "İgidnamə" sənədli, "Qayıt, Riad" bədii-sənədli və "İtirdiyimiz qəhrəman" filmləri çəkilib.

# Xatirələrdə yaşayan ömür






**İşi, əməli, elmi fəaliyyəti ilə adını yaddaşlara yazmağı bacaranların keçdiyi ömür yolu sonradan xoş xatirələrə çevrilir. Belələri haqqında söz düşəndə "gəldi, yaşadı, getdi", - demirlər. "O, bu ömrü əsl insan kimi yaşamağı bacardı", - söyləyirlər.**

Həyatını insanların hüququnun qorunmasına, ədalətin bərqərar olmasına həsr ermiş, uzun müddət prokurorluq orqanlarında səmərəli fəaliyyət göstərmiş Xanoğlan Şıxəliyevin ömrü kimi... Xanoğlan Şıxəliyev cəmi 66 il yaşasa da, adını onu tanıyanların, el-obasının, Azərbaycan hüquq ictimaiyyətinin yaddaşına əbədi yazdırmağı bacaran, sağlığında "elin adamı", "Allah adamı", "Vətənin övladı" kimi dəyərləndirilən, bu dünyadan köçdükdən sonra hörmət və rəhmətlə anılan nadir insanlardandır.

Bu günlərdə Xətai rayonunda, Yeni Azərbaycan Partiyasının inzibati binasında mərhum Xanoğlan Şıxəliyevin keçdiyi mənalı ömür yolundan və fəaliyyətindən bəhs edən "Qısa ömrün xatirələri" adlı kitabın təqdimatı keçirilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərhumun yaxın dostu, uzun illər onunla prokurorluq orqanlarında birgə çalışan Zahid Vəliyev Xanoğlan Şıxəliyevin işlədiyi müddətdə dövlətə sədaqətlə xidmət etdiyindən, prinsipiallığından, tutduğu vətəndaş mövqeyindən, yaxşı dost, işini sevən ədalətli prokuror olmasından, digər insani keyfiyyətlərindən danışdı.

Zahid Vəliyev çıxışında mərhumun yaradıcı təfəkkürə malik insan olduğunu da vurğulayaraq qeyd etdi ki, Xanoğlan Şıxəliyevin müəllifi olduğu "Heydər Əliyevin çörəyi" adlı kitab indi də prokurorluq işçilərinin stolüstü kitabıdır.

Tədbirdə Azərbaycan Respublikasının Xalq rəssamı Arif Hüseynov, Milli Məclisin deputatları Hikmət Babaoğlu və Vüqar İsgəndərov, Əməkdar incəsənət xadimi Abdulla Qurbani, din xadimi Hacı Surxay Məmmədli, mərhumun qohumu Hacı Mirmehdizadə, Əməkdar müəllim Nizami Şıxəliyev, mərhumun oğlu Müşfiq Şıxəliyev çıxış edərək, Xanoğlan Şıxəliyevin keçdiyi zəngin həyat yolu haqqında xatirələrini bölüşüb, tədbir iştirakçılarına maraqlı məlumatlar verdilər.

Xatırladaq ki, kitabın müəllifi mərhumun qızı Nuranə Şıxəliyevadır. Oxuculara təqdim olunan "Qısa ömrün xatirələri" kitabında respublikamızda tanınmış, sayılıb seçilən içtimai-siyasi xadimlərin, qələm sahiblərinin Xanoğlan Şıxəliyevin keçdiyi şərəfli və məzmunlu həyat yolu haqqında ürək sözlərini oxuduqca, xalqı, dövləti üçün çalışan sədaqətli bir insanın sevənlərinin qəlbində əbədi yaşadığına əminlik yaranır. Eyni zamanda "əsl dost, ləyaqətli və şərəfli insan necə olmalıdır" sualına asanlıqla cavab tapmaq olur.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV, (foto)*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*


# Xalqımızın mədəniyyəti, mətbəxi, məişətinə aid nümunələr "Tbilisoba" bayramında nümayiş olunub

**Dünən Gürcüstanda ənənəvi olaraq "Tbilisoba" bayramı qeyd olunur. İki gün davam edəcək bayram çərçivəsində paytaxt Tbilisinin Orbeliani, Qudiaşvili meydanlarında, Heydər Əliyev, Leqvtaxevi və Rike parklarının ərazilərində bayram yarmarkaları açılıb.**



AZƏRTAC xəbər verir ki, bayram çərçivəsində Tbilisi sakrebulosunun Milli Azlıqlar Şurasının təşəbbüsü ilə "Tbilisinin müxtəlifliyi" adlı sərgi-satış yarmarkası da açılıb.

M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin təşkilatçılığı ilə yaradılan azərbaycanlı icmanın guşəsində Azərbaycan xalqının mədəniyyəti, mətbəxi, məişətinə aid nümunələr sərgilənib, müxtəlif əl işlərinin satışı təşkil olunub.

Azərbaycan guşəsini ziyarət edənlər milli mətbəximizin təamlarından dadıb, milli suvenir və xalçalarla maraqlanıblar.

Qonaqların Azərbaycan guşəsində nərd oynamaları guşəni seyr edənlərin də böyük marağına səbəb olub. Gürcüstanın dövlət və hökumət rəsmiləri bayram tədbiri keçirilən küçə və parkları gəzib, toplaşan insanları təbrik ediblər.

Qeyd edək ki, "Tbilisoba" bayramı ilk dəfə 1979-cu ildə qeyd olunub.

Bayram məhsul yığımı mövsümü və yarmarkalarla əlaqədardır, hər il sentyabr ayının sonu, oktyabrın əvvəlində keçirilir.

# Sumqayıt çimərliyinin sahil zolağı tullantılardan təmizlənib

**Sumqayıt şəhər Corat qəsəbəsi daxilində yerləşən çimərlikdə sahilyanı təmizlik aksiyası keçirilib.**

Aksiya Beynəlxalq Dəniz Günü ilə əlaqədar ölkəmizdə qeyd edilən "Xəzər həftəsi" çərçivəsində IDEA İctimai Birliyi və Bakı Dövlət Universitetinin "Ekologiya və torpaqşünaslıq" fakültəsinin birgə təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə təşkil olunub.



AZƏRTAC xəbər verir ki, Bakı Dövlət Universitetinin 300 dəfədən çox tələbə heyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri və könüllülərin də aktiv iştirak etdiyi aksiyada 3 hektardan artıq sahil zolağı plastik və digər tullantılardan təmizlənib. Toplanan tullantılar Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

Tədbirin keçirilməsində məqsəd sahilyanı ərazilərin məişət tullantıları ilə çirklənməsinin qarşısını almaq, Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaqdır. Xatırladaq ki, Beynəlxalq Dəniz Günü dünya ictimaiyyətinin diqqətini su hövzələrinin və onun bioresurslarının qorunmasına yönəltmək məqsədilə 1978-ci ildə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qərarla təsdiqlənib. Həmin ildən etibarən hər il sentyabr ayının sonuncu həftəsi Beynəlxalq Dəniz Günü kimi qeyd olunur.

"Xəzər həftəsi" çərçivəsində keçirilən təmizlik aksiyası ekoloji cəhətdən dənizin saflığının qorunması, onun sərvətlərinin mühafizə olunması, eyni zamanda ictimaiyyətin maarifləndirilməsinə xidmət edir. IDEA İctimai Birliyi hər kəsi Xəzər dənizinin sahillərini çirklənmədən qorumağa və onun sərvətlərinin mühafizə olunmasında birlikdə olmağa çağırır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli professor Qəzənfər Paşayevə əzizi

**QƏNİRƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5378
Sifariş 2492

Qiyməti 40 qəpik